# BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

## ВЕСТНИК БАКИНСКОГО УНИВЕРСИТЕТА

## NEWS OF BAKU UNIVERSITY

**SOSİAL-SİYASİ**
***elmləri seriyası***

***серия***
**СОЦИАЛЬНО ПОЛИТИЧЕСКИХ НАУК**

***series of***
**SOCIAL-POLITICAL SCIENCES**

**№ 3, 2020**

Bakı – 2020

## HÜQUQ

ORCHID ID: https://orcid.org/0000-0001-5305-7113

# VİRTUAL MƏKAN, KİBERTƏHLÜKƏLƏR VƏ İNSAN HÜQUQLARININ MÜDAFİƏSİ

**G.A.RZAYEVA**
*Bakı Dövlət Universiteti*
*gulnazaydin@yahoo.com*

*Müasir cəmiyyətdə dünyagörüşünün dəyişməsi və inkişafı eyni zamanda hüquqazidd davranışlara da öz təsirini göstərir. Ənənəvi üsulların dövrün tələblərinə cavab vermədiyi bir şəraitdə insan hüquqlarına qəsd edən əməllərin törədilməsində yeni üsul və vasitə kimi İKT-dən daha çox istifadə olunur. Bu da kibercinayətlərlə mübarizənin gücləndirilməsini tələb edir. Məqalədə qlobal informasiya cəmiyyətində kibercinayətlərlə pozulan insan hüquqlarının müdafiəsi mexanizmlərinin işlənib hazırlanmasına dair təklif və tövsiyələr irəli sürülür.*

**Açar sözlər:** qlobal informasiya cəmiyyəti, kiberməkan, kibercinayət, ifadə azadlığı, şəxsi toxunulmazlıq hüququ, əqli mülkiyyət hüququ, informasiya siyasəti.

## Giriş

Qlobal informasiya cəmiyyətinin sürətlə inkişafı insan hüquqlarının müdafiəsi mexanizmlərinin, eləcə də onlara qarşı yönəlmiş pozuntularla mübarizənin də dünya miqyasında müzakirəsinə gətirib çıxarmışdır. Qlobal informasiya cəmiyyəti yeni tip cəmiyyətdir ki, burada informasiya dövriyyəsi zaman, məkan, siyasi sərhədlər tanımır və məhz biliklərin emalı nəticəsində cəmiyyətin həyatının bütün aspektlərdə yaxşılaşdırılması üçün əsaslı qərarlar verilə bilər. Bu cəmiyyətin əsas tələbi hər kəsin informasiya mübadiləsində iştirakının təmin edilməsi olduğu üçün hal-hazırda internet şəbəkəsi həyatımızın ayrılmaz hissəsinə çevrilmişdir. Təbii ki, İKT-nin imkanlarından məqsədyönlü istifadə ilə yanaşı, qeyri-qanuni əməllərin törədilməsi də qaçılmaz haldır. Hətta, ənənəvi cəmiyyətdə mövcud olan cinayətlərin də kiberməkanda yeni törədilmə üsulları formalaşmışdır ki, bu da “kibertəhlükə” problemini gündəmə gətirmişdir. İnformasiya cəmiyyətinin ilikin dövrlərində kiberməkanda törədilən pozuntular yalnız informasiya hüquqlarına qəsd edirdisə, artıq bu gün İKT-dən istifadə etməklə törədilən cinayətlər müxtəlif insan hüquqlarını pozur. Bu da kibertəhlükələrə qarşı mübarizənin həm beynəlxalq, həm də milli səviyyədə gücləndirilməsini zəruri edir.

### 1.1. Kiberməkan, yoxsa virtual məkan?

İnformasiya cəmiyyətinin qloballaşması ***"kiberməkan"***[1] termininin yaranmasına gətirib çıxarmışdır. "Kiberməkan" anlayışı ilk dəfə 1982-ci ildə Uilyam Qibson tərəfindən "Yanan xrom" (Burning Chrome) [7], az sonra isə 1984-cü ildə "Neuromancer" [8] əsərində istifadə edilmişdir.

ABŞ Ali Məhkəməsinin verdiyi anlayışa görə: "Kiberməkan konkret ərazisi olmayan, lakin dünyanın istənilən nöqtəsində internet vasitəsilə hər kəs üçün açıq və əlyetər olan unikal daşıyıcıdır." Darrel Ment "internasional məkanlar nəzəriyyəsi"ni şərh edərək, üç belə məkan olduğunu yazır: Antarktika, kosmos və açıq dəniz. Müəllif dördüncü belə məkan qismində kiberməkan olduğunu qeyd edir və bu məkana dövlət suverenliyinin şamil olunmadığını vurğulayır [3, p.70]. Maraqlı cəhət ondadır ki, kiberməkanda yurisdiksiya məsələlərini araşdıran tədqiqatçı yalnız müəlliflik hüququ və böhtanla bağlı tərəfləri izah edir. Bu zaman belə bir sual ortaya çıxır: Əgər kiberməkana heç bir dövlətin suverenliyi şamil olunmursa, onda bir dövlətin qanunvericiliyinin hər hansı bir məlumatın internetə yerləşdirilməsini qadağan etməsi nə dərəcədə qanunauyğun hesab oluna bilər? Və yaxud dövlət öz vətəndaşlarının istənilən informasiyaya çıxışını məhdudlaşdıra bilərmi? – Bütün bu kimi sualların cavablandırılması üçün kiberməkanın əsaslandığı prinsiplər normativ təminata malik olmalıdır. Təsadüfi deyil ki, 22 iyul 2000-ci il tarixdə "Böyük Səkkizlik"[2] dövlətləri tərəfindən qəbul edilmiş "Qlobal İnformasiya Cəmiyyətinin Okinava Xartiyası"nda dövlətlər siyasi, normativ və şəbəkə təminatını İKT-nin sonrakı inkişafı üçün zəruri tədbirlər sırasında qeyd etmişlər.

Müasir dövrdə kiberməkanın müstəqilliyinə dair çıxışlar səsləndirilir. Məsələn, 1996-cı ildə Davos forumunda Elektron Sərhəd Fondunun yaradıcısı Con Perri Barlou özünün məşhur "Kiberməkanın müstəqilliyi" adlı Bəyannaməsini elan etdi. Bəyannamədə bütün dövlətlərə belə bir müraciət ünvanlanır: "Kiberməkan sizin sərhədlərinizə aid deyil. Elə düşünməyin ki, onu siz yaratmısınız. Kiberməkan ictimai layihədir. Bizim aramızda sizə yer yoxdur. Siz kiberməkanda üstün hakimiyyətə malik deyilsiniz. Bizim üzərimizdə hökmranlıq etməyə sizin nə mənəvi haqqınız, nə də məcburetmə metodlarınız var. Biz kiberməkanda sizin qurduğunuzdan daha ədalətli və humanist olan cəmiyyət yaradacağıq…" [21] Belə çıxışların səslənməsinə baxmayaraq, kiberməkanla bağlı məsələlər hələ də hər bir dövlətin öz yurisdiksiyası çərçivəsində həll olunur. Təbii ki, bu zaman beynəlxalq hüquq normaları və prinsipləri nəzərə alınır.

"Kiberməkan" anlayışının təhlili məqsədilə "informasiya məkanı", "İnternet" və s. bu kimi terminlərin məzmununa aydınlıq gətirilməsi, onların arasında fərqin müəyyən edilməsi məqsədəmüvafiqdir. İnternet – informasiyanın

---

[1] "Kiber" – "kibernetika" sözündən yaranmışdır. "Kibernetika" termini qədim yunan dilində "kibernetes" sözündən götürülmüş, "idarə edən" mənasını verir.

[2] Almaniya, ABŞ, Böyük Britaniya, Fransa, Yaponiya, Kanada, Rusiya, İtaliya.

saxlanması və ötürülməsi üçün yaradılmış kompüter şəbəkələrinin ümumdünya sistemidir. Ona görə də əksər hallarda İnternet “qlobal şəbəkə”, “ümümdünya şəbəkəsi” kimi adlandırılır. Bu şəbəkəni kiberməkanla eyniləşdirmək olmaz. Darrel Ment yazır ki, biz İnternetin haradan başlandığını bilirik, amma kiberməkanın sərhədlərini və məhz hardan başlandığını müəyyənləşdirmək qeyri-mümkündür. Ona görə də kiberməkan anlayışı İnternetlə eyniləşdirilə bilməz [3, p. 69-70]. Tədqiqatçının mövqeyini məqbul saymaq olar, yəni kompüter şəbəkələrinin vahid sistemi olan İnternetdən fərqli olaraq, kiberməkan metaforik abstrakt, virtual reallıq kimi qiymətləndirilməlidir. Qısa sözlə desək, kiberməkan ümumdünya kompüter şəbəkəsinin içində sərhədləri bilinməyən bir “aləmdir”. Ona görə də əksər hallarda bu aləmi xarakterizə etmək üçün ***“virtual məkan”*** anlayışından istifadə edilir. Məsələ burasındadır ki, beynəlxalq normalarda hüquqi termin olaraq, “kiberməkan” anlayışına müraciət olunur. Lakin milli hüquqda isə “virtual” termininə bir çox normativ aktlarda rast gəlmək olar. Həmin normativ aktların məzmununa əsasən, deyə bilərik ki, dövlətdaxili hüquqda “virtual” adı altında İnternet vasitəsilə qurulan münasibətlər başa düşülür. Hətta, Virtual Azərbaycan [18], Virtual Qarabağ [20] və s. bu kimi saytlar yaradılmış və fəaliyyət göstərir. Hətta, “Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı”nda “Azərbaycan həqiqətlərinin virtual məkanda təbliği və yayılmasının genişləndirilməsi üzrə tədbirlər görülməsi” milli kontentin inkişaf etdirilməsi üzrə tədbirlər sırasında qeyd olunmuşdur. Eyni zamanda, azərbaycandilli mənbələrdə “virtual cəmiyyət” “İnternet cəmiyyət”lə eyniləşdirilərək, elektron fəzada yaranan və fəaliyyət göstərən yeni tip cəmiyyət kimi şərh olunur.

Ədəbiyyatda hər iki terminlə bağlı yanaşmalardan açıq-aydın görünür ki, məna baxımından həm kiberməkan, həm də virtual məkan kompüter şəbəkəsindən istifadə edilməklə qurulan və gözlə görülə bilməyən bir aləmdir. İngilisdilli ədəbiyyatlarda kiberməkan anlayışına daha çox rast gəlinir. Lakin bununla belə, “virtual mühit”, “virtual aləm” [19], “virtual dünya” [11] kimi anlayışlardan da istifadə edilir və verilən anlayışlardan bunların hamısının kiberməkanla eyni məzmuna malik olması nəticəsinə gələ bilərik. Lakin fərqli şərhlər də vardır. Belə ki, bəzi tədqiqatçılar kiberməkan və virtual reallığın hər ikisinin İnternet şəbəkəsi, KİV-lə bağlı olduğunu qeyd edərək yazırlar: “Hipermediya iki funksiya icra edə bilər: obyektiv aləmdə pəncərə funksiyası və subyektiv aləmin güzgüsü funksiyası. Birinci funksiya virtual reallığı, ikinci isə kiberməkanı əhatə edir. Yəni virtual reallıq dəqiq qavranılan aləmi əks etdirirsə, kiberməkan həmin aləmin dəqiq konseptual əsasını müəyyən edir.” [13] Rusdilli ədəbiyyatlarda isə “virtual məkan” ya “cyberspace” kateqoriyasının tərcüməsi kimi qiymətləndirilir [16, c. 742], ya da bu anlayışların sinonim olduğu iddia edilir [15, c. 6]. Fikrimizcə, “kiberməkan” və “virtual məkan” hər ikisi abstrakt və sinonim anlayışlardır. Sadəcə olaraq, nəzəri yanaşmadan asılı olaraq bəzi müəlliflər birinci, bəzi müəlliflər isə ikinci ter-

mindən istifadə edirlər. Yəni daha çox texniki və idarəetmə aspektindən yanaşdıqda, kiberməkan, sosial-humanitar movqedən yanaşdıqda isə virtual məkan anlayışına müraciət olunur. Nəzərə alsaq ki, hal-hazırda dünyada internetdən başqa, alternativ şəbəkə yoxdur, virtual məkan və kiberməkan anlayışları sırf internet müstəvisində şərh olunmalıdır.

### 1.2. Kibertəhlükələrlə pozulan insan hüquqlarının müdafiəsi

Müasir cəmiyyətdə məlumatların yayılması, ötürülməsində başlıca vasitəyə çevrilmiş kiberməkanda şəxsi toxunulmazlıq hüquqlarının pozulmasına və şəxsi həyata dair məlumatların qeyri-qanuni üsullarla və qeyri-qanuni məqsədlər üçün istifadəsinə də az rast gəlinmir. Ona görə də bu problemin həlli dünya ictimaiyyətinin qarşısında dayanan vacib məsələlərdən biridir.

Kiberməkanda şəxsi toxunulmazlığın qorunması problemi hələ XIX əsrin sonlarından ABŞ-da irəli sürülməyə başlanmışdı. Belə ki, 1890-cı ildə Harvard Hüquq İcmalında dərc olunan Samuel Uorren (1852-1910) və Luis Brendaysın (1856-1941) dərc etdirdiyi "Şəxsi həyatın toxunulmazlığı" adlı məqalədə şəxsi həyata dair bir çox vacib məqamlar öz əksini tapmışdır. Məqalədə deyilir: "Şəxsi həyatın və mülkiyyətin toxunulmazlığı əslində əvvəlki dövrlərdən ümumi hüquqda tanınmışdır. Belə ki, əvvəllər qanun (hüquq) daha çox fiziki müdaxilələrin qarşısının alınması vasitələrini nəzərdə tuturdu və "vi et armis" (silahın gücü ilə) prinsipi rəhbər tutulurdu. Lakin tədricən baş verən sosial, siyasi və iqtisadi dəyişikliklər insanın intellektinin ön plana çəkilməsinə və nəticə etibarilə, şəxsi həyatın və mülkiyyətin toxunulmazlığı kimi hüquqların əhatə dairəsinin genişlənməsinə gətirib çıxardı. Bununla da, şəxsi toxunulmazlıq hüququ bir sıra imtiyazları ehtiva etməyə başladı və artıq mülkiyyət toxunulmazlığı yalnız maddi deyil, həmçinin qeyri-maddi formada sahibliyi əhatə etdi..." [12, p. 193-220]

Deməli, artıq əvvəllər olduğu kimi, şəxsi həyatın toxunulmazlığı məsələsi hər hansı bədən xəsarətləri ilə bağlı meydana gəlmirdi və intellekt, informasiya özü şəxsi həyatın toxunulmazlığında əsas element kimi qiymətləndirilirdi. Bununla yanaşı, şəxsi toxunulmazlığın insanın fiziki bədənindən asılı olmayaraq müəyyənləşdirilməsi insanın ailə münasibətlərini şəxsi həyatın toxunulmazlığı konsepsiyasının bir hissəsinə çevirdi. S.Uorren və L.Brendaysın öz məqaləsini yazmaqda əsas məqsədi məhz belə bir yeni şəraitdə şəxsi həyatın toxunulmazlığı, təhqir, böhtan və s. bu kimi məsələlərin qanunla necə tənzimlənməsini və təcrübi tərəfləri təhlil etməkdən ibarət idi. Məqalənin maraqlı tərəfi ondadır ki, müəlliflər bir çox Roma hüququnun prinsiplərinə (postulatlarına) müraciət edirlər. Məsələn, "damnum absque injuria"[1] prinsipini rəhbər tutan tədqiqatçılar xüsusi vurğulayırlar ki, hətta formal olaraq qanuni və leqal görünən hər hansı bir hərəkət insanın şəxsi həyatına qəsd edə bilər.

---

[1] **Damnum absque injuria** – latın dilindən götürülüb, delikt hüququnun prinsiplərindən biridir və şəxsə fiziki zərər yetirmədən hər hansı bir itkiyə məruz qoymanı ifadə edir.

Müəlliflər Prins Albert v. Strencin və Vilsonun məhkəmə işlərini misal göstərərək, Lord Kottenhamın "III Georginin xəstəliyi zamanı onun ətrafında olmuş həkimlərin öz gündəliklərindəki qeydləri çap etməyin düzgün olmadığı" iddiasını xüsusi qeyd edirlər [4].

S.Uorren və L.Brendays öz məqaləsində həmçinin şəxsi toxunulmazlıq hüququnun Fransa qanunvericiliyində əks olunan tərəflərinə də nəzər salırlar: şəxsi toxunulmazlıq hüququ dövlət və ictimai maraq kəsb edən hər hansı bir məsələ üzrə nəşri qadağan etmir; şəxsi toxunulmazlıq hüququ müxtəlif formalarda kommunikasiyanı (rabitəni) qadağan etmir; şəxsi toxunulmazlıq hüququ faktın dərc olunmasına icazə verildiyi və ya onun dərc olunduğu andan başa çatmış hesab olunur və s.

Şəxsi həyatın toxunulmazlığı problemi sonralar Uilyam Lloyd Prosserin (1898-1972) 1960-cı ildə dərc etdirdiyi məqaləsində daha geniş təhlil olunmuşdur. Belə ki, müəllif şəxsi həyatın toxunulmazlığının pozulması ilə müşayiət olunan dörd növ delikti fərqləndirirdi:

1. Şəxsin həyatına və mənzilinə irrasional müdaxilə;
2. Şəxsi məlumatların açıqlanması;
3. Şəxs haqqında məlumatların təhrif olunması, yəni yalan məlumatların yayılması;
4. Şəxsin adı, soyadı və portretinin gəlir əldə etmək məqsədilə qanunsuz əldə olunması və ya istifadəsi [14, p. 389].

Göründüyü kimi, ilkin olaraq, gənc tədqiqatçılar tərəfindən irəli sürülmüş şəxsi həyatın toxunulmazlığı hüququ müasir dünyada fundamental insan hüquqlarından biri kimi həm beynəlxalq səviyyədə, həm də ayrı-ayrı dövlətlərin milli hüququnda tanınmışdır.

Hal-hazırda Azərbaycan Respublikasında fərdi məlumatların qorunması sahəsində həm hüquqi istiqamətdə, həm də təcrübi baxımdan böyük uğur əldə olunmuşdur. Hüquqi baza barəsində fərdi məlumatların təhlili zamanı yetərincə məlumat verilmişdir. O ki qaldı təcrübi tərəflərə, ölkə daxilində elektronlaşdırma proseslərinin sürətlə həyata keçirilməsi, elektron imzanın tətbiqi və digər müxtəlif kriptoqrafik üsullardan istifadə hal-hazırda şəxsi həyatın toxunulmazlığı hüququna müdaxilələrin sayını xeyli aşağı salmışdır.

Şəxsi toxunulmazlıq hüququndan fərqli olaraq, əqli mülkiyyət hüquqlarının virtual məkanda müdafiəsində çoxsaylı ziddiyyətlər mövcuddur. Azərbaycan Respublikası Müəllif Hüquqları Agentliyinin sədri K.S.İmanov kiberməkanda əqli mülkiyyət hüquqları problemini iki istiqamətdə şərh edir. Müəllifin yanaşmasına görə, birincinin mahiyyəti ondan ibarətdir ki, hüquq sahibləri intellektual məhsulun yaradılması və yayılmasından tam gəlir əldə edə bilmirlər. Çünki rəqəmsal dövrdə istifadəçilər üçün məlumatın, yəni rəqəmsal məzmunun surətini çıxarmaq ucuz başa gəlir və onlar uzaq məsafələrdə və böyük həcmdə məlumatların mübadiləsini aparmaq imkanına malikdirlər. Bu halda nüsxələrin mükəmməl dəqiqliklə və sıfır həddində olan məsrəflə çoxaldılması və onların ani sürətdə və yenə də sıfır məsrəflə yayılması üçün görünməmiş

imkanlar var. İkinci münaqişə isə ondan ibarətdir ki, hüquq sahibləri çox vaxt faktiki hüquq pozucuları olan istifadəçilərə qarşı onların anonimliyi və qeyri-leqal məzmun mübadiləsinin geniş yayılması səbəbindən iddia irəli sürə bilmirlər və buna görə də günahı provayderlərin üzərinə qoyurlar [1, s. 386].

Kiberməkanda əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı ən başlıca problem ondan irəli gəlir ki, İnternetin açıqlığı, yəni məlumatların asan əldə edilməsi əqli mülkiyyət hüquqlarının pozulması hallarını daha da artırır. Hətta, müəlliflər bu cür ziddiyyəti "İnternet – Copyright" konflikti kimi adlandırırlar [6, p. 197-213].

İnternetdə əqli mülkiyyət hüquqlarının qorunmasına dair iki yanaşma mövcuddur. Birinci yanaşmaya görə, İnternetdə əqli mülkiyyət hüquqlarının qorunmasına ehtiyac yoxdur, bu İnternetin inkişafına mane ola bilər. Ən yaxşı halda şəxsin qeyri-əmlak hüquqlarının tanınması kifayət edir. İkinci yanaşma isə əksinə, İnternetdə əqli mülkiyyət hüquqlarının qorunmasını zəruri sayır, bu məqsədlə "hüquqların kollektiv idarə edilməsi" üsulunu təklif edir. Bu üsul o vaxt tətbiq edilir ki, müəlliflik və əlaqəli hüquqların fərdi qaydada müdafiəsi çətin olur. Belə halda əqli mülkiyyətin obyektlərindən istifadə olunur, əvəzində hüquq sahiblərinə müəyyən olunmuş qaydada haqq ödənilir [5, p. 238-252].

Kiberməkanda əqli mülkiyyət hüquqlarının qorunması ilə bağlı YUNESKO-nun fəaliyyəti xüsusi qeyd olunmalıdır. 2006-cı ilin yanvarında təşkilat "Rəqəmsal əsrdə hüquq və cəmiyyət" tədqiqat layihəsinə start verdi. Layihənin əsas məqsədi əqli mülkiyyət sahibləri və istifadəçilər arasında kompromisin əldə olunması idi. İlkin fəaliyyət rəqəmsal formada ifadə olunan əqli mülkiyyət obyektlərinə dair hüquqlarla bağlı sorğunun keçirilməsi ilə başlandı. Sorğunun nəticələrinə əsasən, bir çox maraqlı faktlar üzə çıxarıldı. Məsələn, sorğuda iştirak edən hüquq sahiblərinin 51%-i hesab edirdi ki, piratçılığın artmasında əsas səbəb qismində yalnız qanunvericilikdəki boşluqlar deyil, həmçinin istehlakçıların hüquq düşüncəsinin aşağı səviyyədə olması çıxış edir. Həmçinin başqa bir misal: İstifadəçilərin 46%-i və hüquq sahiblərinin 44%-i qeyri-kommersiya məqsədləri üçün pirat məhsulların yayılmasının ümumiyyətlə cəzaya məruz qalmamasının tərəfdarı kimi çıxış edirdilər. Əksinə kommersiya məqsədilə pirat məhsul istehsalına görə daha sərt cəzalar müəyyən olunmasını zəruri sayırdılar [17, c. 9-12].[1]

Kiberməkan informasiyanın dövr etdiyi bir məkan olduğu üçün burada ifadə azadlığından sui-istifadə halları da insan hüquq və azadlıqlarına qəsd edir. Belə ki, sırf ifadə azadlığının realizə olunması ilə törədilən cinayətləri şərti olaraq iki qrupda ayırmaq olar:

[1] Туликов А. Интеллектуальная собственность в киберпространстве: правообладатели и общество готовы к диалогу. // Интеллектуальная собственность в киберпространстве: Сборник аналитических материалов проекта "Право и общество в цифровую эпоху". МОО ВПП ЮНЕСКО "Информация для всех". Составитель: Евгений Альтовский, 2006, с. 9-12.

*1. Kiberməkandan cinayətin törədilməsi vasitəsi kimi istifadə olunan, müxtəlif obyektə – ictimai münasibətlərə qəsd edən cinayətlər.* Məsələn, təcavüzkar müharibəni başlamağa açıq çağırışlar (Cinayət Məcəlləsinin 101-ci maddəsi) sülh və insanlıq əleyhinə cinayətlərə, milli, irqi, sosial və ya dini nifrət və düşmənçiliyin salınması isə (Cinayət Məcəlləsinin 283-cü maddəsi) dövlətin konstitusiya quruluşunun əsasları və təhlükəsizliyi əleyhinə olan cinayətlərə daxildir. Lakin hər iki cinayətin törədilməsində kütləvi informasiya vasitələrindən istifadə olunarsa, daha ağır cəza tətbiq edilir. Təbii ki, kiberməkandan istifadə edilməklə, bu cinayətlərin törədilməsi ifadə azadlığının qeyri-qanuni formada realizəsi deməkdir.

*2. Hər bir halda kiberməkandan istifadə edilməklə törədilən şərəf və ləyaqətə qəsd edən cinayətlər.* Bu cinayətlər fikir və söz azadlığının həm şifahi, həm də yazılı formada həyata keçirilməsi zamanı icra edilə bilər. Məsələn, təhqir (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 148-ci maddəsi), böhtan (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 147-ci maddəsi) və Azərbaycan dövlətinin başçısının - Azərbaycan Respublikası Prezidentinin şərəf və ləyaqətini ləkələmə və ya alçaltma (Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 323-cü maddəsi) cinayətləri.

İfadə azadlığından kiberməkanda sui-istifadə halları son illərdə ***nifrət nitqi*** ilə bağlı məsələləri gündəmə gətirmişdir. Avropa Şurasının Nazirlər Komitəsinin Tövsiyəsinin 97(20) verdiyi anlayışa görə: “Nifrət nitqi dedikdə, irqi nifrət, ksenofobiya, anti-semitizm və ya aqressiv millətçilik və etnosentrizmlə ifadə olunan dözümsüzlük, azlıqlara, miqrantlara və immiqrant mənşəli şəxslərə ayrı-seçkilik və düşmənçilik də daxil olmaqla, dözümsüzlüyə əsaslanan nifrətin digər formalarını yayan, təhrik edən, təşviq edən və ya əsaslandıran ifadənin bütün formaları başa düşülür.” [10]

Son dövrlərdə fikir və söz azadlığının normal şərtlər altında həyata keçirilməsi məqsədilə həm beynəlxalq, həm də milli səviyyədə bir sıra tədbirlər icra olunur. Belə ki, 47 ölkəni birləşdirən Avropa Şurası tərəfindən Gənclər Sektorunda 2012-2017-cü illər üzrə prioritet təşəbbüs kimi *“No Hate Speech Movement” – “Nifrət Nitqinə Yox Hərəkatı”* kampaniyası reallaşdırılmağa başlanmışdır. Bu kampaniya bərabərliyi, ləyaqəti, insan hüquqlarını, müxtəlifliyi müdafiə edir və dəstəkləyir. Kampaniyanın məqsədi gəncləri və gənclər təşkilatlarını bu cür insan haqları pozuntularını üzə çıxarmaq və belə hallara qarşı çıxış etmək üçün zəruri bacarıqlarla təmin etməklə, irqçilik və ayrı-seçkilik məzmunlu nifrət nitqinin onlayn ifadəsinə qarşı mübarizə aparmaqdır.

Azərbaycanı Avropa Gənclər Forumunda tam hüquqlu üzv olaraq təmsil edən, Avropa Şurasının Gənclər üzrə Məşvərət Şurasının üzvü seçilmiş Azərbaycan Respublikası Gənclər Təşkilatları Milli Şurası bu kampaniyanın Azərbaycan üzrə milli əlaqələndiricisi olaraq, 2013-cü ilin may ayından etibarən “Nifrət Nitqinə Yox Hərəkatı”-na qoşulmuş və bu çərçivədə bir sıra tədbirlər həyata keçirmişdir. Bunlar sırasına Beynəlxalq Gənclər Gününə həsr edilən Gənclər Həftəsi, “Nifrət Nitqinə Yox Hərəkatı” fotosərgisi, Qəbələ rayonunda “Nifrət Nitqinə Yox Hərəkatı” Beynəlxalq Gənclər Forumu, “Nifrət Nitqinə Yox

Hərəkatı" adlı beynəlxalq forumu, "Qərbdən - Şərqə Nifrət Nitqinə Yox" regional forumu və bir sıra müxtəlif tədbirlər aiddir.

### 1.3. Kibertəhlükələrin qarşısının alınması üzrə tədbirlər

Kibertəhlükələrin qarşısının alınması üzrə tədbirləri şərti olaraq ümumi və xüsusi tədbirlərə bölmək olar. Xüsusi tədbirlərə insanların özünün həmin təhlükələrdən qorunması üzrə aktivlik dərəcəsini daxil etmək olar. Bu mənada, informasiya təhlükəsizliyi mədəniyyətinin mövcudluğu xüsusi əhəmiyyətə malikdir.

İnformasiya təhlükəsizliyi mədəniyyətinin formalaşdırılması istiqamətində əsas mənbə - BMT Baş Məclisinin 20 dekabr 2002-ci il tarixli 57/239 saylı qətnaməsi ilə təsdiq edilmiş ***"Qlobal kibertəhlükəsizlik mədəniyyətinin yaradılması"*** və ona əlavə olan ***"Qlobal kibertəhlükəsizlik mədəniyyətinin yaradılması üçün elementlər"***dir. "Qlobal kibertəhlükəsizlik mədəniyyətinin yaradılması üçün elementlər"ə görə, iştirakçılar informasiya sistemlərinin və şəbəkələrin təhlükəsizliyinin zəruriliyi haqqında və təhlükəsizliyin yüksəldilməsi üçün onların nə edə biləcəkləri barədə məlumatlı olmalıdırlar, eləcə də onlar informasiya sistemlərinin və şəbəkələrin təhlükəsizliyi üçün öz rollarına uyğun olaraq cavabdehlik daşıyırlar. İştirakçılar təhlükəsizliyə aid insidentlərin qarşısının alınması, onların aşkarlanması və onlara cavab verilməsi üzrə vaxtında və birgə tədbirlər görməlidirlər. Onlar lazımi hallarda təhdidlər və boşluq faktorları haqqında məlumat mübadiləsi etməli və belə insidentlərin qarşısının alınması, onların aşkarlanması və onlara cavab verilməsi işində operativ və səmərəli əməkdaşlığı nəzərdə tutan prosedurlar tətbiq etməlidirlər. Bu transsərhəd informasiya mübadiləsini və əməkdaşlığı nəzərdə tuta bilər. Təhlükəsizlik elə təmin edilməlidir ki, bu fikir və ideyaların mübadiləsinin sərbəstliyi, azad informasiya axını, informasiya və kommunikasiyanın konfidensiallığı, şəxsi xarakterli informasiyanın lazımi şəkildə qorunması, açıqlıq və aşkarlıq daxil olmaqla demokratik cəmiyyətdə qəbul edilən dəyərlərə uyğun olsun [2].

Göründüyü kimi, "Qlobal kibertəhlükəsizlik mədəniyyətinin yaradılması üçün elementlər" yalnız istifadəçilər üçün deyil, konkret dövlətlər üçün bir sıra vəzifələr müəyyənləşdirir. Bu da informasiya təhlükəsizliyi mədəniyyətinin dövlətin marağında olan problem olmasını bir daha təsdiq edir. Məhz ona görə də Azərbaycan Respublikası Prezidentinin 6 dekabr 2016-cı il tarixli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında telekommunikasiya və informasiya texnologiyalarının inkişafına dair Strateji Yol Xəritəsi"ndə informasiya təhlükəsizliyi üzrə ümummilli hazırlıq və maarifləndirmə səviyyəsinin artırılması strateji məqsədlər sırasında əks olunmuşdur. Milli strategiyalarda isə informasiya təhlükəsizliyi mədəniyyətinin yüksəldilməsi belə maarifləndirmə işi üzrə gözlənilən nəticələrdən biri kimi nəzərdə tutulmuşdur.

Kibertəhlükələrin qarşısının alınması üzrə ümumi tədbirlər isə dövlət tərəfindən həyata keçirilir. Birinci növbədə, müxtəlif pozuntulara görə məsu-

liyyətin müəyyən olunması və sanksiyaların təyin edilməsi qeyd olunmalıdır. Ənənəvi olaraq, hüquq pozuntularının xarakterindən asılı olaraq dörd növ – cinayət, inzibati, mülki və intizam məsuliyyəti fərqləndirilir. Lakin müasir dövrdə beynəlxalq-hüquqi məsuliyyət, konstitusiya-hüquqi məsuliyyət kimi anlayışlara da rast gəlinir. Bəs informasiya hüquqi məsuliyyət hansı növə aiddir və necə tənzimlənir? – Məsələ burasındadır ki, informasiya sahəsində münasibətlərin realizəsi zamanı törədilən hüquq pozuntularına görə sanksiyalar informasiya qanunvericilik aktlarında təsbit olunmamışdır. İctimai təhlükəli olan informasiya-hüquq pozuntuları cinayət qanunvericiliyində, inzibati xətanın əlamətləri ilə səciyyələnən pozuntular inzibati qanunvericilikdə, müxtəlif deliktlər mülki qanunvericilikdə nəzərdə tutulmuşdur və s. Belə olan halda, informasiya-hüquqi məsuliyyətin ayrıca bir institut kimi fərqləndirilməsinə ehtiyac varmı? – Leqal aspektdən yanaşsaq, xeyr. Lakin informasiya sahəsinin sərhədsiz olmasını, informasiya-hüquq pozuntuları ilə bağlı problemlərin və kolliziyaların mövcudluğunu nəzərə alsaq, həmin problemlərin cinayət, mülki və inzibati hüquq sahələri üzrə şərhi mümkün deyil. Məsələn, kibertəhlükələr, informasiya təhdidləri nəinki konkret vətəndaşa qarşı yönəlir, hətta böyük bir xalqın mənəviyyatına mənfi təsir göstərir. Belə təhlükələrin qarşısının alınması üzrə təklif və tövsiyələrin işlənməsi isə yalnız informasiya hüquq elmi çərçivəsində mümkün ola bilər. Bütün bunları rəhbər tutaraq, informasiya-hüquqi məsuliyyətin müstəqil bir hüquqi institut kimi təhlilini məqsədyönlü hesab edirik.

Digər bir ümumi tədbirlər planı milli informasiya siyasətinin istiqamətləri sırasında informasiya təhlükəsizliyinin təminatı qeyd olunmalıdır. YUNESKO-nun İnformasiya hamı üçün (İnformation for All) Proqramı Milli İnformasiya Cəmiyyəti Siyasətində (MİCS) beş prioritet müəyyənləşdirir: İnformasiya inkişaf üçün; İnformasiya mədəniyyəti; İnformasiyanın saxlanması; İnformasiya etikası; İnformasiya əlyetərliyi [9, p. 9-10].

Göründüyü kimi, milli informasiya siyasəti bütövlükdə cəmiyyət üçün informasiyanın əlyetərliyinin təminatına yönəlmiş tədbirlər və qaydalar sistemini özündə birləşdirir. Həll onunan məsələlərin xarakterindən asılı olaraq informasiya siyasəti 2 yerə bölünür: ***informasiya strategiyası*** **və** ***informasiya taktikası. İnformasiya strategiyası*** böyükhəcmli informasiya problemlərinin həllinə yönəlmiş planlı fəaliyyət modelidir ki, bu model nəticə etibarilə informasiyalaşdırma proseslərinin uğurla başa çatmasına və informasiya hüquq və azadlıqlarının maneəsiz təminatına yönəlmişdir. ***İnformasiya taktikası*** isə informasiya strategiyasının əsasında formalaşır, qarşıya qoyulan məqsəd və vəzifələrə çatmaq üçün icra olunan konkret tədbirləri əhatə edir. Bu o deməkdir ki, informasiya strategiyası "nə" və "niyə" suallarını cavablandırırsa, informasiya taktikası "necə" sualına cavab verir. Strategiyadan fərqli olaraq, informasiya taktikası çevikliyi ilə xarakterizə olunur. Məsələn, Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli 1146 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının inkişafı naminə informasiya və

kommunikasiya texnologiyaları üzrə Milli Strategiya (2003-2012-ci illər)"nın icrası məqsədilə bir sıra dövlət proqramları – "Azərbaycan Respublikasında rabitə və informasiya texnologiyalarının inkişafı üzrə 2005-2008-ci illər üçün Dövlət Proqramı (Elektron Azərbaycan)" və s. qəbul edilmişdir ki, bu proqramlar dövlətin informasiya taktikasını əks etdirir.

Milli informasiya siyasətinin həyata keçirilməsi dövlətin fəaliyyətinin digər aspektləri nəzərə alınmadan qeyri-mümkündür. Belə ki, iqtisadi baxımdan səmərəsiz bir şəraitdə informasiyalaşdırma və elektronlaşdırma proseslərindən, informasiya əlyetərliyinin təminatından danışmaq bir qədər məntiqsiz olar. Digər tərəfdən milli maraqları nəzərə almayan informasiya siyasəti uğurla icra oluna bilməz. Həmçinin beynəlxalq normalara riayət etmədən həyata keçirilən və hüquqi bazası olmayan informasiya siyasəti nəticədə maraqların toqquşmasına gətirib çıxaracaqdır. Başqa bir tərəf onda özünü büruzə verir ki, milli təhlükəsizlik qorunmadığı bir şəraitdə informasiya siyasətinin normal icrasına nail olmaq mümkünsüzdür. Təsadüfi deyil ki, "Milli təhlükəsizlik haqqında" 29 iyun 2004-cü il tarixli Azərbaycan Respublikası Qanununda informasiya sahəsində milli təhlükəsizliyin təmin olunması ayrıca bir sahə kimi nəzərdə tutulmuşdur: "Azərbaycan Respublikasının milli təhlükəsizliyi siyasi, iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələr üzrə təmin olunur" (maddə 15.1). Ona görə də dövlətin informasiya siyasəti beynəlxalq və milli maraqlar nəzərə alınmaqla, milli təhlükəsizlik təmin olunmaqla, iqtisadi və hüquqi tədbirlərlə qarşılıqlı əlaqəli formada həyata keçirilir:




Yuxarıdakı sxemdən açıq-aydın görünür ki, milli informasiya siyasəti dedikdə, dövlət orqanları tərəfindən həyata keçirilən kompleks tədbirlər sistemi başa düşülür. Belə bir sual ortaya çıxır: Milli informasiya siyasətinin yalnız dövlət hakimiyyət orqanlarında cəmləşməsi insan hüquq və azadlıqlarının məhdudlaşdırılması anlamına gətirə bilərmi? – Xeyr. Əslində, hüquq və azadlıqların təminatı, hüquq pozuntularının qarşısının alınması və s. bu kimi vəzifələrin icrası üçün dövlət hər bir zaman idarəedici təsisat olaraq mövcud

olmuşdur. Hüquqi dövlət ideyasının geniş vüsət aldığı bir dövrdə dövlətin rolu olmadan qarşıya qoyulan məqsədlərə nail olmaq mümkün deyil. Təbii ki, dövlət orqanlarının özünün də fəaliyyətinə nəzarət olunması vacib faktorlardan sayılır. Məhz ona görə də hüquqi dövlətin əsas prinsiplərindən biri kimi "qarşılıqlı məsuliyyət, yəni şəxsin dövlət qarşısında və dövlətin şəxs qarşısında məsuliyyəti" hər zaman rəhbər tutulur. Bununla yanaşı, açıq hökumət, ictimai nəzarət, vətəndaş cəmiyyəti və digər ideyaların ön plana çəkilməsi dövlətin milli informasiya siyasətinin həyata keçirilməsinə mühüm təsirini göstərir.

### 1.4. Nəticə

Cəmiyyətin bütün sferalarının qloballaşması, kiberməkanın formalaşması qanuna riayət edən vətəndaşlarla yanaşı, hüquq pozucuları üçün də asan üsullarla pozuntuların törədilməsi üçün imkanlar açır. Müasir dövrün ən aktual problemlərindən olan "kibertəhlükələr"lə mübarizə dünya miqyasında aparılır. Sərhədləri bilinməyən bir məkanda cinayətkarın axtarılması son dərəcə çətin olduğu üçün həm milli səviyyədə, həm də beynəlxalq səviyyədə kibermühitdə törədilən cinayətlərə "həssaslıqla" yanaşılmalıdır. Hətta, onu deyə bilərik ki, kibercinayətlər ənənəvi üsulla törədilən cinayətlə müqayisədə daha ağır nəticələrə səbəb ola bilir. Bu baxımdan, kibertəhlükələrin qarşısının alınması üzrə əməkdaşlıq prinsipi rəhbər tutulmalıdır. Bu, iki istiqamətdə aparılsa, daha operativ nəticələr əldə etmək olar: dövlətlərin əməkdaşlığı – beynəlxalq səviyyədə və vətəndaşla dövlət orqanlarının əməkdaşlığı – milli səviyyədə.

**ƏDƏBİYYAT**


1. Əliyev Ə.İ., Rzayeva G.A., İbrahimova A.N., Məhərrəmov B.A., Məmmədrzalı Ş.S. İnformasiya hüququ. Dərslik. Bakı: Nurlar, 2019, 448 s.
2. Creation of a global culture of cybersecurity: resolution / United Nations General Assembly (UNGA) Resolution 57/239, 31 January 2003. https://www.sbs.ox.ac.uk/cybersecurity-capacity/content/unga-creation-global-culture-cybersecurity
3. Darrel C. Menthe. Jurisdiction in Cyberspace: A Theory of International Spaces. // Michigan Telecommunications and Technology Law Review, 1998, Volume 4, Issue 1, p. 69-103.
4. Dorothy J. Glancy. The invention of the right to privacy. // Arizona Law Review, 1979, Volume 21 (1), http://law.scu.edu/wp-content/uploads/Privacy.pdf
5. Dutfield G. Global intellectual property law: commentary and materials / Graham Dutfield [and others]. Northampton, MA: Edward Elgar Pub., 2005, pp. 238-252.
6. Fiordalisi E. The Tangled Web: Cross-Border Conflicts of Copyright Law in the Age of Internet Sharing. // Loyola University Chicago International Law Review, 2015, Vol. 12, İssue 2, pp. 197-213.
7. Gibson W. Burning chrome. Canada, 1982. http://project.cyberpunk.ru/lib/burning_chrome/
8. Gibson W. Neuromancer. First edition, 1984, 271 p.
9. National information society policy: A template. Developed by The Information For All Programme of UNESCO. Paris November 2009, 143 p.
10. Recommendation No. R (97) 20 of the Committee of Ministers to member states on "hate speech". / Adopted on 30 October 1997 by Committee of Ministers of Council of Europe. https://www.coe.int/en/web/freedom-expression/committee-of-ministers-adopted-texts/-/asset_publisher/aDXmrol0vvsU/content/recommendation-no-r-97-20-of-the-committee-of-

ministers-to-member-states-on-hate-speech-
?_101_INSTANCE_aDXmrol0vvsU_viewMode=view/
11. Richard R. Bartle. Designing Virtual Worlds. New Riders, 2003, 741 p.
12. Samuel D. Warren, Louis D. Brandeis. The Right to Privacy. // Harvard Law Review, 1890, Vol. 4, No. 5, p. 193-220.
13. W.Lambert Gardiner. Virtual Reality/Cyberspace: Challenges to Communication Studies. // Canadian Journal of Communication, 1993, Vol 18 (3),http://www.cjc-online.ca/index.php/journal/article/view/762/668
14. William L.Prosser. Privacy. // California Law Review, 1960, Volume 48 (3), p. 383-423.
15. Рассолов И.М. Право и Интернет: Теоретические проблемы. Москва: Норма, 2009, 383 с.
16. Телешина Н.Н. Виртуальная пространства как новая юридическая конструкция: к постановке проблемы. // Юридическая техника, 2013, №7 (Ч.2), с. 740-747.
17. Туликов А. Интеллектуальная собственность в киберпространстве: правообладатели и общество готовы к диалогу. // Интеллектуальная собственность в киберпространстве: Сборник аналитических материалов проекта “Право и общество в цифровую эпоху”. МОО ВПП ЮНЕСКО “Информация для всех”. Составитель: Евгений Альтовский, 2006, с. 9-12.
18. http://virtualaz.org/
19. http://www.dictionary.com/browse/virtual-environment
20. http://www.virtualkarabakh.az/index.php?lang=3
21. https://www.eff.org/cyberspace-independence

## ВИРТУАЛЬНОЕ ПРОСТРАНСТВО, КИБЕР УГРОЗЫ И ЗАЩИТА ПРАВ ЧЕЛОВЕКА

**Г.Ф.РЗАЕВА**

### РЕЗЮМЕ

Изменение и развитие мировоззрения в современном обществе также оказывает влияние на незаконное поведение. Поскольку традиционные методы не соответствуют требованиям времени, ИКТ все чаще используются в качестве нового метода и инструмента для нарушения прав человека и совершения различных преступлений. Это также требует усиления борьбы с киберпреступностью. В статье выдвинуты предложения и рекомендации по разработке механизмов защиты прав человека, которые нарушаются киберпреступностью в глобальном информационном обществе.

**Ключевые слова:** глобальное информационное общество, киберпространство, киберпреступность, свобода выражения мнений, право на личную жизнь, права интеллектуальной собственности, информационная политика.

## VIRTUAL SPACE, CYBER THREATS AND PROTECTION OF HUMAN RIGHTS

**G.A.RZAYEVA**

**SUMMARY**

Changing and developing world outlook in modern society also has an impact on illegal behavior. As traditional methods do not meet the requirements of the time, ICTs are increasingly being used as a new method and tool for violating human rights and committing different offences. This also requires strengthening the fight against cybercrimes. In the article were put forward suggestions and recommendations for the development of human rights protection mechanisms that have been violated by cybercrimes in the global information society.

**Keywords:** global information society, cyberspace, cybercrime, freedom of expression, right to personal privacy, intellectual property rights, information policy.

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

# AZƏRBAYCAN RESPUBLİKASI MÜASİR GEOSİYASİ SİSTEMDƏ

**S.QARAŞOVA**
***Bakı Dövlət Universiteti***

*Məqalədə Azərbaycan Respublikasının müasir geosiyasi sistemdəki rolu və əhəmiyyəti öyrənilmişdir. İlk növbədə qeyd olunur ki, Azərbaycan Respublikasının beynəlxalq və regional siyasətdə tutduğu mövqe, həyata keçirdiyi sistemli siyasi strategiya onun geosiyasi sistemdə özünəməxsus rolunu ortaya qoyur.*

*Daha sonra Azərbaycan dövlətinin öz geosiyasi vəzifələrini həyata keçirmək üçün həm qonşu, həm region, həm də ümumilikdə dünya dövlətləri ilə münasibətləri təhlil edilmişdir. Göstərilir ki, ölkələrin geosiyasətini yerli, regional və planetar olmaqla,üç qrupa ayırırlar.*

*Azərbaycan dövləti də yerli geosiyasi fəaliyyət çərçivəsində öz qonşuları ilə müvafiq münasibətlər yaratmışdır. Ölkəmiz Ermənistan istisna olmaqla bütün qonşuları ilə qarşılıqlı hörmətə və maraqlara əsaslanan münasibətlərə sahibdir ki, bu münasibətlər də ciddi əsaslara söykənir.*

*Məqalədə Azərbaycanın geosiyasi maraqlar çərçivəsində üçtərəfli formatlarda iştirakı da tədqiq edilmişdir. Məlum olduğu kimi, Azərbaycan dövlətinin regional geosiyasi maraqları çərçivəsində ikitərəfli münasibətlərlə yanaşı, yaradılmış üçtərəfli formatda əməkdaşlığa da ciddi önəm verməkdədir. Regionda Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Türkiyə formatlarında geniş əməkdaşlıq platformaları yaradılmışdır və Azərbaycan bu platformaların işində aktiv iştirak edir.*

*Məqalədə dünyanın aparıcı dövlətlərinin geosiyasi maraqları prizmasından Azərbaycanın həyata keçirdiyi siyasət təhlil olunur. Qeyd olunur ki, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsi ümumilikdə dünyanın böyük dövlətlərinin geosiyasi maraqlarında vacib yer tutur.*

*Azərbaycanın artan geosiyasi əhəmiyyətinin təhlili belə qənaətə gəlməyə imkan verir ki, aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycanın dünyanın geosiyasi sistemində mövqeyi daha da güclənməkdədir. Belə ki, ölkəmiz regionun lider dövlətinə, Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm körpüyə çevirməyə nail olmuşdur. Həm ölkənin enerji resurslarının nəqlinin diversifikasiyasını uğurla reallaşdırmaqla, həm də ölkəni əhəmiyyətli tranzit ölkəyə çevirməklə bir növ, Azərbaycanı enerji xabına çevirmişdir.*

**Açar sözlər:** Azərbaycan Respublikası, geosiyasət, geosiyasi sistem, beynəlxalq münasibətlər, geosiyasi maraqlar, üçtərəfli format, regional geosiyasət.

## Giriş

Azərbaycan Respublikasının beynəlxalq və regional siyasətdə tutduğu mövqe, həyata keçirdiyi sistemli siyasi strategiya onun geosiyasi sistemdə özü-nəməxsus rolunu ortaya qoyur. Hazırda Azərbaycanın dinamik iqtisadi inkişafı,

həyata keçirilən ardıcıl xarici siyasət kursu onun beynəlxalq aləmdəki yeri və rolunu, həm də ikitərəfli və çoxtərəfli münasibətlərdəki statusunu müəyyən edir.

Azərbaycanın geosiyasi əhəmiyyətinə təsir göstərən amillər sırasında onun əlverişli coğrafı məkanda yerləşməsi də mühüm rol oynayır. Belə ki, dünyanın ən əhəmiyyətli məkanı hesab olunan Avrasiyanın mərkəzində, Xəzər-Qara dəniz hövzəsi, Cənubi Qafqaz kimi mühüm dövlətlərin maraqlarının kəsişdiyi məkanda yerləşməsi ölkəmizin geosiyasi rolunun yüksəlməsinə təsir göstərən təbii amillərdəndir.

Məlum olduğu kimi, Azərbaycan Avropa-Cənub-Şərqi Asiyanın, Şimal-Cənub dəhlizinin, Şərqlə Qərb arasındakı əksər transmilli nəqliyyat-kommunikasiya layihələrinin, NATO və KTMT kimi hərbi-strateji blokların təmas xəttində yerləşir. Bu isə Azərbaycanın həm Avropanın, həm Asiyanın, həm də Xəzər-Qara dəniz hövzəsi və Cənubi Qafqazın regional maraqlar mübarizəsində önəmli ölkə statusuna öz təsirini göstərir.

Bütün bunlar mövzunun aktuallığını şərtləndirir.

## Azərbaycan Respublikası regional geosiyasətin fəal aktoru kimi

Azərbaycan dövləti öz geosiyasi vəzifələrini həyata keçirmək üçün həm qonşu, həm region, həm də ümumilikdə dünya dövlətləri ilə münasibətlər yaradır. Tədqiqatçılar fəaliyyət səviyyəsinə görə, ölkələrin geosiyasətini yerli, regional və planetar olmaqla,üç qrupa ayırırlar.

Azərbaycan dövləti yerli geosiyasi fəaliyyət çərçivəsində öz qonşuları ilə müvafiq münasibətlər yaratmışdır. Ölkəmiz Ermənistan istisna olmaqla bütün qonşuları ilə qarşılıqlı hörmətə və maraqlara əsaslanan münasibətlərə sahibdir ki, bu münasibətlər də ciddi əsaslara söykənir.

Azərbaycan qonşu dövlət olan Gürcüstanla regionda uğurlu tərəfdaşlıq münasibətləri qurmaqla mühüm regional tranzit əhəmiyyətli layihələrin həyata keçirilməsinə nail olunmuşdur.

Azərbaycanla Gürcüstanı aşağıdakı siyasi xətlər birləşdirir:

- *birincisi*, müstəqil dövlətin möhkəmlənməsi və beynəlxalq əlaqələrin genişlənməsi;

-*ikincisi*, Qafqazda nisbi siyasi sabitliyin yaranması;

-*üçüncüsü*, Transqafqaz və Transxəzər magistralının təhlükəsizliyinin təmin edilməsi;

-*dördüncüsü*, demokratik cəmiyyətin, hüquqi dövlətin qurulması.

Məlum olduğu kimi, Gürcüstan regionda Azərbaycanın ən yaxın müttəfiqlərindəndir. Sovet İttifaqının süqutu ilə ortaya çıxan bir sıra ortaq problemlər, hər iki ölkədə baş verən proseslər, daxili və xarici vəziyyətin oxşarlığı, geosiyasi maraqların üst-üstə düşməsi və digər amillər ölkələr arasında partnyorluq münasibətlərinin yaranmasını dərinləşdirmişdir. Ölkələrarası diplomatik münasibətlər qurulandan sonra istər regional, istərsə də qlobal məsələlərdə bu iki dövlət həmişə eyni mövqedən çıxış edib.

*İki ölkə rəhbərlərinin əsasını qoyduğu strateji əməkdaşlıq keçən müddətdə bütün sahələr üzrə davam edib. Bu gün Gürcüstanla Azərbaycanı hər şeydən əvvəl Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Axalkalaki-Qars, TAP kimi qlobal enerji, nəqliyyat-kommunikasiya layihələri birləşdirir. Qeyd olunan layihələr həmin ölkələri bir-birinə strateji cəhətdən bağlayır. Bununla paralel olaraq, GUAM, Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı və digər qurumlar daxilində əməkdaşlıq ikitərəfli strateji əlaqələri daha da möhkəmləndirib. Siyasi yaxınlaşma iqtisadi inteqrasiya fonunda baş verir və strateji xarakter alır.*

Gürcüstanın Azərbaycanla strateji tərəfdaşlığını rəsmiləşdirən məqamlardan biri kimi 2002-ci ilin aprelində Türkiyənin də imzaladığı "Trabzon razılaşması"nı göstərmək olar. Regionun enerji təhlükəsizliyi və müstəqilliyini təmin etmək üçün üç ölkənin daxili işlər nazirlərinin imzaladığı bu sənəd terrorizm və aqressiv separatizmə qarşı mübarizədən tutmuş, çirkli pulların yuyulması və neft-qaz borularının birgə mühafizəsinədək kifayət qədər geniş spektri əhatə edir[1].

Qeyd etmək lazımdır ki, Gürcüstanda hakimiyyət dəyişiklikləri Gürcüstan-Azərbaycan münasibətlərinə təsir etmir. Bu da münasibətlərin geosiyasi maraqlar üzərində və eyni zamanda möhkəm və sağlam təməllər üzrəndə qurulduğundan xəbər verir.

Müasir dövrdə Azərbaycan – Gürcüstan münasibətlərini birləşdirən əsas siyasi xətt aşağıdakılardır:

1. Dövlət müstəqilliyinin möhkəmləndirilməsi və beynəlxalq əlaqələrin genişləmdirilməsi;
2. Qafqazda nisbi siyasi stabilliyin təmin edilməsi;
3. Neft-qaz magistrallarını təhlükəsizliyninin təmin olunması;
4. Demokratik cəmiyyət və hüquqi dövlət quruluşu[2].

Azərbaycan Respublikasının öz qonşuları ilə münasibətləri zəminində Türkiyə ilə münasibətlər xüsusi özəlliyə malikdir. Azərbaycan-Türkiyə münasibətləri dünyada anoloqu olmayan ikitərəfli münasibətlər hesab olunur. Hələ müstəqilliyinin ilk günündən Azərbaycanın yanında olan Türkiyə ilə ölkəmizin münasibətləri durmadan inkişaf edir. Strateji müttəfiq olan Azərbaycan və Türkiyə bütün regional və qlobal platformalarda bir-birini dəstəkləyirlər.

İkitərəfli münasibətlərdə etnik-milli amillə yanaşı, ciddi geosiyasi amillər də rol oynayır. Məlum olduğu kimi, Azərbaycanın karbohidrogen ehtiyatları məhz Türkiyə vasitəsilə Avropaya ixrac olunur. Bu sırada Bakı-Ceyhan kəməri, TANAP və TAP layihərinin reallaşdırılması, o cümlədən tranzit-nəqliyyat dəhlizlərinin reallaşdırılması da ölkələri bir-birinə bağlayır.

Bu gün Azərbaycanla Türkiyə arasında strateji müttəfiqlik münasibətləri

---

[1] http://lib.aliyevheritage.org/az/1407885.html

[2] Общие исторические справки (внешняя политика). Азербайджан//”Heydər Əliyev irsi” beynəlxalq elektron kitabxana //http: lih. Aliev heritage.orq./ ru/ 1407885 html.

zamanla daha da güclənməkdədir. Məlum olduğu kimi, 2010-cu il avqustun 16-da "Türkiyə ilə Azərbaycan arasında strateji tərəfdaşlıq və qarşılıqlı yardım haqqında müqavilə", həmçinin "Azərbaycan Respublikası və Türkiyə Respublikası arasında Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının qurulması haqqında Birgə Bəyannamə" imzalanmışdır. Qeyd edək ki, Şuranın iclasları mütəmadi olaraq keçirilir və hər iclasda mühüm qərarlar qəbul edilir, sənədlər imzalanır. Məsələn, 2016-cı il martın 15-də Türkiyə-Azərbaycan Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının Ankarada keçirilən V iclasında enerji, nəqliyyat, müdafiə, hərbi və digər istiqamətlərdə ikitərəfli və regional məsələlər müzakirə edilib və altı vacib müqavilə imzalanıb.

2017-ci ilin oktyabrın 31-də Bakıda keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının altıncı toplantısında isə daha 6 mühüm sənəd imzalanmışdır. İkitərəfli strateji müttəfiqliyin mövcud səviyyəsindən danışan Azərbaycan Prezidenti İlham Əliyev Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının son iclasında imzalanmış imtiyazlı ticarət sazişinin vacib əhəmiyyət kəsb etdiyini bildirmişdir: "…Bu günə qədər Azərbaycandan Türkiyəyə 10 milyard, Türkiyədən Azərbaycana isə 11 milyard dollar sərmayə qoyulubdur. Bu sərmayələrin həcmi artacaq və Azərbaycandan Türkiyəyə yatırılacaq sərmayə 20 milyard dollara çatmalıdır"[1].

Türkiyə münasibətlərin geostrateji əhəmiyyətinin dərinləşməsində 2015-ci il martın 17-də Trans-Anadolu qaz boru kəməri – TANAP-ın təməlinin qoyulması vacib rol oynamışdır. Qeyd edək ki, TANAP Azərbaycandan başlayan Cənubi Qafqaz boru kəmərini Avropa İttifaqında bir neçə kəmərlə birləşdirəcəkdir. 2020-ci ildə bu kəmərlə nəql olunacaq qazın həcmi ildə 16 milyard, 2023-cü ildə 23 milyard, 2026-cı ildə isə 31 milyard kubmetrə çatdırılması gözlənilir. Birinci mərhələdə TANAP kəməri ilə nəql olunacaq 16 milyard kubmetr Azərbaycan qazının 10 milyard kubmetri Avropaya, 6 milyard kubmetri isə Türkiyəyə satılacaq[2].

Artıq TANAP layihəsində işlər yekunlaşmışdır. 30 noyabr 2019-cu ildə Azərbaycan qazının Türkiyəyə və buradan Avropaya nəqlini nəzərdə tutan Cənub Qaz Dəhlizi layihəsinin bir hissəsi olan Trans Anadolu Təbii Qaz Boru Kəmərinin (TANAP) Avropa bağlantısının (Faza-1) ikinci hissəsinin açılış mərasimi olmuşdur. Mərasim Türkiyənin Ədirnə şəhərində reallaşmışdır. Açılış mərasimində Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanla yanaşı, Azərbaycanın dövlət başçısı İlham Əliyev də iştirak etmişdir.

Türkiyə ilə Azərbaycan arasında strateji müttəfiqliyin dərinləşməsinə xidmət edən addımlardan biri də 2017-ci il oktyabrın 30-da Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı olmuşdur.

Bakı-Tbilisi-Qars dəmir yolu Azərbaycan üçün həm siyasi, həm iqtisadi, həm də strateji baxımdan böyük əhəmiyyət daşıyır. Bu dəmir yolu vasitəsilə

[1] http://www.president.az/articles/25698
[2] https://president.az/articles/14566

Azərbaycan beynəlxalq nəqliyyat dəhlizlərinə və Türkiyəyə birbaşa gediş əldə edəcək. Bakı-Tbilisi-Qars dəmir yolu Şərqdən Qərbə yük və sərnişin daşımaları imkanlarını daha da artıracaq, bu daşımalara sərf olunan vaxtı və maliyyə sərfiyyatını xeyli azaldacaq. Bakıdan Türkiyənin Qars şəhərinə aparan yol oradan Ankara və İstanbula qədər uzanacaq, Avropa üzərindən La-Manşa və Londona keçəcək. Bakı-Tbilisi-Qars dəmir yolu Ermənistanın təcridini dərinləşdirməklə yanaşı, eyni zamanda, bu təcavüzkar dövlətin işğalçılıq siyasəti ilə təcrid edilməyə çalışılan Naxçıvanın daha etibarlı dəmir yolu şəbəkəsi vasitəsilə Bakı ilə birləşməsi üçün də mühüm imkan yaradır. Belə ki, artıq gələcəkdə Qars-İğdır-Naxçıvan dəmir yolu xəttinin də çəkilməsi ilə Ermənistanın təcrid etməyə çalışdığı Naxçıvan Qars vasitəsilə Azərbaycanın digər əraziləri və Avropa ilə fasiləsiz dəmir yolu əlaqəsi qura biləcək[1].

Azərbaycanın cənub qonşusu İranla da münasibətlərin inkişafına daim önəm vermişdir. Ölkəmiz İrana qarşı beynəlxalq təzyiqlərin pik həddə olduğu dövrdə də bu dövlətlə münasibətlərini lazımı səviyyədə qoruyub saxlamışdır. Bakı həmişə beynəlxalq arenada İranın maraqlarını diqqətə alır. Məsələn, BMT-də İrana qarşı sənəd qəbul edilərkən Azərbaycan əleyhinə səs vermişdi. Bu addım bir daha qonşu ölkəyə münasibətin səmimi olduğunu göstərir. Prezident İlham Əliyev bu kimi məqamları nəzərdə tutaraq deyib: "BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və digər təşkilatlarda biz həmişə bir-birimizin yanındayıq, bir-birimizi dəstəkləyirik”.

Təhlillər göstərir ki, İran-Azərbaycan əlaqələri hazırda uğurla inkişaf edir və bu əlaqələr, ən yüksək zirvəyə qalxmışdır. İki dövləti maraqlandıran bir çox önəmli məsələlər öz həllini tapmışdır və bu gün İran-Azərbaycan əməkdaşlığı demək olar ki, bütün sahələri əhatə edir.

## Azərbaycanın geosiyasi maraqlar çərçivəsində üçtərəfli formatlarda iştirakı

Azərbaycan dövlətinin regional geosiyasi maraqları çərçivəsində ikitərəfli münasibətlərlə yanaşı, yaradılmış üçtərəfli formatda əməkdaşlığa da ciddi önəm verməkdədir. Məlum olduğu kimi, regionda Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Türkiyə formatlarında geniş əməkdaşlıq platformaları yaradılmışdır və Azərbaycan bu platformaların işində aktiv iştirak edir.

Azərbaycanın təşəbbüskarı olduğu üçtərəfli əməkdaşlıq formatlarından ilki Azərbaycan-Gürcüstan-Türkiyə üçlüyüdür. Bu üçlük Cənubi Qafqazdan əlavə Xəzər-Qara-Aralıq dənizi hövzələrini birləşdirən strateji arealı əhatə edir. Bu üçbucağın formalaşmasının əsasında tarixi və mədəni əlaqələr, coğrafi qonşuluq, vahid tranzit dəhlizinin tərkib hissələri olmaq, birgə iqtisadi əməkdaşlıq

---

[1] Əhmədov E. Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da möhkəmlənir. https://azertag.az/xeber/Azerbaycan_Turkiye_hemreyliyi_ve_strateji_terefdasligi_daha_da_mohkemlenir-1107933

üçün əlverişli şərait və siyasi iradə dayanır[1].

Geosiyasi cəhətdən dünyanın ən həssas bölgələrindən biri olan Qafqazda ayrı-ayrı dövlətlərin müəyyən formatda əməkdaşlığı fərqli reaksiyalara səbəb ola bilər. Qafqazın tarixən təkcə regional güc mərkəzlərinin deyil, həm də qlobal güc mərkəzlərinin diqqətində olmasını nəzərə aldıqda bu reaksiyaların pərdəarxasının nə qədər mürəkkəb olması gözləniləndir. Buna görə də Azərbaycan-Gürcüstan-Türkiyə üçtərəfli əməkdaşlığı üçün ilk növbədə siyasi iradənin vacibliyi qeyd olunmalıdır.

Hər 3 ölkənin xarici siyasətində fərqli yanaşmalar olsa belə, üçtərəfli formatda milli maraqlara söykənən əməkdaşlıq qurula bilinmişdir. Məlum olduğu kimi Türkiyə NATO üzvüdür, Gürcüstan Avropa İttifaqı ilə Assosiasiya Sazişi imzalamışdır, Azərbaycan isə heç bir hərbi-siyasi blokda iştirak etmir və bütün tərəflərlə qarşılıqlı faydalı bərabərhüquqlu əməkdaşlığa üstünlük verir. Bu fərqli yanaşmalara baxmayaraq hər 3 ölkə müxtəlif sahələr üzrə birgə əməkdaşlıq imkanlarını getdikcə daha da dərinləşdirə bilirlər.

Müstəqillik illəri ərzində üçtərəfli münasibətlər siyasi, iqtisadi, enerji, nəqliyyat və təhlükəsizlik-müdafiə sahələrini əhatə edə bilmişdir.

Ölkəmizin Azərbaycan-İran-Rusiya formatında iştirakı aktual beynəlxalq problemlər, terrorizm və ekstremizmlə mübarizə, energetika və iqtisadiyyat sahələrində qarşılıqlı fəaliyyət məsələləri müzakirə etmək üçün imkanlar yaradır. Bu formatın qarşısında duran məslələrdən biri də "Şimal-Cənub" nəqliyyat dəhlizi layihəsidir. Layihənin reallaşması hər üç dövlət üçün əlverişlidir. Gələcəkdə bu layihəyə İndoneziya, Malayziya və Cənub-Şərqi Asiyanın digər ölkələrinin qoşulacağı da gözlənilir. Rəşt-Astara dəmir yolunun inşası başa çatdıqdan sonra iqtisadi dəhlizin tam miqyasda istismarına başlanılacaq.

Prezident İlham Əliyev bildirib ki, Azərbaycan öz dəmir yolu infrastrukturunu təkmilləşdirib və İran sərhədinə qədər qalan hissəni inşa edib, Astaraçay üzərində körpü də tikilib. Azərbaycan dövlətinin başçısı deyib: "Hazırda "Şimal-Cənub" nəqliyyat dəhlizinin Azərbaycan ərazisində olan hissəsi tam istismara hazırdır".

**Ümumilikdə isə qeyd etmək olar ki, Azərbaycan-İran-Rusiya üçtərəfli əməkdaşlığı regional sabitliyin, təhlükəsizliyin təmin edilməsi, bölgədə əməkdaşlıq mühitinin stimullaşdırılması, iqtisadi-ticari əlaqələrin, enerji və nəqliyyat sahəsində mövcud əməkdaşlığın daha da inkişaf etdirilməsi və digər aktual məsələlərin həlli üçün mühüm əhəmiyyətə malik platformadır.**

Məlum olduğu kimi, hazırda Azərbaycan rəhbərliyi yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi artıq beynəlxalq aləmdə konkret imic qazanmışdır. Prezident İlham Əliyevin irəli sürdüyü və reallaşması üçün ciddi fəaliyyət göstərdiyi əməkdaşlıq modelləri getdikcə daha çox səmərə verməkdədir. Bunu dünyanın böyük dövlətlərinin liderləri də etiraf edirlər. Təcrübə göstərir

[1] http://newtimes.az/az/geopolitics/5174

ki, rəsmi Bakının təşəbbüsü ilə son illər Rusiya, Azərbaycan, Türkiyə, İran, Gürcüstan və Türkmənistan arasında münasibətlər daha da inkişaf edib və daha əhatəli olub. Bu sırada Rusiya-Türkiyə-Azərbaycan əməkdaşlıq formatı xüsusilə diqqəti cəlb edir.

Son illər Moskva ilə Ankara arasında əlaqələr sürətlə inkişaf edir. Türkiyənin NATO üzvü olmasına baxmayaraq, bu, hərbi sahəni də əhatə etməyə başlayıb. Bunun fonunda iki böyük dövlət arasında siyasi, mədəni, nəqliyyat, enerji, turizm və başqa vacib sferalarda qarşılıqlı faydalı əməkdaşlıq inkişafdadır.

Bəzi dövlətlərin buna qısqanclıqla yanaşmasına baxmayaraq, Ankara və Moskva əlaqələri yeni səviyyəyə yüksəltməkdə qərarlıdırlar. Burada Azərbaycan faktoru mühüm rol oynayır. Azərbaycan iki böyük qonşu dövlət arasında əməkdaşlığın inkişafına özünün töhfələrini verməkdədir. İndi faktiki olaraq bir çox sahələr üzrə bu üç ölkənin əməkdaşlığından danışmaq mümkündür. Bu proses o dərəcədə inkişaf edib ki, artıq ekspertlər onun geosiyasi təsirindən bəhs edirlər[1].

**Moskvada fəaliyyət göstərən Müasir Dövlətçiliyin İnkişafı İnstitutunun direktoru, Tətbiqi Araşdırmalar və Proqramlar Mərkəzinin eksperti Dmitri Solonnikov "Prisp.ru" analitik – informasiya saytında verilmiş "Azərbaycan səmərəli əlaqələndirici rolunu yerinə yetirir" təhlili məqaləsində ölkəmizin üçtərəfli formatlarda iştirakının əhəmiyyətini və səmərəsini qeyd etmişdir.**

Politoloq yazır ki, dövlətlərin üçtərəfli əməkdaşlıq formatı məsələsi indiyədək də dəfələrlə mövcud olub. Ancaq müasir dövrdə şahidi olduğumuz "Azərbaycan – Rusiya – İran" və "Azərbaycan – Rusiya – Türkiyə" üçtərəfli əməkdaşlıq formatları tamamilə başqa məzmun, prinsip və istiqamət kəsb edir. Çünki burada dövlətlərin hansınınsa hakim rolunda çıxış etməsi və ya hansısa iqtisadi maraqların bölüşdürülməsi məsələsi yoxdur. Burada sırf qarşılıqlı maraqlar və hər üç ölkənin əhalisinin mənafeyinə uyğun olan əməkdaşlıq məsələləri müzakirə edilir və tərəflərin hər üçü öz istəyinə nail olur. Bu formatlar Ön Asiyadakı siyasi reallıqların gündəliyə gətirilməsi üçün yaradılıb. Yaxın gələcəkdə isə bu format sıx iqtisadi əməkdaşlıq müstəvisinə də keçə bilər.

Ekspertin fikrincə, son zamanlar Şimal – Cənub iqtisadi əməkdaşlığının möhkəmləndirilməsi üçün əlavə və həm də təkcə coğrafi məna kəsb etməyən körpülərin yaradılması zərurəti yaranır. Bu prosesdə siyasi güc və nəhəng iqtisadiyyat sahibi kimi Rusiya çıxış etsə də, Azərbaycanın da çox mühüm və vacib rolu var.

Bu formatlarda iştirak edən ölkələrin əməkdaşlığının uzunmüddətli olması üçün əsas elementlərindən biri də daxili etimad, tarix və mədəniyyət eyniliyi, milli ənənələr, dil və din yaxınlığıdır. Bu baxımdan Azərbaycanı həm Rusiya, həm İran, həm də Türkiyə ilə çoxsaylı tellər bağlayır. Yəni bu

---

[1] https://news.milli.az/politics/722241.html

əməkdaşlıq formatlarında Azərbaycan səmərəli əlaqələndirici rola malikdir[1].

Bu arada regional geosiyasi sistemdə üçtərəfli formatlarda Azərbaycanın aktivliyi Türkiyə tərəfindən də rəsmi şəkildə etiraf olunur. Türkiyə Prezidentinin Administrasiyasının yaydığı məlumatda qeyd olunub ki, Azərbaycanla əməkdaşlıq formatları çox vacibdir. Azərbaycanın üçtərəfli formatlarda iştirakı Türkiyə üçün, formata daxil olan digər ölkələr üçün də mühüm əhəmiyyət kəsb edir. Azərbaycan bu ölkələr üçün etibarlı siyasi və iqtisadi tərəfdaşdır[2].

## Dünyanın aparıcı dövlətlərinin geosiyasi maraqları və Azərbaycan

Qeyd etmək lazımdır ki, Azərbaycanın müasir geosiyasi proseslər çərçivəsində dünyanın aparıcı dövlətləri ilə münasibətləri mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsi ümumilikdə dünyanın böyük dövlətlərinin geosiyasi maraqlarında vacib yer tutur.

Dünya dövlətlərinin Cənubi Qafqaza münasibətdə nümayiş etdirdikləri davranışın təbiətinə əsasən, burada ən müxtəlif-geosiyasi, geoiqtisadi və hərbi-siyasi, xarakterli maraqların kəskin toqquşduğunu aydın görmək mümkündür. Regiondakı vəziyyətin kifayət qədər gərgin olmasına işarə edərək, tədqiqatçı Əli Həsənov yazır: “Region ölkələri arasındakı mövcud geosiyasi və geoiqtisadi və hərbi-geostrateji ziddiyyətlər, həmçinin artıq uzun illərdir ki, transmilli sülhə təhdid yaradan Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Abxaziyada və Cənubi Osetiyada, Rusiyanın Şimali Qafqaz bölgələrində silahlı toqquşmalar, Moldovanın Dnestryanı ərazisindəki separatizm və s. regiondakı vəziyyəti gərgin olaraq saxlamaqda davam edir”[3].

Tədqiqatçıların fikrincə, SSRİ-nin süqutundan sonra Cənubi Qafqazda üç istiqamətdə özünü büruzə verən rəqabət müşahidə olunmağa başladı. Birincisi, regionda tarixən strateji maraqlara malik olan Rusiya, İran və Türkiyə arasında rəqabət açıq müstəviyə keçdi. İkincisi, Cənubi Qafqaz ölkələrinin özləri arasındakı rəqabət və nəhayət, üçüncüsü, Cənubi Qafqaz ölkələrində yaşayan etnoslar arasındakı rəqabət[4].

Tədqiqatçı Samuil Bernard Kohen qeyd etdiyimiz məqamla bağlı aydın mövqe nümayiş etdirərək yazır: “SSRİ-nin süqutundan sonra “Hartləndin” əyaləti kimi Cənubi Qafqazın statusu dəyişmişdir. Soyuq müharibə dövründə Rusiyanın platforması olduğu halda, SSRİ-nin süqutundan sonra Rusiyaya qarşı istifadə edilən əraziyə çevrilmişdir”[5].

---

[1] http://xalqqazeti.com/mobile/az/news/35789

[2] http://xalqqazeti.com/mobile/az/news/8304

[3] Гасанов А. Ситуация региональной безопасности в Каспийско-Черноморском бассейне и на Южном Кавказе: реалии и прогнозы об объединении в блоках, классификация геостратегических сил//http://strategiya.az/old/?m=xeber&id=24687(25.10.2013)

[4] Демираг Й. Перспективы мира и стабильности на Южном Кавказе//**Центральная Азия и Кавказ**, № 4 (46), 2006, с. 118

[5] Cohen Saul B. Geopolitics and the world system. New York, Rowman & Littlefield Publishers, 2003, P.211

Cənubi Qafqazfın unikal coğrafi mövqeyi, əlverişli tranzit imkanları dünyanın fövqəldövləti olan ABŞ üçün geosiyasi və geoiqtisadi maraqların reallaşdırılması baxımından olduqca böyük əhəmiyyət kəsb edir. Lakin buna baxmayaraq, başlanğıcda ABŞ-ın regionla bağlı mövqeyində paradoksal məqamlar müşahidə olunurdu. Belə ki, region dövlətləri ilə fəal əməkdaşlıq strategiyasını seçməli olduğu halda, 1992-ci ildə Azərbaycana qarşı sanksiya olaraq 907-ci düzəlişi tətbiq etməyə başladı. Təbii ki, regionun ən strateji ölkəsinə münasibətdə belə mövqenin sərgilənməsi başa düşülən deyildir. Çünki, regionda üstün mövqelərə malik olmaq üçün Azərbaycanla sıx əlaqələrin qurulması ilkin şərt idi. Azərbaycanın ABŞ-da səfiri olmuş Hafiz Paşayev 907-ci düzəlişi ABŞ-Azərbaycan əlaqələrinin qurulmasında ciddi maneə kimi qiymətləndirmişdir[1].

ABŞ-ın bu addımı ilə, onun qlobal liderlik strategiyasının müəyyənləşməsində əsas rol oynayan Z. Bjezinskinin Azərbaycanla bağlı qeydləri arasında da ciddi uyğunsuzluğun olduğunu vurğulamaq lazımdır. Z. Bjezinskiy yazır ki, ABŞ-ın ən böyük dəstəyinə məhz Azərbaycan layiqdir. Çünki, Azərbaycan Avrasiyanın ən vacib geosiyasi mərkəzlərindən biridir[2]

Professor Novruz Məməmədov Azərbaycanın Cənubi Qafqazda əsas geosiyasi oyunçu olduğunu əsaslandırır. O, yazır: "Azərbaycan həm də Mərkəzi Asiyaya açılan "geosiyasi pəncərə"dir. Cənub Qafqazın başqa bir ölkəsinin coğrafi, geoloji və geosiyasi xarakteristikalarına görə bu funksiyanı yerinə yetirməsi imkanı yox dərəcəsindədir[3]. Lakin qeyd edək ki, Azərbaycanın zəngin karbohidrogen ehtiyatlarının və unikal geosiyasi mövqelərinə baxmayaraq, ABŞ ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbayacn ərazilərinə açıq iddia edən və işğalıçılıq siyasəti yeridərək regional təhlükəsizliyə ciddi təhdid yaradan Ermənistana daha artıq meyllilik nümayiş etdirirdi. Artıq qeyd etdiyimiz kimi, ABŞ-da erməni lobbisinin təsiri altında konqres tərəfindən 1992-ci ilin oktyabrında "Azadlığa Dəstək Aktına" 907-ci düzəlişin edilməsi haqqında qərarın verilməsi də bunu sübut edirdi[4].

Lakin zamanla ABŞ Azərbaycanın regional əhəmiyyətini dərk etmiş oldu. Burada xüsusilə Azərbaycanın qlobal antiterror koalisiyasında aktiv iştirakı, ABŞ-ın Əfqanıstan siyasətində Azərbaycanla əməkdaşlığa yaranmış ehtiyacı, ölkəmizin dünyanın enerji təhlükəsizliyinə verdiyi töhfə və s. kimi amillər mühüm rol oynamışdır.

Terrorizmə qarşı mübarizəni və bu istiqamətdə əməkdaşlığı nəzərdə tutan 12 beynəlxalq konvensiyaya qoşulmaqla, Azərbaycan özünün prinsipial

---

[1] Pashayev H., Racing Up Hill: Selected Papers of Azerbaijan's first ambassador to the United States of America. New York, 2006, p. 14

[2] Brzezinski Zb. The Grand Chessboard. American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997, P. 41

[3] Məmmədov N. Xarici siyasət: realliqlar və gələcəyə baxiş. Bakı, Qanun Nəşriyyatı, 2013, s.75

[4]Freedom Support Act, Section 907(102nd Congress, 2nd Session, Public Law 102-511)

mövqeyini təsdiq etmiş oldu[1].

Beləliklə, ABŞ-Azərbaycan münasibətlərinin strateji trendlərini əsasən enerji və hərbi-siyasi sahələrdə intensiv əməkdaşlıq təşkil edir. ABŞ-ın özünün isə Azərbaycanla bağlı, qeyd etdiyimiz kimi, müəyyənləşdirilmiş strategiyası mövcuddur ki, bunun da əsasını geosiyasi, geoiqtisadi, hərbi və təhlükəsizlik məsələsi ilə bağlı maraqları təşkil edir.

Azərbaycan-ABŞ münasibətlərinin strateji tərəfdaşlıq səviyyəsinə qədər inkişaf etdirilməsi bütün hallarda Azərbaycanın suvernliyini, müstəqilliyini möhkəmləndirməsi baxımından mühüm əhəmiyyət kəsb edir və onun təhlükəsizlik maraqlarına cavab verir.

Qeyd edək ki, hazırda Azərbaycan-ABŞ əlaqələri yüksək səviyyədə inkişaf etməkdədir. Bunu ABŞ prezidenti D.Trampın prezident İlham Əliyevə ünvanladığı məktubdan da görmək mümkündür. Məktubda ölkəmizlə tərəfdaşlığın davamlı inkişafını arzuladığını vurğulayan ABŞ Prezidenti Donald Tramp Azərbaycanı Birləşmiş Ştatların dəyərli tərəfdaşı hesab etdiyini bildirib. Bununla yanaşı, qeyd edib ki, rəsmi Vaşinqton Prezident İlham Əliyevin Azərbaycan iqtisadiyyatının şaxələndirilməsi və islahatların həyata keçirilməsi istiqamətində gördüyü işləri dəstəkləyir və alqışlayır, eləcə də xalqlarımızın rifahına xidmət edən digər əməkdaşlıq sahələrinin də araşdırılmasını arzulayır. Eyni zamanda, iqtisadiyyat, idarəçilik və məhkəmə sahələrində islahatların davam etdirildiyi bir zamanda Birləşmiş Ştatların ölkəmizlə birgə işləməyə hazır olduğunu bildirib[2].

Bundan əlavə, məktubda vurğulanıb ki, ABŞ Azərbaycanın təşəbbüsü və liderliyi ilə həyata keçirilən qlobal enerji layihələrini, o cümlədən Cənub Qaz Dəhlizini qətiyyətlə dəstəkləməkdə davam edir, həmçinin Azərbaycanın və beynəlxalq tərəfdaşların onun tamamlanmasına yönəlmiş səylərini alqışlayır. ABŞ, eyni zamanda, Azərbaycanı Avropa üçün yeni enerji mənbəyi hesab etməklə yanaşı, qlobal enerji təhlükəsizliyinin gücləndirilməsində, o cümlədən Xəzər regionunda enerji resurslarının işlənilməsi və ixracında Azərbaycanın oynadığı rolu yüksək dəyərləndirir. Həmçinin Prezident Donald Tramp ABŞ-ın regional təhlükəsizliyin möhkəmlənməsinə xidmət edəcək Minsk qrupu prosesi vasitəsilə Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə sadiqliyini vurğulayıb.

Məlum olduğu kimi, Azərbaycanın yer aldığı Cənubi Qafqaz əsrlərdir ki, Rusiyanın geosiyasi maraqları dairəsindədir. Bu gün Rusiya-Azərbaycan münasibətlərinin inkişaf etdirilməsi və əməkdaşlığın genişləndirilməsi zamanı hər iki dövlətin milli maraqlarından çıxış olunur. Bu, Azərbaycanın həyata keçirdiyi uğurlu və müstəqil xarici siyasi və iqtisadi siyasətin nəticəsidir.

---

[1] U.S.–Azerbaijan Relations// http://azconsulatela.org/browse.php?sec_id=18&lang=2(müraciət olundu: 15.01.2015)

[2]https://azertag.az/xeber/Elchin_Ahmedov_Azerbaycan_ABS_munasibetleri_strateji_terefdasligin_yeni_inkisaf_merhelesine_qedem_qoyur-1066856

İnamla belə bir fikri qeyd etmək olar ki, Azərbaycan Qərblə Rusiya arasında səmərəli balansı yaratmağa bacaran az sayda postsovet ölkələrindən biridir. Bu baxımdan, Rusiya Azərbaycanla əməkdaşlığın inkişafı zamanı ölkəmizin milli maraqlarının nəzərə alınmasının vacibliyini qəbul edir.

Hazırda Rusiya-Azərbaycan əməkdaşlığı demək olar ki, bütün fəaliyyət sahələrini əhatə etməkdədir. Ümumiyyətlə, Rusiya-Azərbaycan əməkdaşlığı olduqca ciddi perspektivlərə malikdir. Lakin bir sıra tədqiqatçıların fikrincə, bu əməkdaşlıq bəzi amillərin təsiri altında tam gözlənildiyi kimi olmaya da bilər.[1] Burada əsas səbəblərdən biri Azərbaycanın tam müstəqil enerji siyasətini həyata keçirməsini Rusiya həzm edə bilməməsi və istənilən vasitə ilə bu istiqamətdə ciddi təsir rıçaqlarına sahib olmağa çalışmasıdır. Sirr deyildir ki, Rusiya postsovet məkanında cərəyan edən bütün proseslərə, həmçinin, enerji sahəsindəki vəziyyətə təkbaşına nəzarət etmək iddiasındadır.

Lakin Azərbaycan özünün enerji siyasətini həyata keçirərkən Rusiyanı qıcıqlandırmamaq xəttinə üstünlük verir. Bu da öz müsbət nəticələrin verməkdədir.

Son vaxtlar Azərbaycan-Rusiya münasibətləri xüsusilə yüksək səviyyəyə çatmışdır. Dövlət rəhbərləri mütəmadi görüşür və ikitərəfli münasibətlərin müxtəlif aspektlərini müzakirə edirlər.

Ölkəmizin Rusiya ilə münasibətlərinin yüksək səviyyəsini göstərən nümunələrdən biri 2019-cu il noyabrın 20-25-də Birinci vitse-prezident Mehriban Əliyevanın rəsmi səfəri Rusiyaya etdiyi rəsmi səfər zamanı keçirilən yüksək səviyyəli görüşləri, aparılan ikitərəfli mühüm müzakirələri qeyd etmək olar.

Beləliklə də qeyd etmək olar ki, ölkəmizin yerləşdiyi regionda geosiyasi mənzərənin mürəkkəbliyi fonunda son illər Azərbaycan-Rusiya münasibətləri daha da intensivləşir. Faktlar göstərir ki, Cənubi Qafqazda Azərbaycan suverenliyini qoruyan, müstəqil xarici siyasət yürüdən yeganə dövlətdir. Rusiya ilə əlaqələr də ancaq bu prinsiplər əsasında həyata keçirilir. Bununla Azərbaycan-Rusiya münasibətlərinin regional geosiyasi dinamikaya təsiri məsələsi xeyli aktuallaşır.

Azərbaycan-Rusiya münasibətləri iki suveren və müstəqil dövlət arasında beynəlxalq hüquqa əsaslanan qarşılıqlı faydalılıq prinsipi çərçivəsində inkişaf etdirilir. Bu, dövlətçilik aspektində prinsipial əhəmiyyət daşıyan məqamdır. Azərbaycan sübut edir ki, ən güclü dövlətlərlə belə bərabərhüquqlu prinsiplər əsasında əməkdaşlıq etmək mümkündür[2].

## Nəticə

Mövzu üzrə aparılmış təhlillər belə qənaətə gəlməyə imkan verir ki, Azərbaycan dövləti geosiyasi fəaliyyət çərçivəsində həm öz qonşuları, həm

---

[1] Вишнякова В. С., Абрамова С. В. Россия и Азербайджан - баланс интересов и перспективные направления сотрудничества// Источник Альманах современной науки и образования Тамбов: Грамота, 2013, № 1 (68), с. 36

[2] http://newtimes.az/az/organisations/6346/

region, həm də ümumilikdə dünya dövlətlərilə müvafiq münasibətlər yaratmışdır. Ölkəmiz Ermənistan istisna olmaqla bütün tərəfdaşları ilə qarşılıqlı hörmətə və maraqlara əsaslanan münasibətlərə sahibdir ki, bu münasibətlər də ciddi əsaslara söykənir.

Azərbaycan dövlətinin regional geosiyasi maraqları çərçivəsində ikitərəfli münasibətlərlə yanaşı, yaradılmış üçtərəfli formatda əməkdaşlığa da ciddi önəm verməkdədir. Məlum olduğu kimi, regionda Azərbaycan-Türkiyə-Rusiya, Azərbaycan-Gürcüstan-Türkiyə, Azərbaycan-İran-Rusiya, Azərbaycan-İran-Türkiyə formatlarında geniş əməkdaşlıq platformaları yaradılmışdır və Azərbaycan bu platformaların işində aktiv iştirak edir.

Məlum olduğu kimi, hazırda Azərbaycan rəhbərliyi yeni əməkdaşlıq formatlarının təşəbbüskarı kimi artıq beynəlxalq aləmdə konkret imic qazanmışdır. İrəli sürülən və reallaşması üçün ciddi fəaliyyət göstərilən əməkdaşlıq modelləri getdikcə daha çox səmərə verməkdədir.

Azərbaycanın müasir geosiyasi proseslər çərçivəsində dünyanın aparıcı dövlətləri ilə münasibətləri mühüm əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, Azərbaycanın yerləşdiyi Cənubi Qafqaz bölgəsi ümumilikdə dünyanın böyük dövlətlərinin geosiyasi maraqlarında vacib yer tutur.

Aparılan düşünülmüş siyasət nəticəsində Azərbaycanın dünyanın geosiyasi sistemində mövqeyi daha da güclənməkdədir. Belə ki, ölkəmiz regionun lider dövlətinə, Şərqlə Qərb, Şimalla Cənub arasında mühüm körpüyə çevirməyə nail olmuşdur. Həm ölkənin enerji resurslarının nəqlinin diversifikasiyasını uğurla reallaşdırmaqla, həm də ölkəni əhəmiyyətli tranzit ölkəyə çevirməklə bir növ, Azərbaycanı enerji xabına çevirmişdir.

Ölkəmiz hazırda Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin aparıcı həlqəsi rolunu oynayır. Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, Bakı-Tbilisi-Qars dəmir yolunun, TAP və TANAP layihələrinin günün reallığına çevrilməsi, ölkəmizin üç süni peykin orbitə buraxılması ilə kosmik dövlətlər klubuna daxil olması düşünülmüş, məqsədyönlü siyasətinin real nəticəsi olmaqla Azərbaycanın beynəlxalq münasibətlər sistemindəki mövqelərinin daha da güclənməsinə gətirib çıxarmışdır. Təsadüfi deyildir ki, Azərbaycan artıq Avropa və dünyanın aparıcı enerji təchizatçılarından birinə çevrilmişdir.

**ƏDƏBİYYAT**


1. Əhmədov E. Azərbaycan-Türkiyə həmrəyliyi və strateji tərəfdaşlığı daha da möhkəmlənir. https://azertag.az/xeber/Azerbaycan_Turkiye_hemreyliyi_ve_strateji_terefdasligi_daha_da_mohkemlenir-1107933
2. Məmmədov N. Xarici siyasət: realliqlar və gələcəyə baxiş. Bakı, Qanun, 2013, s.75
3. Вишнякова В. С., Абрамова С. В. Россия и Азербайджан - баланс интересов и перспективные направления сотрудничества// Источник Альманах современной науки и образования Тамбов: Грамота, 2013, № 1 (68), с. 36
4. Гасанов А. Ситуация региональной безопасности в Каспийско-Черноморском бассейне и на Южном Кавказе: реалии и прогнозы об объединении в блоках, классификация геостратегических сил//http://strategiya.az/old/?m=xeber&id=24687
5. Демираг Й. Перспективы мира и стабильности на Южном Кавказе//**Центральная**

**Азия и Кавказ**, № 4 (46), 2006, с. 118
6. Общие исторические справки (внешняя политика). Азербайджан// "Heydər Əliyev irsi" beynəlxalq elektron kitabxana //http: lih. Aliev heritane.orq./ ru/ 1407885 html.
7. Brzezinski Zb. The Grand Chessboard. American Primacy and Its Geostrategic Imperatives. N.Y., 1997, P. 41
8. Cohen Saul B. Geopolitics and the world system. New York, Rowman & Littlefield Publishers, 2003, P.211
9. Pashayev H., Racing Up Hill: Selected Papers of Azerbaijan's first ambassador to the United States of America. New York, 2006, p. 14
10. Freedom Support Act, Section 907(102nd Congress, 2nd Session, Public Law 102-511)
11. U.S.–Azerbaijan Relations// http://azconsulatela.org/browse.php?sec_id=18&lang=2
12. http://www.president.az/articles/25698
13. https://president.az/articles/14566
14. http://newtimes.az/az/geopolitics/5174
15. https://news.milli.az/politics/722241.html
16. http://xalqqazeti.com/mobile/az/news/35789
17. http://lib.aliyevheritage.org/az/1407885.html
18. http://xalqqazeti.com/mobile/az/news/8304
19. https://azertag.az/xeber/Elchin_Ahmedov_Azerbaycan_ABS_munasibetleri_strateji_terefdasligin_yeni_inkisaf_merhelesine_qedem_qoyur-1066856
20. http://newtimes.az/az/organisations/6346/

## АЗЕРБАЙДЖАНСКАЯ РЕСПУБЛИКА В СОВРЕМЕННОЙ ГЕОПОЛИТИЧЕСКОЙ СИСТЕМЕ

**С.ГАРАШОВА**

### РЕЗЮМЕ

В статье исследуется роль и значение Азербайджанской Республики в современной геополитической системе. Прежде всего, отмечается, что позиция Азербайджанской Республики в международной и региональной политике, проводимая ею системная политическая стратегия раскрывает ее уникальную роль в геополитической системе.

Затем были проанализированы отношения азербайджанского государства с соседними, региональными и мировыми государствами в сфере реализации геополитических задач. Отмечается, что геополитика по масштабу делится на три группы: локальные, региональные и глобальные. Азербайджанское государство установило соответствующие взаимоотношения со всеми региональными государствами в рамках современных геополитических процессов. Наша страна имеет отношения, основанные на взаимном уважении и интересах, имеющих прочную основу, со всеми соседними государствами, кроме Армении.

В статье также рассматривается участие Азербайджана в трехстороннем формате геополитических отношений. Как известно, наряду с двусторонними отношениями в рамках региональных геополитических процессов, азербайджанское государство придает также большое значение налаженному трехстороннему сотрудничеству. В регионе созданы широкие платформы сотрудничества в форматах: Азербайджан-Турция-Россия, Азербайджан-Грузия-Турция, Азербайджан-Иран-Россия, Азербайджан-Иран-Турция, в которых Азербайджан принимает активное участие.

В статье анализируется политика Азербайджана через призму геополитических интересов ведущих держав. Отмечается, что регион Южного Кавказа, где расположен

Азербайджан, занимает важное место в геополитических интересах крупнейших мировых держав. Анализ растущего геополитического значения Азербайджана позволяет сделать вывод о том, что в результате продуманной политики позиции республики в мировой геополитической системе укрепляются. Таким образом, наша страна сумела стать лидером в регионе, важным мостом между Востоком и Западом, Севером и Югом, который превратил республику в энергетический центр, благодаря успешной диверсификации транспортировки своих энергоресурсов и превращению Азербайджана в важную транзитную страну.

**Ключевые слова:** Азербайджанская Республика, геополитика, геополитическая система, международные отношения, геополитические интересы, трехсторонний формат, региональная геополитика.

## THE REPUBLIC OF AZERBAIJAN IN THE MODERN GEOPOLITICAL SYSTEM

**S.GARASHOVA**

## SUMMARY

The article examines the role and importance of the Republic of Azerbaijan in the modern geopolitical system. First of all, it is noted that the position of the Republic of Azerbaijan in international and regional politics and its systemic political strategy reveals its unique role in the geopolitical system. Then, the relations of the Azerbaijani state with neighboring, regional and world states in the field of implementing geopolitical tasks were analyzed. It is noted that geopolitics in terms of scale is divided into three groups: local, regional and global. The Azerbaijani state has established relevant geopolitical processes in the framework of modern relations with all regional states. Our country has relations based on mutual respect and interests, which have a solid foundation, with all neighboring states except Armenia.

The article also examines the participation of Azerbaijan in a trilateral format of gepolitical relations. As it's known, along with bilateral relations within the framework of regional geopolitical processes, the Azerbaijani state also attaches great importance to established triangular cooperation. Broad cooperation platforms have been created in the region in the formats: Azerbaijan-Turkey-Russia, Azerbaijan-Georgia-Turkey, Azerbaijan-Iran-Russia, Azerbaijan-Iran-Turkey, in which Azerbaijan is actively involved. The article analyzes the policy of Azerbaijan through the prism of the geopolitical interests of the leading powers. It is noted that the region of the South Caucasus, where Azerbaijan is located, occupies an important place in the geopolitical interests of the largest world powers.

An analysis of the growing geopolitical importance of Azerbaijan allows us to conclude that as the result of a well-thought-out policy the position of republic in the world geopolitical system is being strengthened. Thus, our country managed to become a leader in the region, an important bridge between East and West, North and South, which turned the republic into an energy center due to the successful diversification of the transportation of its energy resources and the transformation of Azerbaijan into an important transit country.

**Keywords:** Republic of Azerbaijan, geopolitics, geopolitical system, international relations, geopolitical interests, tripartite format, regional geopolitics.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№3 Sosial-siyasi elmlər seriyası 2020*

**FƏLSƏFƏ**

**UOT 5:1(075.8)**
**ORCİD: 0000-0001-9195-9636**

# TƏBİİ-ELMİ BİLİKLƏRİN AKSİOLOJİ ASPEKTİ

**Z.C.HACIYEV**
***Bakı Dövlət Universiteti***
***aliyevaes@yandex.com***

*Müasir təbii-elmi biliklərin aksioloji aspekti, aşağıdakılara əsas diqqət yetirməyi tələb edir. Hər şeydən əvvəl, yeni-yeni kəşflər əsasında yaradılan kütləvi qırğın silahlarının bəşəriyyətin varlığı üçün böyük təhlükə olduğunun ümumbəşəri dəyər kimi qəbul olunması qeyd edilməlidir. Digər tərəfdən, qlobal miqyaslı ekoloji ziddiyyətlərin kəskinləşməsi, təbiətə insan fəaliyyətinin tükənməz mənbəyi kimi yanaşan köhnə elmi paradiqmanın əsassız olduğunu sübut edir. İndi getdikcə daha çox aydın olur ki, bəşəriyyətin ümumi dəyərlər sistemində cəmiyyətlə təbiətin ayrılmaz vəhdəti strategiyasının işlənilib hazırlanması isə həyata keçirilməsi son dərəcə vacibdir. Nəhayət, bu da nəzərə alınmalıdır ki, elmi biliklərin inkişafı çox vaxt müasir insanın biososial mövcudat kimi fəaliyyətində böhranın və özgələşmənin çoxalmasını şərtləndirir. Elmi nailiyyətlər və bütövlükdə mədəniyyət, şəxsiyyətin şüurunun manipulyasiysı üçün elə geniş imkanlar açır ki, insan öz varlığının həqiqi təbii mahiyyətini mənalandırmaq qabiliyyətini itirir. Müxtəlif psixi gərginliklərin, mənfi emosiyaların çoxalması nəticəsində insanın bir şəxsiyyət kimi fərdi varlığının genetik əsasları təhlükə altına alınır, bütövlükdə onun psixikasında nəticələri bəlli olmayan ciddi pozuntular baş verir.*

**Açar sözlər**: təbii-elmi biliklər, aksiologiya, mənəvi dəyərlər, insan davranışı, qlobal proseslər.

**Giriş**. Təbii-elmi biliklərin, ümumilikdə təbii-elmi idrakın əsas məqsədi, öyrəndiyi obyektlərin daxilinə nüfuz etmək, onların mövcudluğu və inkişafını səciyyələndirən qanunauyğunluqları aşkara çıxarmaqdır. Bu idrakın başlıca istiqaməti olmaqla, onun koqnitiv tərəfini ifadə edir. Onun nəticəsində müxtəlif təbiət hadisələri və proseslərinin yaranması səbəbləri və fəaliyyəti haqqında obyektiv həqiqətlər (həqiqi biliklər) meydana gəlir və çoxalır. Lakin, hər cür həqiqi bilik cəmiyyətdə, onun sosiomədəni mühitində baş verir, insanların tələbatları, mənafeləri və məqsədləri ilə sıx bağlı olur. Sonuncu amillər idrakın bütün növlərində, o cümlədən təbii-elmi biliklərdə (əlbəttə burada özünəməxsus şəkildə) koqnitiv ilə aksiolojinin (dəyərliliyin) münasibəti problemini meydana çıxarır. Sözügedən problem elm tarixinin bütün mərhələlərində mövcud olsa da, hər bir konkret dövrün xarakterindən irəli gələn spesifikliklə

çıxış edir. Əslində təbii-elm biliklərin aksioloji aspekti öz məzmunu etibarilə daha geniş və ümumi olan elmi idrakın sosiomədəni ölçüsü sisteminin xüsusi bir yarımsistemi deməkdir. Nəzərə alınmalıdır ki, qlobal təkamülün müasir yeni səviyyəsi, canlı orqanizmlər ilə ekosistemin koevolyusiyanı ilə səciyyələnir, bu da nəticədə sosiomədəni təkamülə gətirib çıxarır.

Öncə qeyd etmək lazımdır ki, təbii-elmi idrakın akseoloji səpkisi fəlsəfi refleksiyanın tarixində daim bu və ya digər dərəcədə müzakirə obyekti olmuşdur. Müasir dövrdə isə elmi biliklərin sürətli inkişafı, onun böyük uğurları ilə yanaşı törətdiyi mənfi ekoloji və antropoloji təhlükələr həmin problemin aktuallığını daha da artırır. Bununla əlaqədar olaraq təbii-elmi biliklərin kognitiv və praksioloji yönümlü ilə yanaşı akseoloji aspektinə də diqqət yetirməyən zəruriliyi əsaslandırılır. Elmi tədqiqat işində təbii elmi biliklər ilə dəyərlərin münasibətlərini əhatə edən başlıca istiqamətlər nəzərdən keçrilir. Belə bir məqam xüsusi vurğulanır ki, müasir təbii-elmi kəşflərin insan ölçüləri baxımından qiymətləndirilməməsi onların hümanist aksioloji səpkilərinə lazımı diqqət yetirilməməsi, cəmiyyət və bəşəriyyət üçün təhlükələr törədə bilir.

**Tətqiqatın məqsədi və vəsifələri**. Postindustrial cəmiyyətdə yeni elmi biliklərin toplanması və onların texniki-texnoloji proseslərə tətbiqi nəticəsində təbii mühitdə, habelə insanları əhatə edən predmet dünyasının digər tərəflərində ciddi dəyişikliklər baş verir. Bu isə öz növbəsində sosial əlaqələrdə, insanların ünsiyyət üsullarında və həyat tərzinin digər tərəflərində mühim irəliləyişləri şərtləndirir. Nəticədə texnogen mədəniyyətə məxsus olan yeni dünyagörüşü və dəyər oriyentasiyaları qərarlaşır. Sonuncuların əsas səciyyəvi cəhətini təbiət ilə cəmiyyət arasındakı münasibətlərin zəka və ağıl prinsiplərinə əsaslanması zərurəti təşkil edir. Digər tərəfdən, belə şəraitdə fəaliyyət göstərən şəxsiyyətin, yaradıcı, suveren və avtonomluq keyfiyyətləri, onun dəyərlər sistemində dominant mövqeyə malik olur. Bu baxımından təbii-elmi biliklərin insan şüurunda, onun motivasiyasında, sosial davranışında necə dəyərləndirilir və əks olunur problemi olduqca aktual olduğunu qeyd etmək lazımdır. Məqalədə bu aspektdə bir sıra yanaşmalar tədqiq olunur. Problemin aktuallığını nəzərə alaraq elmi biliyin dəyər aspekti ilə bağlı araşdırma aparmağı nəzərdə tutmuşuq.

**Tədqiqat metodları**. Məsələyə aydınlıq gətirmək üçün fəlsəfə tarixində və müasir dövr tədqiqatlarında təbii-elmi biliklərin dəyər aspekti analiz edilir, lazımi qənaətlər çıxarılır. Konseptual mənada biz sinergizm mövqeyindən problemin təhlilinə üstünlük veririk.

**Elmi bilik sosial dəyər kimi**. Qeyd edək ki, elmi biliyin dəyər aspektinə diqqət yetirilməsi, o qədər də təzə məsələ deyildir. Fəlsəfədə bu problem qədim dövrdən müzakirə obyekti olmuşdur. Antik fəlsəfənin görkəmli nümayəndəsi Aristotel yazmışdır: "Əgər kim elmdə inkişaf edir və mənəviyyat sahəsində geri qalırsa, əslində o irəli getməkdən daha çox geriyə gedir" [4, s.49].

Sonrakı dövrlərdə təbiətşünaslığın inkişafı, texnogen sivilizasiyasının qərarlaşması gedişində elmi biliklərin praktiki fayda gətirməsi tələbi ön plana

keçdi. Nəticədə onların dəyərləndirici tərəfinə diqqət xeyli azaldı, lakin tamamilə gündəmdən çıxarılmadı. Müasir dövrdə isə sözügedən tərəflərin münasibətinin düzgün təşkili özünün yüksək dərəcədə aktuallığı ilə səciyyələnir. Bu daha çox aşağıdakı səbəb ilə bağlıdır. Elmi biliklərin sürətli inkişafı baş verdikcə, onun bilavasitə məhsuldar qüvvəyə və sosial qüvvəyə çevirilməsi funksiyasının rolunun artmasına baxmayaraq, elmi inkişaf, bəşəriyyətin qarşısında duran əsas problemləri, nəinki tam həll edə bilmədi, əksinə özü ilə cəmiyyətə bir çox ciddi və qlobal təhlükələr gətirdi. Buna görə də təbii idrakın rolunu yenidən mənalandırmaq, onun humanist tələblərə, insan ölçülərinə, mədəniyyətə, dünyagörüşünə və mənəviyyatına mənfi təsirinin neytrallaşması və əksinə pozitiv təsirinin gücləndirilməsi zərurəti yarandı.

Təbii-elmi biliklərin aksioloji tərəfi həm də aşağıdakı məqam ilə bağlıdır. Söhbət bundan gedir ki, təbiət hadisələr və proseslərinin yeni mahiyyət tərəflərini aşkara çıxaran hər bir elmi həqiqət, transendental – metafiziki xarakter daşımır, konkret sosio-mədəni məzmuna malikdir. Bu problemi araşdırarkən öncə idrakda koqnitiv (bilik) ilə dəyər səpkilərinin ümumi əsas istiqamətlərinə diqqət yetirmək məqsədəuyğundur. Birinci istiqamət bunu ifadə edir ki, göstərilən hər iki səpkinin nisbi müstəqilliyi və fərqliliyi nəzərdə tutulmalıdır. Bu o deməkdir ki, təbii-elmi biliklərin koqnitiv tərəfi, öyrənilən hadisə və proseslərin rasional, nəzəri təhlilini verir.

Belə yanaşdıqda, avtonomdur, yeni-yeni həqiqətlərin aşkara çıxarılmasına xidmət edir və sözün müəyyən mənasında dəyərliliyə biganədir. Elmi idrakın dəyər səpkisi də nisbi müstəqildir, yənin o mövcud cəmiyyətin sosiomədəni mühitinin təsiri altında formalaşır, buradakı insanların dəyərlər oreyentasiyası və dəyər şüuru ilə sıx bağlıdır. İkinci istiqamət bilavasitə təbii elmi idrak prosesinin öz daxilində dəyərlərin iştirakını, yerini və rolunu ifadə eedir. Burada aşağıdakı məqam əsasdır: tədqiqatçı tərəfindən idrakda istifadə edilən metodoloji prinsiplərin, metodların və vasitələrin, özünün subyektiv keyfiyyətləri və dəyərlilik göstəricilərinə uyğun olaraq seçilməsi (bu məqam elmi idrakın bütün gedişi ərzində təsir göstərir). Üçüncü istiqamət, təbii elmi idrak prosesində həqiqi bilik almaq prosedurlarının (elmi fakt, hipotez, qanun, nəzəriyyə və sair), habelə alınmış elmi nəticələrin tərtibatında və ictimaiyyətə çatdırılması formalarında aşkara çıxır.

Hər bir dövrdə təbiət elmlərinin (fizika, kimya, geologiya, biologiya və s.) qazandığı uğurlar, dünyanın elmi mənzərəsini genişləndirir və təkmilləşdirir, lakin sonuncu anlayış fəlsəfənin təməlində duran dünyagörüşü problemi ilə ayrılmaz əlaqəlidir. Buna görə də hər hansı bir konkret təbiət elmində qazanılmış yeniliklər özündə həm də mühüm dünyagörüşü səpkisi kəsb edir. Onun məzmununda isə dəyər və dəyərlilik xüsusi yer tutur. Sözün ümumi mənasında dəyər və dəyərlilik dedikdə bu və ya digər obyektiv hadisələrin insanlarınn həyatı üçün əhəmiyyətliliyi başa düşülür. Dəyərləndirici (aksioloji) aspekti insanların həyat fəaliyyətinin bütün sahələrində, o cümlədən təbii-elmi biliklərdə özünü göstərir. Doğrudur, sonuncularda dəyərlilik, sosial idrakdan

fərqli olaraq bilavasitə və açıq səciyyə daşımır, lakin bu həmin idrak formasında dəyərlərin iştirak etmədiyi anlamına gəlməməlidir. Əslində idrakın bu sahəsində də aksioloji aspekt mühüm yer tutur.

Lakin o vasitəli (dolayı) xarakter kəsb edir və bir sıra mürəkkəb formalarda baş verir. Təbii elmi biliklərin nəticələrinin aksioloji aspektinin zəruriliyinin təməlində belə bir müddəa dayanır: təbii elmi idrakın təbiət hadisələri və proseslərinin mahiyyətini öyrənməsinə baxmayaraq, onun bu yönümdə əldə etdiyi uğurlar insan fəaliyyətinin səmərəli təşkilinə, bütövlükdə cəmiyyətin inkişafına xidmət edir. Bununla əlaqədar belə bir məqam xüsusi vurğulanmalıdır ki, insan və onun rifahı ən yüksək dəyər və ya özdəyər hesb olunur. Məhz o özünün çoxtərəfli və rəngarəng fəaliyyəti ilə bütün digər dəyərlərin qnosloloji (mənəvi, əxlaqi, estetik və s.) mərkəzində dayanır [7, s.231].

Təbii elmi biliklər müasir dünyada gedən universal meylin – insanlar və onların münasibətlərinin humanistləşməsi meylinin tərkib hissəsidir. Sözügedən meyil genişləndikcə ümumbəşəri dəyərlər sisteminin bərqərar olması sürətlənir, ictimai tərəqqidə şəxsiyyət amilinin rolu yüksəlir. Bu baxımdan dahi Eynşteynin aşağıdakı fikri diqqəti cəlb edir:

"Bəşəriyyətin tam haqqı vardır ki, mənəvi dəyərləri, elmi həqiqətlərin kəşfindən daha yüksək hesab etsin. [3, s.49]

**Təbii elmdə aksioloji tələblər**. Təbii elmdə aksioloji tələblərə əməl olunması zərurəti belə bir sadə həqiqətə əsaslanır: insan təbiətin ayrılmaz hissəsidir, buna görə də həmin sahədə qazanılan uğurlar yalnız o vaxt adekvat məzmun ala bilər ki, insanların tələbatlarını (o cümlədən də mənəvi) ödəsin, sosial normalara və tənzimləyicilərə əməl etsin. Beləliklə təbii elmi biliklərin inkişafı özü-özlüyündə əsas məqsəd hesab oluna bilməz. Onlar öz funksiyalarını yalnız sosiomədəni dəyərlər ilə vəhdətdə tam dolğunluğu ilə həyata keçirə bilərlər. Təbii elmi biliklərin əlahiddə və cəmiyyətdən asılı olmayan inkişafı, faydadan daha çox ziyan gətirir. Deyilənlər bir daha sübut edir ki, elmin tərəqqisi onun iqtisadi effektivliyinin yüksəlişi mütləq mənəvi dəyərlər sferasında da özünün müvafiq ifadəsinin tapmalıdır. Sözügedən iki tərəfin bir-birindən ayrı düşməsi, onlar arasında uyğunsuzluq insanın və cəmiyyətin maraqlarına tam ziddir.

Xüsusilə də indi beynin öyrənilməsi sahəsində aparılan elmi tədqiqatlar elə vasitələr kəşf etmişdir ki, onların tətbiqi ilə insan psixikasının və bütövlükdə bədəninin genetik təbii əsaslarını dəyişdirmək mümkündür. Bu münasibətdə müasir antropoloji böhran öz dağıdıcılığı və kəskinliliyi baxımdan digər qlobal sarsıntılarla bir sırada durur. Elmi biliklərin aksioloji səpkisi idrakda təsadüfi xarakter daşımır. O elmi biliyin predmet - ontoloji məzmununun qnoseloji ustanovkalarının və müqəddəm şərtlərinin, habelə onun nəticələrinin praktiki istifadə olunması proseslərinin ayrılmaz tərkib hissəsi kimi çıxış edir. Söhbət bilavasitə təbiət elmlərindən getdikdə isə sonuncu tərəfin rolu və əhəmiyyəti daha böyükdür. Bu onunla izah edilməlidir ki, sosial idrakda dəyərlik səpkisi əyani və aydın göründüyü halda təbiət elmlərində sözügedən problemin izahi xeyli çətinliklərlə bağlıdır. Ən ciddi çətinlik bundadır ki, çox vaxt belə yanlış

fikir irəli sürülür ki, təbiət elmlərinin əsas məqsədi cansız təbiətin və üzvi aləmin hadisə və proseslərini səciyyələndirən obyektiv qanunlar haqqında həqiqi biliklər verməkdir. Buna görə də guya sözügedən elmlərin nailiyyətlərinin dəyərlər baxımından mənalandırılmasına ehtiyac yoxdur.

Qeyd olunan yanaşma tamamilə səhvdir, çünki belə bir əsas məqamına diqqət yetirmir ki, hər cür elmi fəaliyyət müəyyən sosiomədəni mühitdə baş verir, sonuncu isə onun bütün tərəflərinə ciddi təsir göstərir. Unudulmamalıdır ki, elmin özü ümumi mədəniyyət sisteminin tərkibində fəaliyyət göstərən yarımsistem olduğundan, sonuncunun əsas dünyagörüşü və digər ustanovkalarının ciddi təsirinə məruz qalır. Bu münasibətdə Heqelin aşağıdakı fikri, bu gün də öz əhəmiyyətini itirməmişdir. O yazırdı ki, əsl "elmi nəzəriyyə ali rifah və ən yüksək xeyirxahlıq deməkdir" [2, s.428].

Təbii elmi biliklərin sosial həyata artmaqda olan təsirinin mühüm bir istiqaməti, onların məcmu nəticəsi kimi formalaşan dünyanın elmi mənzərəsi vasitəsilə baş verir. Daha dəqiq desək, hər bir dövrdə yaşayan insanların dünyagörüşü və dəyərlər sistemi bir çox cəhətdən onların dünyanın elmi mənzərəsi haqqında təsəvvürləri ilə şərtlənir. Bu iki tərəf arasında qarşılıqlı təsir mürəkkəb olub, həm bilavasitə, həm də (daha çox) vasitələnmiş formalarda çıxış edir. Sonuncu istiqamət buna görə mühümdir ki, o, mövcud cəmiyyətin mədəniyyətinin təməlində dayanan əsas dünyagörüşü strukturlarına təsirini əhatə edir (bu strukturlar sırasında elmi biliklərin aksioloji səpkisi xüsusi yer tutur). Təbii elmi bilikləri əldə etməyin idealı və normaları da aksioloji aspekti ilə bağlıdır.

Çünki onlar elmi fəaliyyətin məqsədi, ona nail olmağın üsulları və alınmış nəticələrin tətbiqi problemlərini əhatə edir. Sözügedən normalar və idealar yalnız bilavasitə elmi tətqiqatın gedişini, biliyin əldə olunması prosesini tənzim etməklə məhdudlaşmır. Onların çox mühüm tərəfini konkret tarixi mərhələdə elmin cəmiyyətdə rolunu, onun ictimai həyat baxımından dəyərliliyini ifadə edir, tədqiqatçıların aid olduqları birliklər daxilində, habelə onlar ilə bütövlükdə cəmiyyətin əlaqələrini tənzimləyir [8, s.29].

Fəlsəfi ədəbiyyatda nəzəri biliklərin idealının malik olduğu dəyərlər aşağıdakı kimi qruplaşdırılır: a) nəzəriyyənin dəqiqliyi (yəni onun nəticələri eksperiment və müşahidələrə uyğun olmalıdır b) ziddiyyətsizlik: c) nəzəri bilik nəticələrinin tətbiqi miqyasının genişliliyi c) elmi biliyin məhsuldar olması (yəni əvvəllərdə məlum olmayan yeni hadisələri və münasibətləri aşkara çıxarması.

Elmi biliklərin təsir altında formalaşan əsas dünyagörüşü universaliləri sırasında insanı fəaliyyət subyektiv kimi səciyyələndirən, onun digər insanlar ilə münasibətlərini, ünsiyyətini, bütövlükdə cəmiyyətə, onun məqsədlərinə münasibətini səciyyələndirən kateqoriyalar (əmək, şüur, xeyirxahlıq, borc, vicdan, ədalət, azadlıq və s.) xüsusi yer tutur [8, s.31].

Müasir dövrdə elmi inkişafının çox mühüm xüsusiyyəti onun praktika ilə əlaqələrinin möhkəmlənməsi, yəni elmi yeniliklərin qısa müddət ərzində real

həyatda tətbiq olunmasıdır. Qeyd olunan məqam sübut edir ki, konkret elmi kəşfin hansı təbiət obyektinə aid olmasından asılı olmayaraq, bu obyektlə bağlı insan fəaliyyətini nəzərə almalı, yəni insan ölçüləri ilə hesablaşmalıdır. Bu həm cansız təbiəti araşdıran elmlərə, həm də bioloji və təbabət elmlərinə aiddir. Çünki onlar hazırda o dərəcədə yüksək inkişaf səviyyəsinə malikdirlər ki, bu nailiyyətlərdən istifadə olunmasında dəyər və etik səpki nəzərə alınmazsa, bir tərəfdən, elmin də ayrılmaz tərkib hissəsi olduğu ümumi mədəniyyətin dərin tənəzzülü baş verər. Digər tərəfdən isə cəmiyyətin həyat fəaliyyəti böyük təhlükələrə düçar olar. Biologiya, genetika və təbabət elmləri insan sağlamlığı ilə bilavasitə bağlı olduğundan, bu sahələrdə baş verən kəşflərin aksioloji funksiyasının gücləndirilməsi daha zəruridir. Belə ki müasir bioloji idrakın nailiyyətləri, insan orqanizminə, onun ömrünə və irsiyyət mexanizminə güclü dəyişdirici təsir göstərmək iqtidarındadır.

Hətta insan genini, onun təbii əsaslarını ciddi surətdə dəyişdirə bilən süni üsullar mövcuddur. İnsanın irsiyyət mexanizminə mümkün olan dəyişdirici rol oynayan evgenika elmi genotiplərin seleksiyası yolu ilə misilsiz əqli və fiziki imkanlara malik nəslin yaradılması istiqamətində ciddi irəliləyişlər əldə etməkdədir. Əgər onların tətbiqində dəyər funksiyasının, etik səpkinin rolu gücləndirilməzsə, bəşəriyyət üçün böyük bədbəxtliklər qaçılmazdır. Bu fikir xüsusilə də müasir təbabətin müxtəlif bədən orqanlarının köçürülməsi və klonlaşdırılma ilə bağlı nailiyyətlərinə aiddir. Təsadüfi deyildir ki, ayrı-ayrı orqanların bir bədəndən digərinə köçürməyin hüdudları, onun nə dərəcədə etik xarakter daşıması həmin prosesdə sui istifadə hallarına yol verilməməsi və s. problemlər, təkcə elmi birliklər çərçivəsində deyil, həm də siyasi dairələrdə və ictimaiyyət arasında geniş müzakirə olunmaqdadır.

**Elmi-texniki inqilab və təbii-elmi biliklər**. Müasir elmi-texniki inqilabın, mikroelektronika, informatika, robot texnikası, gen mühəndisliyi, mikrobiologiya, biotexnologiya, genetika, təbabət və sair əsas sahələrində qazanılan fundamental nailiyyətlər təkcə, özlərinin konkret sahələrdə tətbiqində yaratdığı böyük yeniliklər ilə məhdudlaşmır. Onlar həm də mühüm sosial, hümanist və ümummədəniyyət əhəmiyyətli səpki alır. Başqa sözlə elmi nailiyyətlər özü-özlüyündə deyil, insanın və cəmiyyətin tələbatları və rifahının ödənilməsi meyarı ilə ölçülür. Bu müasir elmin humanistləşməsini əks etdirir və ifrat ssiyentizmə, texnokratik yanaşmalara qarşı durur. Söhbət heyrətamiz təbii-elmi kəşflərin ümumi hümanist mədəniyyət sisteminə daxil edilməsindən, yəni elmi tədqiqatların nəticələrinin dünyagörüşü və etik tələblər ilə düzgün əlaqələndirilməsindən gedir.

Deyilənlərin doğruluğunu müasir biologiyanın (xüsusilə də onun molekulyar və genetika sahələrinin) və təbabətin çox mühüm olan klonlaşdırmanın nümunəsində aydın görmək mümkündür. Klonlaşdırma özünün müsbət cəhətlərinə (qəzaya düşən adamın orqanlarının dəyişdirilməsi, xəstə daxili orqanların əvəzlənməsi, sonsuzluğun aradan qaldırılması və sair) baxmayaraq, sosial-etik baxımdan müəyyən problemlər də doğurur. Xüsusilə embrion

dövründə hüceyrələrinin klonlaşdırılması, insan orqanizminin təbii inkişafına ciddi zərbə vurur və canlı həyatın müqəddəsliyi prinsipinə ziddir. Buna görə klonlaşdırmanın müsbət və mənfi nəticələri müxtəlif dairələrdə geniş müzakirə olunmaqdadır. ABŞ Konqresi 2003-cü ildə klonlaşdırma və bədən hüceyrələrinin köçürülməsi yolu ilə insanlar əmələ gətirməyi qadağan edən qanun qəbul etmişdir [3, c.245].

Təbii-elmi idrakın nəticəsi olan obyektin həqiqətin daxili məzmununda ontoloji və praksioloji səpki ilə yanaşı aksioloji dəyər səpkisi də mühüm yer tutur. Səciyyəvi cəhət həm də burasıdır ki, elmi idrak inkişaf etdikcə, sonuncunun xüsusi çəkisi və rolu durmadan artır. Bu meyli şərtləndirən amillər sırasında ümumilikdə idrakın hümanistləşməsi meyli öndə durur.

Elmi idrakda dəyər məzmunun artmasına həm də onun aşağıdakı səciyyəvi cəhəti mühüm təsir göstərir. Dəyərlər öz mahiyyəti etibarilə insan varlığının real və arzu olunan, mövcud olan və olmalı olan bütün tərəflərinin qovşağında yerləşir [4, s.117].

**Təbii-elmi idrak və etika**. Təbii idrakın aksioloji səpkisi, elmin etikası anlayışına gətirib çıxarır. Sonuncu məsələnin məğzi bundan ibarətdir ki, təbii elmi idrak sahəsində məşğul olan tədqiqatçılar qarşısında müəyyən etik normalar və tələblər irəli sürülür. Bu o deməkdir ki, təbii-elmi kəşflərin yalnız elmi baxımdan qiymətləndirmək doğru deyildir. Onların hər biri ayrılıqda və hamısı birlikdə sosiomədəni mühüt və etik baxımdan qiymətləndirilməlidir. Müasir elmi-texniki tərəqqini ifadə edən biliklərin əzmi və məzmununun misli görünməmiş sürətlə artdığı indiki şəraitdə, idrakın aksioloji aspekti həmişə olduğundan daha kəskin şəkildə qarşıda durur. Belə ki, təbii elmi nailiyyətlərdən sui istifadə edilməsi, burada etik normalara məhəl qoyulamaması insanlıq bəşəriyyət üçün qarşısı alınmaz dərin fəlakətlər törədə bilir.

Müasir elmin inkişafında aksioloji, etik səpkinin rolunun artması öz ifadəsini həm də bunda tapır ki, ayrı-ayrı elmlər ilə etikanın qovuşuğunda yerləşən yeni elm sahələri, (bioetika, tibbi etika və s.) meydana gəlib inkişaf etməkdədir. Son dövrlərdə elmin etikası, xüsusilə də bioetika geniş inkişaf etməkdədir. Bu elmlər elmi layihələri və onların nəticələrini qiymətləndirməyin və tənzim etməyin real vasitələri rolunu oynayır. Onların əsas fəaliyyət istiqaməti texniki, molekulyar biologiya, genetika və biotibbi tədqiqatların etik səpkisini araşdırmaqdır. Səciyyəvi cəhət həmdə budur ki, sözügedən elmi fəaliyyət sahələri milli çərçivələri daxilində məhdudlaşmır, beynəlxalq və qlobal miqyas kəşf edir. Buna nümunə kimi YUNESKO-nun vbə Avropa şurasının nəzdində yaradılmış elmin etikasına dair komitələri göstərmək olar [5, s.183].

Təbii-elmi biliklərin aksioloji səpkisini mənalandırarkən etik relyatizm və etik nihilizm yönümlü baxışlara da diqqət yetirilməlidir. Birinci elmin obyektivliyini tam inkar edir, onu etik prinsiplərə qurban verir və nəticədə elmin inkişafına ciddi əngəl törədir. Eləcə də ikinci mövqe birtətəfli və yalnışdır, çünki elmdə heç bir etik tərəfə ehtiyac olmadığını iddia edir və ifrat ssiyentizm

mövqeyini təbliğ edir.

Elmin ümumi mədəniyyət dəyərlərinə təsirinin nəzərə alınması, mühüm dünyagörüşü və metodoloji əhəmiyyət kəsb edir. Əlbətdə elmi həqiqətlərin sosiomədəni rakursda anlaşılması onların obyektivliyini inkar etmir. Əksinə elmi nailiyyətlərin daha dərindən mənalandırılması zəruriyyətini ifadə edir, yəni belə bir məqamı vurğulayır ki, elmi bilik sosiomədəni hadisədir (fenomendir), idrak prosesini həyata keçirən sosial subyektin fəaliyyətinin məhsuludur. Buna görə də istənilən təbii-elmi nailiyyətin obyektivlik keyfiyyəti ilə yanaşı onun sosiomədəni və dəyər xassəsi də nəzərə alınmalıdır.

Təbii elmi biliklərin antropoloji ölçüləri sırasında tədqiqatçının həyat aləmi, onun koqnitiv və sosial davranışı, məsuliyyəti, öz fəaliyyətinin professional və ictimai mənasını anlama səviyyəsi və dəyərlər motivasiyası da çox mühüm yer tutur. Buna görə də yuxarıda sadalanan tərəflərin vəhdətdə götürülməsi, təbiət elmlərinin mövcudluğu və inkişafı qanunauyğunluqlarını hərtərəfli və dərindən anlamağın zəruri şərtidir. Digər elmlərdə olduğu kimi, təbii-elmi biliklərin daxili məntiqi, mövcud cəmiyyətin dəyərlər sisteminə qovuşmuş vəziyyətdə çıxış edir. Bu hal, müvafiq fəaliyyət sahəsindəki rasionallıq standartlarında da öz ifadəsini tapır [2, s.47].

XX əsrin II yarısından təbii-elmi elmlərin inkişafında dönüş nöqtəsini ifadə edən yeni meyillər və qanunauyğunluqlar, burada aksioloji səpkiyə xüsusi diqqət yetirməyən zəruriliyini irəli sürdü. Bununla əlaqədar bilavasitə elmi fəaliyyət göstərən tədqiqatçının sosial məsuliyyətli problemi meydana çıxır. O, elmin böyük qüvvə olduğunu anlamaqla və onun yeni zirvələrini fəth etməyə cəhd göstərməklə yanaşı, həm də aldığı nəticələrin cəmiyyət üçün törədə biləcəyi təhlükələri də nəzərə almalıdır. Həm də bu barədə geniş ictimaiyyətə müvafiq açıqlama verməyə borcludur. Belə bir məqamı diqqət mərkəzində saxlamalıdır ki, hansı elmi kəşflərin və texniki layihələrin və qərarların reallaşması cəmiyyət, onun mənəviyyatı baxımından məqbul hesab olunur. Həm də nəzərə alınmalıdır ki, XX əsrin ikinci yarısından başlayaraq dəyərlərin dərin yenidən mənalaşdırılması meyli özünü göstərməkdədir. Onu şərtləndirən amillər sırasında postindustrial cəmiyyətdə komputer texnikasının rolunun artması, ekoloji böhran, özgələşmənin müxtəlif formaları başlıca yer tutur. Dəyərlərin yenidən mənalaşdırılması və qiymətləndirilməsi öz əhatə dairəsinə görə çox genişdir. Bu proses faktiki olaraq müasir insanın ölkə daxilində mövcud olan iqtisadi, siyasi strukturların fəaliyyəti, habelə beynəlxalq miqyasda gedən dərin proseslər haqqında ənənəvi təsəvvürlərin əsaslə surətdə dəyişdirilməsi və yeniləşdirilməsi deməkdir [1, s.128].

**Müasir dövrdə elm və dəyərlər**. Müasir dövrdə dəyərlərin yenidən mənalaşdırılmasının müsbət cəhətləri ilə yanaşı, neqativ yönümləri də nəzərə alınmalıdır. Belə ki, hazırda qərarlaşmış bazar iqtisadiyyatı və münasibətləri cəmiyyətinin dəyərlərində və qiymətləndirmədə də ciddi dəyişikliklər yaradır. Sonuncuların bir əsas istiqaməti odur ki, bazar tipli şəxsiyyət formalaşır, onun başlıca məqsədi mümkün qədər çox gəlir əldə etməkdir. İnsanın hər cür həyat

fəaliyyəti formaları, bu məqsədin reallaşmasına xidmət etdikdə, mənəvi dəyərlər arxa plana keçir və maksimum fayda götürməyə xidmət edir.

Bəzən belə bir fikrə rast gəlinir ki, təbiət elmləri gerçəklik haqqında obyektiv biliklərin əldə olunmasına xidmət edir. Buna görə də onlarda dəyərlilik səpkisi, xeyir və şər ölçüləri tətbiq olunmamalıdır. Bu qəbildən olan baxışlar buna görə də yanlışdırlar ki, sırf elmi və aksioloji aspektləri bir-birinə qarşı qoyur, onlar arasında mövcud olan fərqləri mütləqləşdirirlər.

**Nəticə və qaənaətlər**. Təbii elmi bitkilərin dəyər səpkisini mənalandırarkən aşağıdakı məqama da diqqət yetirilməlidir. Bəzən müasir dövrdə bəşəriyyətin üzləşdiyi bütün problemlərin, ekoloji böhranın kəskinləşməsi, iqtisadi inkişaf səviyyəsində qeyri-bərabərlik, özgələşmənin artması, mənəvi dəyərlərin arxa plana keçməsi və sair əsas günahını yalnız elmin və texnikanın inkişafında görmək doğru deyildir. Əlbəttə, elmi naliyyətlərin hərbi məqsədləri üçün istifadə olunması, təbiətin israfçasına istismar olunması, elmi kəşflərdən daha çox gəlir əldə etmək naminə istifadə edilməsi günümüzün reallıqlarıdır, onları danmaq cəfəngiyyatdır.

Lakin bu qəbilədən olan faktlara əsaslanmaqla, cəmiyyətin mənəviyyatında sosiomədəni mühitdə, mənəvi sferada özünü göstərən tənəzzül üçün məsuliyyəti elmin inkişafı üzərinə qoymaq absurddur. Çünki əsas məsələ elmi və texniki kəşflərin özündə deyil, onlardan cəmiyyətdə hansı məqsədlər üçün istifadə olunmasındadır. Eyni bir elmi naliyyət həm cəmiyyətin tərəqqisi və rifahı naminə istifadə oluna bilər, həm də onun varlığı üçün dərin fəlakətlər yarada bilir. Deyilənlər sübut edir ki, təbii-elmi biliklərin aksioloji səpkisinin məhəl qoymamaq və ya onu lazimi səviyyədə qiymətləndirrmək insanların dünya görüşündə ssiyentik xarakterli əyinti yaradır bu isə nəticə etibarı ilə insanların mənəvi və fiziki tənəzzülünü şərtləndirir. Təbiətşünaslığın əvvəlki tarixi mərhələlərində bu problem o qədər də qabarıq görünmürdü, indi isə vəziyyət çox dəyişilmişdi. Bir tərəfdən təbiətin öyrənilməsində elə böyük naliyyətlər əldə edilmişdir ki, onların dünyagörüşü və dəyərləri ilə uzlaşdırmaq zərurət halını alır, əks təqdirdə elmi tərəqqi cəmiyyətin inkişafına kömək etməkdənsə onun üçün ciddi problemlər və təhlükələr törədir.

Hazırda dünya birliyi ölkələri insanlarının beynində yeni təfəkkür-planetar şüür formalaşmaqdadır. Onun başlıca səciyyəvi cəhətini, bəşəriyyətin inkişafının elmi əsasları ilə ekoloji, hümanitar dəyərlərin vəhdətdə götürülməsi təşkil edir. Bu yeni təfəkkür insanlarda möhkəmləndikcə və kütləvi miqyas aldıqca, elmi idrakın naliyyətlərindən şəxsiyyətin mənəvi keyfiyyətləri və dəyərləri naminə istifadə olunması səviyyəsi də yüksələcəkdir. Bu prosesdə cəmiyyətin hərəkətli davamlı inkişafı strategiyası tələblərinin reallaşdırılması müstəsna əhəmiyyətə malikdir.

Təbii-elmi biliklərin aksioloji səpkisi nə isə mücərrəd və sxematik məzmun daşımır. O konkret cəmiyyətdə fəaliyyət göstərən sosial siyasi iqtisadi, ideoloji və mədəni amillər və dəyərlər ilə ayrılmaz əlaqədə özünü göstərir. Belə yanaşma tam obyektivdir və elmi geniş mənada, sosial əhəmiyyətlilik

baxımından dəyərləndirir. Sözügeden mövqe həm də buna görə diqqəti cəlb edir ki, o tədqiqatçının elmi axtarışlar azadlığı ilə sosial məsuliyyətini vəhdətdə götürür.

## ƏDƏBİYYAT


1. Алексеев П.В. Социальная философия. М.: Акад. Проспект, 2005. – 256 с.
2. Белов В.Т. Ценностное измерение науки. М.: Наука. 2001. – 382 с.
3. Гегель Г. Философия права. М.: Мысль, 1999. – 489 с.
4. Голубинцев В.О., Даниель А.А.. Философия науки. Ростов Н/Д. Феникс 2007. – 541 с.
5. Ильин В.В. Философия. Академический проспект 42. М. 1999, 412 с.
6. Лебедев С.А. Философия науки. М.: Юрайт, 2012. – 288 с.
7. Философия /под редакцией В.П. Кохановского/ М.: Кнорус, 2014. – 368 с.
8. Степин В.С. Теоретическое знание. М.: Наука, 2000. – 725 с.


## АКСИОЛОГИЧЕСКИЕ АСПЕКТЫ ЕСТЕСТВЕННО- НАУЧНЫХ ЗНАНИЙ

**З.Дж.ГАДЖИЕВ**

## РЕЗЮМЕ

Аксиологический аспект современного естественнонаучного знания требует особого внимания к следующему. Прежде всего, следует отметить, что созданное на основе новых открытий оружие массового уничтожения считается большой угрозой существованию человечества как универсальной ценности. С другой стороны, эскалация глобальных экологических конфликтов доказывает необоснованность старой научной парадигмы, которая рассматривала природу как неиссякаемый источник человеческой деятельности. Становится все более очевидным, что чрезвычайно важно разработать и реализовать стратегию неразрывного единства общества и природы в системе общих ценностей человечества. Наконец, следует иметь в виду, что развитие научного знания часто приводит к усилению кризиса и отчужденности в деятельности современного человека как биосоциального существа. Научные достижения и культура в целом открывают столько возможностей для манипулирования сознанием индивида, что человек теряет способность интерпретировать истинную природу своего существа. В результате нарастания различных психических напряжений и отрицательных эмоций генетическая основа индивидуального существования человека как личности оказывается под угрозой, и в его психике в целом возникают серьезные нарушения, последствия которых неизвестны.

**Ключевые слова:** естественнонаучное знание, аксиология, моральные ценности, человеческое поведение, глобальные процессы.

## AXIOLOGICAL ASPECTS OF NATURAL SCIENTIFIC KNOWLEDGE

**Z.J.HAJIYEV**

## SUMMARY

The axiological aspect of modern natural science knowledge requires special attention to the following. First of all, it should be noted that weapons of mass destruction created on the basis of new discoveries are considered a great threat to the existence of humanity as a

universal value. On the other hand, the escalation of global environmental conflicts proves the groundlessness of the old scientific paradigm, which considered nature as an inexhaustible source of human activity. It becomes more and more obvious that it is extremely important to develop and implement a strategy for the inseparable unity of society and nature in the system of common values of mankind. Finally, it should be borne in mind that the development of scientific knowledge often leads to an intensification of the crisis and alienation in the activities of modern man as a biosocial being. Scientific achievements and culture as a whole open up so many opportunities for manipulating the consciousness of an individual that a person loses the ability to interpret the true nature of his being. As a result of the growth of various mental tensions and negative emotions, the genetic basis of the individual existence of a person as a person is under threat, and serious disorders arise in his psyche as a whole, the consequences of which are unknown.

**Keywords**: natural science knowledge, axiology, moral values, human behavior, global processes.

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№3* *Sosial-siyasi elmlər seriyası* *2020*

**UOT 02.41**
**https://orcid.org/0000-0003-4827-59-62**

# LEV QUMİLYOVUN PASSİONARLIQ NƏZƏRİYYƏSİ

**N.İ.KƏRİMOVA**
***Bakı Dövlət Universiteti***
***kerimova.nezaket@gmail.com***

*Lev Nikolayeviç Qumilyov passionarlıq konsepsiyasının banisi olmuşdur. O, bu konsepsiyada etnogenezin inkişaf mexanizmi və strukturu, onun tərkib elementi olan passionarlıq haqqında bir sıra fərziyyələr irəli sürmüşdür. Onun fikrincə, etnogenez təkcə etnik tarixin başlanğıc mərhələsi olmayıb, öz inkişafında yaranma, oyanma, tənəzzül və etnosun məhvi kimi dörd mərhələni ehtiva edən bir proses kimi çıxış edir.*

*L.N.Qumilyov etnosların yaranmasına səbəb olan amilləri yer planetindən kənarda axtarmış, onu kosmosdan gələn energetik təkanlarla əlaqələndirmişdir. Alimin fikrincə, planetimizin kosmosdan aldığı külli miqdarda enerji yalnız biosferin tarazlığını qoruyub saxlamağa sərf olunmur, həm də etnosun meydana gəlməsinə səbəb olan passionar təkanlar yaradır.*

*Passionar təkanlar zonası dar bir zolaq təşkil etməklə nadir hallarda - 2-3 min ildən bir meydana gəlir, heç bir vaxt eyni əraziyə düşmür və onun təsiriilə bütöv bir etnosun qəfil aktivləşməsi baş verir. Kosmik enerjidən asılı olaraq yaranan bu təkanlar bu və ya digər xalqın etnogenezinə başlanğıc verir. Özünü sosial hadisə kimi yox, biosfer hadisəsi kimi göstərən etnogenezin bütün tsikli - etnososial sistemin formalaşması anından etnosun reliktə çevrilməsinə qədər olan dövrü -təxminən 1200 il davam edir.*

*Qumilyov passionarlığı şüurun əlaməti kimi götürməmiş, onu şüuraltının atributu hesab etmişdir. O, passionarlığa etnik substratların yeni kombinasiyalarını həyata səsləyən mühüm irsi əlamət kimi yüksək qiymət vermişdir. Alimin fikrincə, anadangəlmə keyfiyyət hesab edilən passionarlığa nə tərbiyə, nə də təhsillə nail olmaq mümkündür. Belə insanlarda passionar impuls özünüqoruma instinktindən yüksək olur: onlar daim ətraf aləmi dəyişdirməyə can atır, xalqın azadlığı uğrunda mübarizə aparır, yeni dəyərlər sistemi, dini cərəyan və inqilabi elmi nəzəriyyələr yaradırlar.*

*Passionarlığın sirayətedici təsirə malik olduğunu qeyd edən Qumilyova görə, belə insanlar passionar induksiya vasitəsilə yaxınlığındakı digər insanlara yüksək enerji ötürə bilirlər. 100 kilometrdən uzaqda olduqda isə bu təsir öz qüvvəsini ititrir.*

**Açar sözlər:** etnogenez, etnik tarix, etnik sahə, davranış stereotipi, biosfer, kosmik enerji, passionar təkan, passionarlıq, passionar induksiya, subpassionarlıq.

**Problemin aktuallığı.** Uzun əsrlər boyu mütəfəkkirləri bu suallar düşündürmüşdür: nəyə görə ictimai həyatın bir çox sahələrində insanlar bir-birinə bənzədiyi halda həm də fərqlənirlər? Konkret bir şəxsin formalaşması nələrdən

asılıdır? İnsanın gen səviyyəsində nələr gizlənmişdir? Ünsiyyət və yaşayış mühitinin təsiri altında nələr meydana gəlir? İnsanın təkrarolunmaz daxili aləminin formalaşmasına təsir göstərən bu və ya digər amilləri müxtəlif tədqiqatçılar (Çezare Lombrozo, Ziqmund Freyd, A.Maslou və başqaları) öz peşə praktikasına, müşahidə və eksperimentlərinə istinad etməklə izah etməyə çalışmış, bir sıra fərziyyələr irəli sürmüş və onları sübuta yetirməyə cəhd göstərmişlər. Belə mütəfəkkirlərdən biri də Lev Nikolayeviç Qumilyov olmuşdur. Etnogenezin inkişaf mexanizmi və strukturu, onun tərkib elementi olan passionarlıq haqqında irəli sürdüyü hipotez təkcə müasirləri tərəfindən birmənalı şəkildə qarşılanmamış, həm də çağdaş dövr tədqiqatçılarının ciddi müzakirə mövzusu olaraq öz aktuallığını bu gün də itirməmişdir.

**Problemin işlənmə dərəcəsi**. Görkəmli sovet etnoqrafı, professor Rudolf Ferdinandoviç Lev Qumilyovun "Etnogenez və yerin biosferi" adlı əsərinə yazdığı ön sözdə deyir: "Lev Qumilyov adi bir elm adamı, coğrafiya və tarix elmləri doktoru deyil. O, həm də keçmişinə dair dərin biliyə malik olmadığımız Yer planeti haqqında söhbət açan maraqlı müəlliflərdən biridir. Qədim etnoslar olan - hunlar, türklər, xəzərlər və monqollardan danışdıqdan sonra alim planetin etnik simasınının inkişafını izah edən qlobal konsepsiya işləyib hazırlamaq zərurətini dərk etmişdir" [3, 3].

Etnos və etnogenez problemlərinin sovet alimləri tərəfindən çoxdan araşdırıldığını, hətta sovet etnoqrafiya məktəbinin ümumi konsepsiyasının mövcud olduğunu bildirən Y.V.Bromley isə L.Qumilyovu kəskin tənqid edən alimlərdən biri olmuşdur. O, 1973-cü ildə çap olunan "Etnos və etnoqrafiya" adlı əsərində yazırdı: "Etnos problemi müxtəlif alimlər tərəfindən tədqiq olunsa da, L.Qumilyovun yaratdığı etnogenez konsepsiyası özünəməxsusluğu ilə seçilir. Lakin buna baxmayaraq, mən elə bir sovet etnoqrafı tanımıram ki, o, bu konsepsiyanı qəbul eləsin" [2, 45].

Y.V.Bromley fikirlərində qismən haqlı idi: çünki Qumilyov etnogenezi etnoqrafiyada qəbul edildiyi kimi, yalnız etnik tarixin başlanğıc mərhələsi kimi yox, öz inkişafında yaranma, oyanma, tənəzzül və etnosun məhvi kimi dörd mərhələni ehtiva edən bir proses şəklində nəzərdən keçirirdi. Müəllif bu dörd mərhələli inkişafın ümumi xarakter daşıdığını, həm təbiət, həm də (bu və ya digər ərazidə hökmranlıq edən ictimai-iqtisadi formasiyadan asılı olmayaraq) tarix üçün səciyyəvi olduğunu qeyd edirdi.

**Tədqiqatın məqsəd və vəzifələri**. Məqalədə L.N.Qumilyovun etnogenez konsepsiyasında təbiət-cəmiyyət qarşılıqlı təsiri, bu qarşılıqlı təsir prosesində etnosun və etnik sistemlərin rolu məsələsi araşdırılır, etnogenez konsepsiyasının sosial-fəlsəfi aspektlərinin öyrənilməsinə diqqət yetirilir.

**Məqalədə qarşıya qoyulan əsas vəzifələrdən** biri etnogenez prosesinin mahiyyətini, mexanizmini, inkişaf mərhələlərini, onu hərəkətə gətirən səbəbləri aşkara çıxarmaqdan ibarətdir.

**Tədqiqatın metodları və konsepsiyası**. Məqalənin işlənib hazırlanmasında başlıca tədqiqat metodologiyası kimi fənlərarası yanaşma və tarixi-

müqayisəli metoddan istifadə edilmişdir. L.N.Qumilyovun etnogenezin passionar nəzəriyyəsi bir neçə elmin qovşağında – tarix, etnologiya, coğrafiya, biologiya, fizika, fəlsəfə - yazıldığından onun tədqiqi fənlərarası yanaşma tələb edir. L.Qumilyovun etnogenez nəzəriyyəsinin ideya mənbələrini üzə çıxarmaq, dünya fəlsəfi fikrində tarixə dair müxtəlif konsepsiyalarla onu müqayisə etmək tarixi müqayisəli metoddan istifadə zərurətini yaratmışdır.

**Etnik tarix nədir?**

Qumiyova görə, etnik tarix diskretdir, yəni müəyyən fasiləliyə malikdir. Tarixi prosesin diskretliyi haqqında bəzi fikir və ideyalara qədim dövr filosoflarının, o cümlədən İbn-Xəldun və Cambatisto Vikonun yaradıcılığında rast gəlinsə də, Qumilyov bu müəlliflərlə razılaşmır, bildirirdi ki, son heç də həmişə başlanğıc demək deyil. Etnoslar və superetnik mədəniyyətlər əvvəlki inkişaf tsiklini başa çatdıran kimi yenisi ilə əvəz olunmurlar. Bəzən bir mərhələnin, C. Vikonun təbirincə deyilsə, spiralın bir burumunun başa çatmasından dərhal sonra yeni yaranmır, onun meydana gəlməsi üçün uzun zaman fasiləsi tələb olunur.

Alimin fikrincə, etnogenez etnosların inkişaf tarixindən ibarət deyil, əksinə ayrı-ayrı etnosların landşaftın tarixi və mədəni tarixlə əlaqəsindən yaranan tarixidir. O, etnos haqqında məlum tezisi, yəni – etnosun formalaşmasında dilin və sosial amillərin əsas rol oynaması fikrini bir kənara ataraq bəyan edirdi ki, etnos biosferin substansiyasıdır. Başqa sözlə, o, öz fərziyyəsində etnosların yaranma və inkişafını tarixi və coğrafi mühit amilləri ilə təhlil edirdi. Qumilyova görə, xalqların tarixini öyrənmək üçün onların yaşadığı ərazilərin iqlimini və təbiətini təsvir etməkdən başlamaq lazımdır.

**Etnogenez partlayışları**

Bəs etnogenezə təkan verən energetik resusrslar hansılardır? Qumilyovun fikrincə, bu enerjinin xüsusi növü olan passionarlıqdır. Bütöv bir etnosun qəfil aktivləşməsi passionar təkanlarla bağlıdır. Passionar təkanlar kosmik enerjidən asılı olaraq yaranır. Bu təkanlar bu və ya digər xalqın etnogenezinə başlanğıc verir və özünü sosial hadisə kimi yox, biosfer hadisəsi kimi göstərir.

Passionarlıq etnogenezin əsas impulsu sayılır. Bu anlayışın izahını verərkən alim fikrini fiziki dillə ifadə edir: “Passionarlıq mühitin aqreqat vəziyyətinin ətalətini pozmağa yönələn enerjidir” [3, 250]. Onun fikrincə, passionarlıq impulsu o qədər güclü olur ki, bu əlamətin daşıyıcıları olan passionar şəxsiyyətlər öz hərəkətlərinin nə ilə nəticələnəcəyini irəlicədən müəyyən edə bilmirlər.

Qumilyov hesab edir ki, etnogenez partlayışlarının, yaxud passionar təkanların arealı Yerin müəyyən bir bölgəsi ilə qətiyyən əlaqəli deyil. Passionar təkanlar zonası çox dar bir zolaq təşkil edir, eni təxminən 300 km en dairəsi istiqamətində və planetin 0,5 çevrəsini əhatə edir. Bu zolaqlar geodezik xətlərə bənzəyir. Təkanlar nadir hallarda 2-3 min ildən bir yaranır və demək olar ki, eyni bir yerə düşmür [3, 207].

Passionar təkanların qeyri-yer mənşəli olduğunu bildirən alimin fikrincə,

bu energetik təkanlar (zərbələr) Günəşdən yox, Qalaktikanın yayılmış enerjisindən yaranır. Alim passionar təkanın yeganə mənbəyini kosmik şüalanma ilə deyil, həm də yaxın kosmosla əlaqələndirir. Yaxın kosmosun yerüstü hadisələrə təsirinin hamıya bəlli olduğunu bildirən mütəfəkkir Ayın okeanlarda qabarmalara, günəşin aktivliyinin virusların mutasiyasına və onunla əlaqədar olaraq epidemiyaların yayılmasına səbəb olduğu faktlarını mistika yox, coğrafiya adlandırır. Onun fikrincə, planetimizin ətraf mühitinə kənar təsirləri inkar etmək üçün heç kim tutarlı dəlil gətirə bilməz. Bəs belə olduğu halda, nə üçün hansısa kosmik şüaların antroposferaya təsiri hipotezasını sübut etmək mümkün olmasın?

Mütəfəkir əminliklə bəyan edir ki, eramızdan əvvəl I minillkidə iki təkan baş vermişdir: VIII əsrdə Akvitaniyadan Hindistana qədər və III əsrdə müasir Monqolustan çöllərindən Qazaxıstana qədər. Onun fikrincə, bir təkan bir neçə yüksək passionarlıq ocaqları yarada bilir. Bizim eranın VI əsrində yeni bir passionar təkan, yaxud partlayış baş vermişdir: bu partlayışların təsiri ilə Ərəbistan yarmadası, Hind vadisi, Cənubi Tibet, Şimali Çin və Mərkəzi Yaponiyada hər birinin özünəməxsus stereotipi və mədəniyyəti olan həmyaşıd etnoslar meydana gəlmişdir. Onların qonşuları – Bizans, İran, Böyük çöl etnosları, XII əsrdə isə çjurçjuen və monqollar yaranmışdır ki, onlar yuxarıda adları çəkilən etnosların hamısından cavan hesab edilir. Qumilyovun fikrincə, passionar təkanın baş verməsi anından onun tamamilə sönməsinə qədər olan ətalətli vəziyyəti min ildən çox müddəti əhatə edir.

**Landşaft və etnos**

Qumilyovun fikrincə, elmdə etnosun yaranma tarixi haqqında dəqiq məlumat yoxdur. Məlum olan odur ki, alt paleolit haqqında son dərəcə az, üst paleolitə dair son dərəcə çox şey bilirik: "Üst paleolit insanının yaxşı ovçu olduğu, heyvan dərisindən paltar geyindiyi və Paris imperesionistlərindən heç də pis rəsm çəkmədikləri hamıya məlumdur" [5, 27]. O, sonrakı neolit və tunc dövrlərini (b.e.ə. III-II minilliklər) tarixi dövr adlandırır.

Etnogenezin mənbəyini yer planetindən kənarda axtaran müəllif yazır ki, planetimiz kosmosdan külli miqdarda enerji alır, özü də bu enerji təkcə biosferin tarazlığını qoruyub saxlamaq üçün sərf olunmur, həm də etnosun meydana gəlməsinə səbəb olan passionar partlayışlar yaradır: "Kənardan təsir edilmiş bir şar təsəvvür edin. Əvvəlcə təkanın enerjisi onun sakit ətalətinə qalib gələrək şarı hərəkətə gətirəcək. Müəyyən müddətdən sonra mühitin təsiri ilə şar dayanacaq. İnsan da biosferdən daim bu cür impulslar, təkanlar alır" [5, 38].

Alimin fikrincə, etnosların formalaşmasını və onların sonrakı tamlığını biosferin geokimyəvi enerjisi təmin edir. Landşaft etnosun özünü formlaşdıran başlıca faktor kimi çıxış edir. Hər bir etnos aktiv təsərrüfat fəaliyyəti sayəsində təbii mühitlə qarşılıqlı əlaqədə olur, relyefə, mühitin xarakterinə uyğunlaşmaqla öz qaydalarını yaradır. Etnosun təsərrüfat fəaliyyəti iki istiqamətdə - ya mühitə uyğunlaşma, ya da mühiti özünə uyğunlaşdırma yolu ilə həyata keçirilir [6, 58]. İstiqamətinə və xarakterinə görə etnogenez prosesi oxşar olsa

da, etnoslar fərqli və təkrarsızdır. Gerçəklikdə etnoslar arasında müşahidə etdiyimiz müxtəlifliklərin yaranmasına bir çox amillər - landşaft, iqlim şəraiti, etnik qonşuluq, mədəni ənənə, həm də passionar təkanın təsir qüvvəsi səbəb olur.

Əgər etnoslar "sosial kateqoriya" olsaydı, o zaman onlar oxşar sosial şətrlərdə meydana gələrdilər. Həqiqətdə isə etnogenezin başlanğıc anını sırf faktiki materiallar əsasında izləsək, görərik ki, o ya meredian, ya paralel üzrə, həmişə tam bir zolaq kimi yerləşir. Landıaftın xarakterindən və əhalinin məşğuliyyətindən asılı olmayaraq məhz bu zolaqda qəfildən etnik yenidənqurma - qədim etnosun substratları ilə yeni etnosun qaynayıb qarışması baş verir. Köhnə etnos tamamilə əriyir, yeni isə son dərəcə aktiv şəkildə inkişaf edir. Bu zolaqla yanaşı yerləşən, onun yaxınlığında olan etnoslarda tam sakitlik hökm sürür. Özlüyündə sakit olan bu etnoslar qeyri-sakit qonşularının qurbanına çevrilirlər. Etnogenez hər dəfə yeni bir regionda yaranır.

**Etnos sistem kimi**

Qumilyovun fikrincə, bütün etnoslar etnosdaxili təkamül prosesindən keçirlər. İstənilən etnos iyerarxiyalı inkişafa malikdir, yəni super etnos özünə bir neçə etnosu, etnos isə subetnos və konsorsiyaları birləşdirir. Etnosfera piramidasının bünövrəsində konsorsiya və konviksiya dayanır, başqa sözlə, etnosların meydana gəlməsi və inkişafı konsorsiya və konviksiyadan başlayır.

Konsorsiya dedikdə ümumi tarixi keçmişə malik insan qruplarının müvəqqəti birliyi başa düşülür. Bu kateqoriyaya dayanıqsız qruplar («dərnəklər», artellər, sektalar, bandalar və cinayətkar qruplar) daxil edilir. Adından da göründüyü kimi, qeyri-sabit olan bu qruplar çox zaman dağılır, bəzən isə öz mövcudluqlarını bir neçə nəsil qoruyub saxlaya bilirlər. Növbəti mərhələyə adlayıb keçə bilən qrupları Qumilyov konviksiya adlandırır.

Konviksiya dedikdə, alim eyni xarakterli ailə və məişət əlaqələrinə malik insan qruplarını nəzərdə tutur. O, buna misal olaraq Amerikada ilk koloniyanı konviksiyaya çevrmiş ingilis konsorsiyasını göstərir. Sağ qalmış konviksiyalar isə superetnoslar kimi böyüyür.

Superetnoslar müəyyən bir regionda meydana gələn, iqtisadi, ideoloji və siyasi münasibətlər baxımından bir-biri ilə qarşılıqlı münasibətdə olan etnoslar qrupudur. Bəzən onlar arasında hərbi toqquşmalar baş versə də, superetnik səviyyədə işğalçı müharibələr zamanı (məsələn, XIV-XIX əsrlərdə Amerika aborigenləri ilə avropalılar arasında gedən mübarizə) superetnosun daxilində gedən müharibə kompromislə əvəzlənir və ümumi düşmənə qarşı ittifaq yaranır (işğalçıya qarşı İspaniya ərəblərinin Ömərin yaşıl bayrağı, İrak müsəlmanlarının Abbasilərin qara bayrağı, Misir ərəblərinin Fatiməilərin ağ bayrağı altında vuruşması kimi).

Onlardan sonrakı pillədə subetnoslar, etnoslar və superetnoslar qərarlaşır. Subetnos etnosun struktur elementidir. Superetnos eyni bir landşaftda, eyni bir vaxtda yaranan bir neçə etnosdan ibarət etnik sistemdir ki, tarixdə rəngarəng, mozaik bütövlük kimi özünü göstərir.

Qumilyov özünün etnogenez nəzəriyyəsində müxtəlif etnik fenomenləri

landşaft nöqteyi-nəzərindən izah etməyə cəhd göstərmişdir. Onun fikrincə, coğrafi mühit, müxtəlif iqlim şəraiti fərqli etnosların və rəngarəng mədəni ənənələrin əmələ gəlməsinin əsas səbəbidir.

**Komplimentarlıq**

Passionarlıq nəzəriyyəsinə görə, etnik qrupların qarşılıqlı təsiri məsələsində açar rolunu etnik birliklərin böyüklüyü və komplimentarlıq münasibətləri (etnosların bir-birinə emosional münasibəti) təşkil edir. Müxtəlif qarşılıqlı təsir üsullarında aşağıdakı münasibət tipləri meydana gəlir:

- simbioz – eyni bir bölgədə məskunlaşan iki və daha artıq etnosun hər birinin öz ekoloji mühitində sülh şəraitində fəaliyyət göstərməsidir. Qumilyov bunu hər iki etnosun rifahı üçün ən optimal, əlverişli forma hesab edir.
- Kseniya (kseniya qonaq deməkdir) simbioz variantlarından biri olub, ayrıca bir etnosa mənsub kiçik insan qruplarının aborigenlər içərisində yaşaması və onlarla qaynayıb-qarışmamasıdır.
- Ximera eyni bir landşaft ərazisində yaşayan iki və daha çox yabançı superetnik etnosun nümayəndələridir. Bu iki etnosun bir-birinə olan mənfi komplimentarlığı sonda münaqişələrə və etnosların süqutuna gətirib çıxarır.
- Superetnos eyni bir ərazidə, müxtəlif etnosların mozaikalı birliyindən yaranan etnoslar qrupudur. Onlar arasında həmişə etnik yaxınlıq hissi mövcud olur. Bunu insan təbiətindəki invariantlıqla əlaqələndirən Qumilyov hesab edir ki, müsəlman superetnosu səviyyəsində ərəb, fars, türkmən, bərbər və başqa etnoslar arasında qərbi xristian superetnosu olan franklara nisbətən müsbət komplimentarlıq mövcud olmuşdur. Superetnoslar bir-birindən sosial-iqtisadi strukturuna, irqinə, dilinə, adət-ənənlərinə və dininə görə fərqlənir.

**Etnik sahə**

Qumilyov hesab edir ki, sahə prinsipi həm fərdin, həm də növün həyatının bütün mərhələlərində universal şəkildə təzahür edir. Bu təzahürün özü də iki kateqoriyaya bölünür: onlardan biri növün inkişaf prosesini, daha doğrusu gizli potensial formadan aktual formaya keçidi əhatə edir. Digəri üzvi tamın elementlərinin davranışından ibarətdir. Hər iki hadisədə tamın çoxsaylı elementlərinin əlaqələnmiş fəaliyyəti özünü göstərir. Daha doğrusu, sahə prinsipi meydana gəlir. İnkişaf prosesində onun obyekti (fərd) həm morfoloji, həm də fizioloji dəyişikliklərə məruz qalaraq formalaşır: "Çox zaman bir-birinə bənzəməyən insanları etnik tam, etnik bütövlük adlandırırıq. Nəyə görə afinalılar sakitcə ticarətlə məşğul olan finikiyalılara nisbətən öz düşmənləri olan spartalılarla daha yaxın idilər, onlara doğmalıq hissi bəsləyirdilər? Ona görə ki, siyasi cəhətdən bir-birindən ayrılmış etnoslar olsalar da, onların hər ikisi ellinlər idi. Fərz edək ki, bir nəfər yad bir mühitə düşmüşdür. Ətrafındakı adamlar nə qədər xoşxasiyyətli olsalar da, fərd özünü onların içərisində daim narahat hiss edir, kədərlənir. Lakin həmin şəxs öz həmyerlisinə rast gələn kimi bütün narahatlığını unudur" [3, 93]. Qumilyovun fikrincə, bu narahatlığın nə iqlim şəraiti, nə də yad mühitlə əlaqəsi var. O, bu vəziyyəti izah etmək üçün etnik sahə anlayışından istifadə edir.

Etnik sahə özünəməxsus təbii sahə növü olan elektromaqnit sahəsi kimi bir vəzifəni yerinə yetirir. Qumilyovun fikrincə, ana ilə uşaq arasında etnik sahə ana bətnində yaranmır. Anası ilə ilk təmasa girdiyi, ilk süd qurtumlarını əmməyə başladığı andan etibarən körpə etnik sahəyə daxil olur. Uşağın qədəm qoyduğu etnik sahə atası, doğmaları, digər uşaqlar və bütövlükdə mənsub olduğu xalqla ünsiyyət nəticəsində tədricən genişlənir. Alimin fikrincə, körpənin daxil olduğu etnik sahə ilk başlanğıcda zəif olur. Əgər onu başqa bir etnik mühitə aparsalar, o zaman onda yeni mühitə xas olan əlamətlər formalaşacaq.

**Davranış stereotipləri**

Ayrıca bir fərd, yaxud bütövlükdə insan kollektivi biosferin bir hissəsi olmaqla yanaşı, həm də cəmiyyətin ayrılmaz tərkib elementidir. Etnosu vahid orqanizm kimi qoruyub saxlayan ən mühüm cəhət qrupu təmsil edən şəxslərin davranış stereotipləridir. Qumilyova görə, davranış stereotiplərindəki dəyişikliklər etnosun yarandığı vaxtdan onun süqutuna, yəni homeostaz vəziyyətinə qədər davam edir: "Heç bir fərdi etnosdan ayrılıqda təsəvvür etmək olmaz. Hər bir insandan sən kimsən soruşduqda o, bir an belə düşünmədən mənsub olduğu millətin adını çəkir, məsələn, ya "rusam", ya da "fransızam" cavabını verir" [3, 230].

Qumilyov hər etnik birliyin özünəməxsus davranış stereotiplərinə malik olmasını onların fərqli tarixi taleyə, ətraf mühitə, ənənələrə, dost və düşmənlərə malik olması ilə əlaqələndirir. Onun fikrincə, etnosa din və mədəniyyət müəyyən qədər təsir göstərsə də, onun yaranmasında əsaslı rol oynamır. Hegelin "İoniya iqlimini Homer yaradıcılığının səbəbi kimi göstərmək yolverilməzdir" fikrinə şərik olan alimə görə, müəyyən mühitdə yaşayıb, inkişaf edən, müəyyən landşafta uyğunlaşan etnos digər yerlərə miqrasiya etdikdə öz davranış stereotipləri ilə həmin ərazinin aborigen etnoslarından kəskin surətdə fərqlənir" [3, 91-94].

Qumilyova görə, hər bir etnos özünəməxsus daxili struktura və özünün bənzərsiz davranış stereotiplərinə malikdir. Bəzən nəsillər bir-birini əvəz etdikcə bu davranış stereotipləri də dəyişir. Bu, etnosun inkişaf etdiyinin, etnogenezin isə zəifləmədiyinin göstəricisidir. Etnik davranış stereotipinin strukturuna fərdlə kollektiv, fərdlərlərin özləri, etnosdaxili qruplar, etnos və etnosdaxili qruplar arasında ciddi müəyyən edilmiş münasibətlər norması daxildir. Qumilyov yazır ki, özünəməxsusluğu ilə seçilən bu normalar bəzən tez, bəzən də gec dəyişir, həyatın və məişətin bütün sahələrində gizli surətdə mövcud olur, hər bir etnos onu hər bir ayrıca dövrdə vahid birgəyaşayış üsulu kimi qəbul edir, ona görə də bunlar etnosun üzvləri üçün heç də məşəqqətli hesab edilmir. Lakin bu və ya digər etnik birliyin üzvü ona yad olan, fərqli görünən davranış stereotipinə malik etnosun nümayəndələri ilə rastlaşdıqda təəccüblənir, başqa xalqın adət-ənənələrinin onu heyrətə gətirən məqamları haqqında öz həmvətənlərinə həvəslə söhbət açır. Alim misallara müraciət edir: "Yəhudilər donuz əti yediklərinə görə romalıları görmək istəmirdilər. Romalılar isə

yəhudilərin sünnət adətinə anormallıq kimi baxırdılar. Fələstini zəbt etmiş fransız cəngavəri ərəblərin çoxarvadlılıq ənənəsindən dəhşətə gəlmişdi. Ərəblər isə fransız xanımlarının üzüaçıq gəzmələrini abırsızlıq hesab edirdilər" [3, 92]. Qumilyov yazır ki, əslində, bu nağıl və hekayələr etnoqrafiya elminin yaranmasına gətirib çıxarmışdır. Etnoslararası əlaqə kimi qədim olan etnoqrafiya elmini nağıl və rəvayətlərdən fərqləndirən cəhət birincidə biliklərin sistem şəklində olması və burada ayrı-ayrı xalqların adət-ənənələrinin məsxərəyə qoyulmamasıdır.

Etnik davranış stereotipi Qumilyovun fikrincə, çox böyük qüvvəyə malikdir, çünki etnosun üzvləri onu ən yüksək dəyər kimi qəbul edir, ondan başqalarını isə "vəhşilik" (avropalı kolonistlər hidliləri, afrikalıları, monqol və rusları "barbar" adlandırırdıqları kimi, həmin xalqlar da haqlı olaraq ingilisləri vəhşi adlandıra bilər) hesab edirlər.

**Etnosların inkişaf mərhələlərinin təsnifatı**

Qumilyov etnogenezin inkişaf fazalarını və bu mərhələlərə uyğun olan imperativləri aşağıdakı kimi qruplaşdırır:

1. Təkan, yaxud dreyf mərhələsi – bölgənin etnik qruplarının landşafta ilkin uyğunlaşması, etnogenezin başlanğıcı və passionarlığın ən parlaq nümayəndələrinin etnosda doğulması mərhələsidir. Qumilyova görə, təxminən 150 il davam edən bu fazada hökmranlıq edən imperativ belədir: "Dünya çox pisdir, onu dəyişdirmək lazımdır!".
2. Oyanış fazası – öz inkişafında gizli və aşkar olmaqla iki mərhələdən keçir. İnkubasion dövr adlandırılan birinci mərhələ passionarlıq enerjisinin toplanaraq artması mərhələsidir. Passionarlığın coşğun artımı, yaxud yeni ərazilərin zəbt edilməsi ilə nəticələnən ikinci mərhələ. Passionar oyanışın meydana gəldiyi bu dövr 150 il (10 nəsil) davam edir. Oyanış fazasının qəti tələbi belədir: "Biz qüdrətli olmaq istəyirik!".
3. Akmatik faza - etnosun bütün həyat sferalarında passionarlığın ən yüksək inkişaf etdiyi, çiçəkləndiyi, etnosun qüdrətləndiyi mərhələdir. Yeni sosial sistemdə passionar şəxslərin sayı, demək olar ki, kritik həddə gəlib çatır: bu zaman ya qonşu bölgələrə şiddətli hücumlar edilir, ya da daxili münaqişələr güclənir. Bu faza bərk passionar qızma, yaxud akmatik faza adlanır ki, onun davametmə müddəti 300 ildir. Bu fazanın imperativi belədir: "Özün ol!".
4. Sınma mərhələsi - passionarlıq səviyyəsinin aşağı düşdüyü, mövcud sosial sistemin fəaliyyətini qoruyub saxlamağa kifayət etmədiyi mərhələdir. Qumilyov onu etnogenez tsiklində yeni mərhələ adlandırır. Bu mərhələnin xarakterik cəhəti belədir: tədricən etnosdaxili əlaqələr zəifləyir, mövcud sistemin süqutu baş verir. Təxminən 150-200 il (10-13 nəsil) davam edən bu mərhələnin əsas imperativini alim "Biz qüdrətli olmaqdan yorulduq" şəklində ifadə edir.
5. Ətalət, inersiya mərhələsi - passionarlığın normadan aşağı düşməsi, harmonik insanların sayəsində etnosun çiçəklənməsi, inkişafı mərhələsi, başqa sözlə, "etnosun qızıl payızı", meyvələrin dərilməsi dövrü hesab olunur.

İşğalçılıq, fəlakət və çevriliş sakit həyat tərzi ilə əvəz olunur, maddi sərvətlər toplanılır, mədəni nailiyyətlər çoxaldılır. Bu mərhələnin səciyyəvi imperativi belədir: "Mən necəyəmsə, sən də elə ol!".

6. Obskurasiya, cəhalət fazası – etnosun tənəzzül xarakterli inkişaf mərhələsidir. Bu fazanın imperativi belədir: "Biz necəyiksə, sən də elə ol!".

7. Memorial faza – şanlı keçmiş haqqında xatirələrdən ibarət olan mərhələdir. Keçmiş haqqında xatirələr passionar impulsları həyəcana gətirsə də, ayrı-ayrı adamlar onu qoruyub saxlamaq iqtidarında deyillər. Onların cəhdləri səmərəsiz olur, müasirləri tərəfindən rəğbətlə qarşılanmır. Vətəni müdafiə etmiş qəhrəmanların tarixi əfsanəyə çevrilir. Bu mərhələnin imperativləri bunlardır: "Xatırla, necə də gözəl idi!", "Özündən razı ol!".

8. Homeostaz – etnosun reliktə çevrilməsi mərhələsidir. Bu bütün imperativlərin, yəni qəti tələblərin unudulduğu, itirildiyi fazadır.

Qumilyovun fikrincə, etnogenezin bütün tsikli - etnososial sistemin formalaşması anından etnosun reliktə çevrilməsinə qədər olan dövrü təxminən 1200 il davam edir. Bununla belə, müəllif kənar təsirlərin nəticəsində etnogenezin istənilən fazada məhv edilə bilcəyini də istisna etmir.

**Passionarlıq**

Etnogenezin inkişaf mexanizmi və strukturu haqqında irəli sürülən fərziyyənin mühüm tərkib hissəsini passionarlıq təşkil edir. Alim passionarlığı irsi əlamət kimi təyin edir. Onun fikrincə, passionarlıq, hansısa bir məqsədi (bəzən bu məqsəd illüzion ola bilir) həyata keçirməyə istiqamətlənən qarşısıalınmaz daxili canatma, təəşşüqdür ki, o, çox zaman qeyri-şüuri baş verən xarakteroloji dominant kimi çıxış edir.

Qumilyova görə, passionarlıq şüurun əlaməti deyildir, o, şüuraltının atributudur. Bu əlamət fərdi olmayıb, həm də populyasiondur. Passionarlığa irsən keçən bir əlamət kimi yanaşan tədqiqatçı onun bioloji xüsusiyyətini ön plana çəkir, ona etnik substratların yeni kombinasiyalarını həyata səsləyən mühüm irsi əlamət kimi yüksək qiymət verirdi.

Onun fikrincə, passionarlığın əsasında xüsusi növ enerji - geosferin canlı maddəsinin biokimyəvi enerjisi dayanır. Passionarlığa nə tərbiyə, nə də təhsillə nail olmaq olar, o, anadangəlmə keyfiyyətdir. Passionarlığın əsasında vahid gen, yaxud genlər kombinasiyasının dayandığını, bu əlamətin ressesiv, yaxud dominantlıq kəsb etdiyini, onun orqanizmin əsəb, yaxud hormonal fəaliyyət ilə bağlı olduğu haqqında mühakimə yürütməyin çətin olduğunu müəllif özü də etiraf edir. Beləliklə, passionarlıq Qumilyova görə, "pis vərdiş" deyil, mühüm irsi əlamətdir. Onun səbəbi ayrı-ayrı adamların şüurlu fəaliyyəti deyil, şüuraltının geniş meydanıdır. Passionarlıq fərdi deyil, kollektiv xarakterlidir [3, 257-258].

Passionarlığın fəaliyyət mexanizmini aşağıdakı misalla izah etmək olar: passionarın ideyası onun ətrafında olan adamları ruhlandırır, onların közərən atəşini alovlandırır, sonda hər bir həqiqi passionar öz ətrafındakılardan ibarət vahid həmfikir insanlar dəstəsi, yeni sosial struktur yaradır. Bu şəxslər yaşadığı

dövrün adət edilmiş vəziyyəti ilə razılaşmır, gündəlik qayğılarla yaşaya bilmir, ətrafıdakılara müqavimət göstərməklə onları özlərinə tabe edir və olarla birgə fəaliyyət göstərirlər. Beləliklə, sakitliyi pozan ilk təkan özünə bir çox passionar şəxsləri daxil edən bütöv bir nəslin yaranmasına səbəb olur. İlk konsorsiyalar, Qumilyova görə, bu cür yaranmış, tezliklə yaşadığı epoxanın inkişaf səviyyəsinə uyğun olaraq bu və ya digər sosial forma almışdır. Pərakəndə düşmüş passionarlar isə ya qəbilədən qovulur, ya da öldürülürdülər. Amma passionarları həmişə öldürsəydilər, onda heç nə olmazdı: nə piramidalar, nə panteonlar, nə Amerikanın kəşfi, nə ümumdünya cazibə qanunu, nə də kosmosa uçuş [3, 273].

Passionarlar ətraf aləmi dəyişdirməyə can atır və bunu bacarırlar. Onlar uzaq səfərlərə, ekspedisiyalara çıxan, xalqın azadlığı uğrunda mübarizə aparan, yeni dəyərlər sistemi, dini cərəyan və inqilabi elmi nəzəriyyələr yaradan şəxsiyyətlərdir. Qumilyovun fikrincə, passionarlıq atəş kimidir, o, həm qızdırır, həm də yandırır. O, az olanda da, çox olanda da təhlükəli olur, bir yerdə dayanıb durmur, bu proses həmişə ya şiddətlənir, ya da soyuyur.

Yer əhalisi içərisində passionarlığın meydana gəlməsinə "bəzi kosmik qüvvələr təsir edir" deyən alim yazır ki, əldə edilmiş passionarlıq əlamətinin qismətə düşən payı müxtəlif cür olur. Bu xüsusiyyəti təyin etmək üçün Qumilyov passionarlığın üç səviyyəsini göstərir:

1. Passionarlığın normadan yüksək səviyyədə olması.
2. Passionarlığın normal həddi.
3. Passionarlığın normadan aşağı olması.

Passionar o kəslərdir ki, onlarda bu impuls özünüqoruma instinktindən yüksək olur. Dinamik etnoslarda passionarların sayı çox olur, onlar öz sisteminin inkişafı üçün özlərinin artıq enerjisini sərf etməklə fəaliyyət göstərirlər. Lakin qeyd edək ki, inkişafın intensivliyi heç də həmişə fayda gətirmir. Passionarlıq şüurlu, məqsədyönlü nəzarətdən çıxanda "qızma" baş verir, yaradıcı qüvvə dağıdıcılıqla əvəz olunur. Bu zaman harmonik insanlar öz etnoslarının xilaskarına çevrilirlər. Onlar etnosu təkrar istehsal edir, passionar alışmanı sakitləşdirir, yaradılmış maddi dəyərləri çoxaldırlar. Harmonik insanlar etnosun tərkibində son dərəcə mühüm element hesab olunur, onlar xarici düşmən peyda olmayana qədər passionarlarsız tam keçinə bilirlər.

Qumilyov harmonik insanın səciyyəvi xüsusiyyətlərini belə təsvir edir: intellektual cəhətdən mükəmməl, iş qabiliyyətli, lakin fövqəlaktiv olmayan, özünü passionar kimi qurban verməyən. Passionarlığın normada olduğu insanları Qumilyov obıvatel, yəni ictimai görüş dairəsi olmayan və şəxsi mənafeyi ilə yaşayan insanlar adlandırır. Bu qrupun nümayəndələrinin sayı xeylidir və onlar "sakit", ətraf mühitə tam uyğunlaşmış halda həyat sürürlər.

Passionarlıq dərəcəsi normadan aşağı olan adamları mütəfəkkir subpassionarlar adlandırır. Qumilyov onları "mənfi passionarlığa" malik insanlar kateqoriyası hesab edir. Başqa sözlə desək, onların davranışlarını idarə edən təkanın vektoru passionar gərginliyin əksinə istiqamətlənir. Subpassionarlar

gələcək haqqında düşünmür, proqnoz verməyi bacarmır, bir parça çörəyi və sirk tamaşasını gələcəkdən daha real hesab edirlər. Subpassionarlara Qumilyov avaraları, muzdlu döyüşçüləri aid edir. "Onlar nə dünyanı dəyişdirmək, nə də onu qoruyub saxlamaq istəyirlər. Əksinə onlar passionarlar şəxslər olmadan keçinə bilmir, onların hesabına yaşayırlar.

**Passionar induksiya**

Passionarlığın son dərəcə mühüm xüsusiyyətlərindən biri onun sirayət-edici təsirə malik olmasıdır. Bu o deməkdir ki, harmonik insanlar (Qumilyova görə, onların böyük əksəriyyəti impulsiv insanlardır) passionarlara yaxın olduqda özlərini onlar kimi aparırlar. Lakin onlardan uzaq düşdükdə, əsl simaları üzə çıxır.

Passionarlıq kortəbii hadisədir. Passionarlar yaxınları, mənsub olduğu xalq, yaxud hansısa bir ideya naminə özlərini qurban verən şəxslərdir (məsələn, Praqa Universitetinin rektoru Yan Qus). Passionar insan qələbəsini öz həyatından daha yüksək qiymətləndirir, yüzlərlə insanı passionar induksiya ilə elektrikləşdirir. Passionar sahə elektromaqnit sahəsinə bənzəyir: bir nəfər o birinə, o da başqalarına elektrik keçirir, digər insanların psixikasına təsir göstərir. Qumilyovun fikrincə, passionar induksiya özünü hər yerdə büruzə verə bilər: konservatoriyada musiqiyə qulaq asmaq onu radioda dinləməkdən, teatrda tamaşanı canlı izləmək onu televiziyadan seyr etməkdən daha çox zövq verir. Bu misal etnogenezin yaranması ilə müqayisədə cüzi görünsə də, hər iki halda qanunauyğunluq eynidir.

Passionar induksiya haqqında daha bir nümunə ilə tanış olaq: "1796-cı ildə avstraliyalılarla fransızlar arasında Arkal körpüsü uğrunda gedən döyüşdə ikincilər üç dəfə hücuma keçsələr də, rəqiblərinə qalib gələ bilmir, növbəti hücumun da uğursuz olacağını güman edən əsgərlər vuruşmaqdan imtina edirlər. Bu zaman Napoleon bayrağı əlinə alaraq irəli atılır, bunu görən döyüşçülər də onun ardınca gedərək qalib gəlirlər" [3, 267].

Qumilyova görə, hərbi işdə bu təsir növündən, yəni passionar induk-siyadan son dərəcə geniş şəkildə istifadə olunur. Belə ki, intuitiv olaraq orduda passionar şəxslər seçilərək ya zərbə hissəsinə göndərilir, ya da hərbi döyüş ruhunu yüksəldilməsi üçün onları bilərəkdən mobilləşdirilmiş kütlənin içərisinə qatırlar. İki-üç nəfər passionar şəxs bütöv bir bölüyün döyüş qabiliyyətini və mübarizə əzmini yüksəldə bilir. Qumilov yazır ki, passionar induksiya müm-kün qədər yaxınlıq tələb edir. O, 100 kilometrdən uzaq məsafədə hiss olunmur, özünün sirayətedici qüvvəsini itirir.

Qumilyovun fikrincə, passionarlıqda etnik yaxınlıq, etnik doğmalıq hissi də həlledidci rol oynayır. "Məsələn, Suvorov əmrinə tabe olan macar və xorvat, çex əsgərlərinə nisbətən ruslara patriotizm modusu vasitəsilə daha çox təsir edə, onların döyüş ruhunu yüksəldə bilirdi. Eynilə Napaleon da vestfallılar və hollandlara nisbətən fransızları daha çox hərəkətə gətirə bilirdi" [3, 270].

**Passionar gərginliyin azalması**

Müharibə zamanı, əsasən, gənclərin həlak olması faktı heç kəsə sirr deyil.

Qumilyova görə, gənc passionarlar mənsub olduqları kollektivin mənafeyi naminə özlərini qurban verir, öz güclərindən tam istifadə etmədən, özlərinin malik olduğu keyfiyyət inkanlarını bütünlüklə sonrakı nəsillərə ötürmədən məhv olurlar. Bu isə passionar gənc döyüşçülərin geninin birdəfəlik kəsilməsi deməkdir.

Passionar gərginlik yalnız müharibələrdə gənc passionarların həlak olması səbəbindən azalmır. Hərbi münaqişələr dövrünə nisbətən sülh, əmin-amanlıq şəraitində passionarlıq daha sürətlə aşağı düşür. Müharibə vaxtı qadınlar döyüşə gedən qəhrəmanları qiymətləndirir, onlara yüksək dəyər verirlər. Qəhrəmanlar ölməzdən əvvəl qeyri-qanuni yolla olsa da, özlərindən sonra varislər qoyub gedirlər. Uşaqlar böyüyür, hətta atalarını tanımasalar da, konstitusiyalarının diktəsi ilə ataları kimi davranırlar. Əksinə, sülh şəraitində mülayim və səliqəli ailə başçısı obrazı qadınların idealına çevrilir, dinc vaxtlarda passionarlara yer tapılmır.

Passionarlıq nəzəriyyəsinə görə, bütün etnik tarix passionar enerjinin xərclənməsi və buna uyğun olaraq etnosun dəyişmiş imkanlarının aşağı düşməsi ilə əlaqədardır. Çünki müxtəlif tarixi dövrlərdə etnos özünün qəhrəman passionarlarına fərqli reaksiya nümayiş etdirir: əgər oyanış mərhələsində qəhrəmanlar cəmiyyətin ən hörmətli, yüksək nüfuzlu üzvləri sayılırsa, passionarlığın süqutu mərhələsində onlar “sakitliyi pozan, araqarışdıran” adamlar kimi qəbul edilir, “ağ qarğa”ya çevrilən bu adamlar cəmiyyət tərəfindən persona-non-qrata elan edilirlər.

**Passionarlıq obrazları**

Qumilyov Makedoniyalı Aleksandrı və bir vaxtlar artilleriya zabiti olmuş Napaleon Bonapartı passionarlıq obrazları kimi təqdim edir: “Gənclik illərində son dərəcə kasıb olan və həmişə karyera haqqında düşünən Napaleon Oqyust Ropespyerlə tanışlığı sayəsində Tulonu tutduqdan sonra kapitan rütbəsinə yüksəlir. 1795-ci ildə Parisdə royalistlərin qiyamını yatırdığına görə general olur. Karyerasını qura bilsə də, bu, ona var-dövlət gətirmir. İtalyan kampaniyası Bonapartı varlı edir. Bundan sonrakı həyatında o, əziyyət çəkmədən rahatca yaşaya bilərdi. Lakin onu Misirə getməyə, sonra isə XVIII brümerin öldürücü risqinə nə vadar etdi? Hakimiyyətpərəstlikmi? Qətiyyən! Bəs o, Fransa imperatoru olanda sakitləşdimi? Yenə də yox. Müharibənin, diplomatiyanın, qanunvericilik işinin, hətta, tədbirlərin təşkilinin bütün ağırlığını öz üzərinə götürən Napoleon heç vaxt fransız burjuaziyasının diktəsini yerinə yetirmirdi: İspaniya müharibəsi və Moskva yürüşündə olduğu kimi. Fransa burjuaziyasının nümayəndələri “nəyə görə imperator daim müharibəyə can atır” deyə təəccüblə düşünürdülər. Doğrudur, Napoleon dəfələrlə öz hərəkətlərinin motivini müxtəlif cür izah etməyə çalışsa da, onun həqiqi mənbəyini tapa bilməmişdi. Əslində, sakitlik bilməyən bu fəaliyyət yanğısı Napoleonu hətta Müqəddəs Yelena Adasında da sakit buraxmamış, onu memuar yazmağa, daim hansısa bir işlə məşğul olmağa təhrik etmişdir” [3, 255]. Qumilyov Napoleonu fəaliyyətə sövq etdirən səbəbi passionar enerji ilə izah edir.

Qumilyov növbəti passionarlıq obrazı kimi Makedoniyalı İsgəndərin həyatından misallar çəkir: "İsgəndər bir insana lazım olan hər şeyə sahib olmaq hüququ ilə doğulmuşdu: qida, ev, əyləncə və Aristotellə söhbət. Farslar üzərində qələbədən sonra o, Orta Asiya və Hindistana hücum etdi. Sonuncu yürüş makedoniyalıların özlərinə də lüzumsuz görünürdü. "Polemokratın oğlu Ken, nəhayət, özündə cəsarət tapıb şaha dedi: «Özünüz şahid oldunuz ki, sizinlə döyüşə gedən xeyli makedoniyalı və ellin döyüşçülərindən az bir qismi sağ qaldı. Könüllülər döyüşlərdə, bəziləri isə xəstəlikdən öldülər. Sağ qalmış əsgərlərin taqəti yoxdur. Ruhən isə daha çox yorğundurlar. Valideynlər övladları üçün, döyüşçülər isə uşaqları və arvadları, vətənləri üçün darıxırlar. Əsgərlərin iradəsinin əksinə getməyin. Yürüşləri dayandırın" [3, 258].

Tarixə yenidən müraciət edən Qumilyovu yenə İsgəndəri yürüşə sövq etdirən hansısa amil maraqlandırır. Alim İsgəndərin davranışının moitivini onun şəxsi xarakterində axtarır, Arrian və Plutarxdan misallar gətirməklə İsgəndəri işi sonacan görməyi xoşlayan sərkərdə kimi xarakterizə edir. Onun fikrincə, şöhrətpərəstlik və məğrurluq passionarlığın əsas əlamətidir**.** Qumilyov hesab edir ki, enerjinin bu qədər bolluğu həm qələbə, həm də öz təbəələrini (onlara lazım olmasa belə) müharibyə getməyə məcbur etmək üçün kifayət edər.

Qumilyov Poma zadəganı və patrisisi Lüsi Korneli Sullanı, Praqa Universitetinin rektoru Yan Qusu, Janna Dark və başqalarını passionarlıq nümumələri kimi oxucuya təqdim edir.

**NƏTİCƏ**

Qumilyov görkəmli alim olmaqla yanaşı, etnoqrafiya, tarix, coğrafiya, arxeologiya və psixologiya kimi bir neçə elm sahəsinin qovşağında yerləşən yeni elmi istiqamətin - etnologiyanın banisidir. O, etnogenezin passionar nəzəriyyəsi ilə xalqların tarixinə fərqli nöqteyi-nəzərdən yanaşmışdır. Əksər psixoloqlar hesab edirlər ki, Qumilyov passionarlıq nəzəriyyəsi ilə həm də şəxsiyyətin yeni psixodinamik nəzəriyyəsini işləyib hazırlamışdır.

Tarixi prosesin xarakteri və başlıca prinsiplərinə dair suallar bütün dövrlərdə filosofları dərindən düşündürmüşdür. L.N.Qumilyov bu fəlsəfi problemi ictimai və təbiət elmlərinin qovşağında həll etməyə cəhd göstərmişdir. Bu mənada onun nəzəriyyəsi sözün tam mənasında müasirdir.

Bu elmi konsepsiyaya göstərilən maraq, hər şeydən əvvəl, onun elmlərarası xarakter kəsb etməsi və böyük dünyagörüş əhəmiyyətinə malik olması ilə bağlıdır.

Bu konsepsiyada etnos Yerin biosferinin bir hissəsi, etnogenez təbii proses, passionar təkanlar isə kosmik mənşəli hadisə kimi nəzərdən keçirir.

Etnogenez konsepsiyasından xüsusi və ümumi etnoloji, tarixi və siyasi problemlərin tədqiqi zamanı istifadə edilə, fəlsəfə tarixi, sosial fəlsəfə, siyasi fəlsəfə kurslarında tədris oluna bilər.

L.N.Qumilyovun etnogenez nəzəriyyəsinin əsas elementlərinin (passionarlıq, komplimantarlıq, etnik sahə və s.) təsdiq edilməsi təbiət elmlərinin

gələcək inkişafından asılıdır. Məqaləyə tanınmış rus etnoqrafı Rudolf Ferdinandoviç İtsdən sitat gətirməklə başlayıb, onun bir fikri ilə yekunlaşdırmaq istəyirəm: “Təəccüblü işdir! Mətni oxuyursan, faktları yoxlamaq istəmədən müəllifə qeyd-şərtsiz inanmaq, yalnız inanmaq istəyirsən”.

## ƏDƏBİYYAT

1. Yunus Oğuz. Qədim türklər və passionarlıq nəzəriyyəsi L.N.Qumilyovun tədqiqatlarında. Bakı: 2011. – 193 s.
2. Бромлей Ю.В Этнос и этнография. М.: 1973.
3. Гумилев Л.Н. Этногенез и биосфера земли. Л.: Издательство Ленинградского университета. 1989. – 496 с.
4. Гумилев Л.Н. Поиски вымышленного царства. М.: 1970.
5. Этносфера. История людей и история природы. М.: Экопрос, 1993.
6. Гумилев Л. Н. Конец и вновь начало: Популярные лекции по народоведению. М.: Рольф, 2000. – 384 с
7. Гумилев Л. Н. Ритмы Евразии: эпохи и цивилизации / Предисл. С. Б. Лаврова. – М.: Экопрос, 1993. – 576 с.
8. Гумилев Л. Н. География этноса в исторический период. – Л.: Наука, 1990. – 279 с.
9. Гумилев Л. Н. География этноса в исторический период. – Л.: Наука, 1990. – 279 с.
10. Лавров С. Б. Лев Гумилев. Судьба и идеи. – М.: Сварог и К, 2000 – 408 с.

## ТЕОРИЯ ПАССИОНАРНОСТИ ЛЬВА ГУМИЛЁВА

**Н.И.КЕРИМОВА**

### РЕЗЮМЕ

Лев Николаевич Гумилев был основоположником концепции пассионарности. В этой концепции он выдвинул ряд гипотез, относительно развития механизма и структуры этногенеза, а также пассионарности, как его составного элемента. По его словам, этногенез - это не только начальный этап этнической истории, но и процесс его развития, который включает четыре этапа: появление, развитие, упадок и исчезновение этноса.

Л.Н. Гумилев искал факторы, приведшие к формированию этносов за пределами планеты Земля, связывая это с энергетическими толчками из космоса. По словам ученого, огромное количество энергии, которую наша планета получает из космоса, не только используется для поддержания баланса биосферы, но и создает пассионарные толчки (импульсы), которые приводят к формированию этноса.

Зона пассионарных толчков, образующая узкую полосу, возникает редко - каждые 2-3 тысячи лет, никогда не попадает в одну и ту же территорию, и под ее влиянием происходит внезапная активизация целого этноса. Эти толчки (импульсы), зависящие от космической энергии, порождают этногенез той или иной нации. Весь цикл этногенеза, который представляет собой не социальный феномен, а феномен биосферы, длится от момента формирования этносоциальной системы до пережитка этноса около 1200 лет.

Гумилев не считал пассионарность признаком сознания, но считал ее атрибутом подсознания. Он восхвалял пассионарность как важную наследственную черту, требующую новых сочетаний этнических субстратов. По мнению ученого, пассионарность, считающаяся врожденным качеством, не может быть достигнута воспитанием или образованием. У таких людей пассионарный импульс выше инстинкта самосохранения: они постоянно стремятся изменить окружающий мир, бороться за свободу людей,

создавать новую систему ценностей, религиозные течения и революционные научные теории.

По словам Гумилева, пассионарность заразительна, такие люди могут передавать высокую энергию окружающим людям посредством пассионарного индукции. На расстоянии 100 километров этот эффект теряет свою силу.

**Ключевые слова**: этногенез, этническая история, этническое поле, стереотип поведения, биосфера, космическая энергия, пассионарный импульс, пассионарность, пассионарная индукция, субпассионарность.

## LEV GUMILEV'S PASSIONARY THEORY

**N.I.KARIMOVA**

### SUMMARY

Lev Nikolayevich Gumilyov was the founder of the concept of passionarity. In this concept he put forward several theories about the mechanism and structure of the development of ethnogenesis and its constituent element-passionarity. According to him, ethnogenesis is not only the initial stage of ethnic history, but also a process, which includes four stages: creation, awakening, decline and destruction of the ethnos.

L.N.Gumilyov looked for the factors that led to the formation of ethnoses outside Earth, linking it with energy shocks from space. According to the scientist, the huge amount of energy that our planet receives from space is not only used to maintain the balance of the biosphere, but also creates passionate impulses that lead to the formation of the ethnos.

The zone of passionate impulses is rarely formed - every 2-3 thousand years. It never forms in the same territory, and under its influence there is a sudden activation of an entire ethnos. These impulses, caused by cosmic energy, give a start to the ethnogenesis of this or that people. The whole cycle of ethnogenesis, which manifests itself not as a social phenomenon but as a biosphere phenomenon, lasts from the moment of the formation of the ethnosocial system to the transformation of the ethnos into relict for about 1,200 years.

Gumilyov did not take passionarity as a sign of consciousness, he considered it an attribute of the subconscious. He highly valued passionarity as an important hereditary sign that calls out new combinations of ethnic substrates. According to the scientist, passionarity, which is considered an innate quality, cannot be achieved through upbringing or education. In such people, the passionate impulse is higher than the instinct of self-preservation: they constantly strive to change the world, fight for the freedom of the people, create a new system of values, religious trends and revolutionary scientific theories.

According to Gumilyova, who noted that passionarity has a transmissible effect, such people are able to transmit high energy to other people nearby through passionate induction. At a distance of 100 kilometers, it loses its effect.

**Keywords**: ethnogenesis, ethnic history, ethnic field, behavioral stereotype, biosphere, cosmic energy, passionate impulse, passion, passionary induction, subpassionality.

BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ

*№3 Sosial-siyasi elmlər seriyası 2020*

## PEDAQOGİKA

UOT 37

# TƏLİM PROSESİNDƏ MÜASİR TEXNOLOGİYALARDAN İSTİFADƏNİN ƏHƏMİYYƏTİ

**A.M.SEYİDOVA**
***Naxçıvan Dövlət Universiteti***
***Reraro61@mail.ru***

*Azərbaycan müstəqillik əldə etdikdən sonra bütün sahələrlə yanaşı təhsil sahəsində də əsaslı dəyişikliklər aparılmış, məqsədyönlü islahatlara başlanılmışdır. Bu addım ölkəmizdə yeni cəmiyyətin qurulması ilə əlaqədar və beynəlxalq aləmə inteqrasiya olunması məqsədilə atılmışdır. Respublikamızda həyata keçirilən təhsil islahatının məqsədi təlim prosesinin səmərəliliyini təmin etməklə milli və ümumbəşəri dəyərlərə yiyələnən, yaradıcı və tənqidi düşünməyi bacaran, hərtərəfli formalaşmış fəal şəxsiyyət yetişdirməkdir. Bu gün öyrənənlər elə zəruri biliklərlə təmin olunmalıdır ki, hər bir fərd sərbəst olaraq qloballaşan dünyamızda informasiya cəmiyyətinin fəal üzvünə çevrilsin. Təhsilə edilən dəyişikliklər və yenilikləri yerinə yetirmək üçün ilk növbədə öyrədən özü dəyişməlidir. Müasir təhsil sisteminin tələblərindən irəli gələn dəyişiklikləri bilməli, həmçinin yenilikləri tətbiq etməyi bacarmalıdır. Bir sözlə təlimin yeni texnologiyalarını bilməlidir. V-VI sinif riyaziyyat təlimində müasir təlim üsullarının əhəmiyyətindən bəhs edilmişdir. Bu siniflərdə dərslərin yeni təlim üsulları əsasında qurulması şagirdlərin məntiqi təfəkkürünü inkişaf etdirir, onların dünyagörüşünü genişləndirir. Müasir təlim texnologiyalarına əsaslanan dərslər sadəcə maraqlı olmaqla yetinmir, həmçinin öyrənilən materialın tətbiqinə, mövzunun yaddaqalan olmasına, öyrənənlərin dərketmə qabiliyyətlərinin inkişafına, təlim prosesində bütün şagirdlərin iştirakına və ən əsası isə nəticəyönümlülüyə əsas verir.*

**Açar sözlər:** orta məktəb, şagird, riyaziyyat, müəllim, V-VI sinif, təlim üsulu, tətbiq

## Giriş

Gündəlik həyatda, dəqiq və humanitar elm sahələrinin inkişafında, texnika və texnologiyaların təkmilləşdirilməsi prosesində ortaya çıxan problemlərin həllində yeni pedaqoji texnologiyalar pedaqoji prosesdə müəllimlərin ən yaxın köməkçisinə çevrilir, şagirdlərin elmi-texniki biliklərinin genişlənməsinə imkan yaradır. Bunlar ümumtəhsil məktəblərində tədris olunan fənlər sırasında riyaziyyatın yerini müəyyən etməklə yanaşı, onun tədrisi qarşısında qoyulan aşağıdakı əsas məqsədləri ümumi şəkildə müəyyənləşdirməyə imkan verir. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqramında (kurikulumu) (I-XI siniflər) həmin məqsədlər belə göstəril-

mişdir: 1)riyaziyyatın gerçəkliyi təsviretmə və dərketmə metodu olması barədə təfəkkür tərzi formalaşdırmaq; 2) riyaziyyatın ümumbəşəri mədəniyyətin tərkib hissəsi və cəmiyyətin inkişafının hərəkətverici qüvvəsi olması haqqında təsəvvürlər yaratmaq; 3)təhsili davam etdirmək, digər fənləri öyrənmək, praktik fəaliyyətdə tətbiq məqsədilə zəruri bilik, bacarıq və vərdişlərə yiyələnmək üçün real zəmin yaratmaq [4, s. 6].

Bu məqsədləri həyata keçirəcək olan müəllimin yeni təlim texnologiyalarından istifadə etməsi zəruridir. Yeni təlim texnologiyalarına istinad edən müasir dərsin təşkili, onun mahiyəti cəmiyətin özünəməxsusluğunu, tələblərini nəzərə almaqla, elmin müasir səviyyəsini və yeni pedaqoji texnologiyaların tələblərini ödəyə bilməsidir. Ona görə də müasir dərsin təşkili kifayət qədər çeviklik və dinamiklik tələb edir [8, s. 24].

MƏTN

Yeni təlim texnologiyalarında şagirdlərin intelekltual, mənəvi cəhətdən inkişaf etdirilməsi ön plana çəkilməkdədir. Yeni texnologoyaların təlimdə tətbiqi şagirdlərin öz fikirlərini aydın, məntiqi ardıcıllıqla ifadə etmələrinə şərait yaradır. Bu metodların şagird şəxsiyyətinin formalaşdırılmasında xüsusi yeri vardır və şagirdlərin yaradıcılıq qabiliyyətlərini inkişaf etdirməklə yanaşı, onlarda həm də yüksək ünsiyyət mədəniyyəti formalaşdırır.

Təlim metodu mürəkkəb, çoxparametrli bir analayış olmaqla təlimin məqsədini, məzmununu, qanunauyğunluqlarını, prinsiplərini səmərəli həyata keçirmək üçün istifadə olunur. Təlimin məqsədinin, məzmununun keyfiyyətlə icrası, seçilmiş metodların praktik imkanlarından asılıdır. Bu imkanları məhz metodlar təmin edir və didaktik sistemin inkişaf sürətinə təkan verir. Təlimdə tətbiq edilən metodlar inkişafa nə qədər çox şərait yaradarsa, təlimin səmərəsi də bir o qədər yüksək olar. Bu mənada interaktiv təlim metodları üstünlük təşkil edir [12, s. 622-623].

Dərsə uyğun olaraq yeni təlim texnologiyalarının düzgün seçilməsi şagirdlərdə riyaziyyatı öyrənmək istəyi formalaşdırır. Mərhum professor Oruc Həsənli yazır: “*Təlimin forma və məzmunu elə seçilməlidir ki, o, şagirdləri düşündürməyə, özünü dərk etməyə, yaradıcı fəaliyətə stimullaşdırsın. Tədqiqatçılıq və ya “problemli təlim” metodu gerçəkliyin kəşfi və dərk edilməsinə yönəlmiş təbii təfəkkür prosesi ilə eyniyyət təşkil etdiyindən yaradıcı təlim metodikasının əsasını təşkil edir*” [10, s. 218].

Tədqiqatçı alim S.Bədiyev yeni təlim texnologiyaları haqqında qeyd edir: *“Yeni təlim texnologiyaları ənənəvi təlim metodlarına nisbətən şagirdlərin yardıcılıq qabiliyyətinin inkişaf etməsinə real şərait və imkan yaradır”* [6, s. 20].

Praktik mənada pedaqoji texnologiya dedikdə, həm də qarşıya qoyulmuş məqsədə uyğun olaraq bilik, bacarıq, vərdiş və münasibətləri formalaşdırmaq və onlara nəzarəti həyata keçirmək üçün əməliyyatlar kompleksi başa düşülür. Ümumiyyətlə pedaqoji texnologiyaların təsnifi aşağıdakı kimi aparılır:

1. Təlim texnologiyası – bilik, bacarıq və vərdişləri formalaşdırmaq üçün həyata keçirilən əməliyyatlar kimi başa düşülür.

2. Tərbiyə texnologiyası – nisbi, sabit və müntəzəm olaraq ümumiləşən münasibətlərin, məqsədyönlü formalaşdırılması üçün əməliyyatlar komplektidir.

3. İnkişaf texnologiyası – təlim və təhsil-tərbiyə texnologiyası ilə əlaqədardır.

4. Diaqnostika texnologiyası – pedaqoq və psixoloqların uşaqların məktəbə hazırlıqlarını diaqnostlaşdırmalarıdır [15, s. 18].

Digər fənlərdə olduğu kimi V-VI siniflərdə riyaziyyat fənninin tədrisində də müəllim yeni təlim metodlarından istifadə etməklə dərsi daha maraqlı etməyə və şagirdlərə mənimsətməyə nail ola bilər. Hər bir fənni və ya mövzunu maraqlı etmək, sevdirmək o qədər də asan olmayan bir işdir. Bu iş müəllimin pedaqoji ustalığından, fənni, uşaqları necə sevməsindən asılıdır. Hər bir fənnin özünəməxsus çətinlikləri olduğu kimi riyaziyyat fənninin də çətinlikləri az deyil. Riyaziyyat fənni ilk baxışda şagirdlərə "çətin fənn" təsiri bağışlayır və onları qorxudur. Bəs bu fənni necə maraqlı etmək olar? Şagirdin dərsə marağı onun müstəqilliyindən, prosesdə fəal iştirak etməsindən asılıdır. Buna görə müəllimin şagirddə öz fənninə qarşı maraq oyada bilməsi vacibdir. V-VI sinif şagirdlərinin riyazi fəaliyyətlərini inkişaf etdirməyin ən səmərəli yollarından biri məsələ həllidir. Məsələ həll edən zaman şagirdlərin müstəqilliyi artır, təfəkkür fəallığı yüksəlir, nəzəri materialla praktik iş arasında əlaqə yaratmaq imkanı genişlənir. Məsələ həllinin üstün cəhətlərindəm biri də odur ki, eyni məsələnin bir neçə yolla həlli mümkün olur. Bu isə şagirdlərdə yaradıcı yanaşmanı, müxtəlif variantlar axtarmağı, ən əlverişli variantı seçmək kimi xüsusiyyətlər formalaşdırır. Bu proses zamanı şagirdlər öz fikirlərini təqdim edirlər, fikir mübadiləsi aparırlar, hər kəs öz dediyini sübut etməyə çalışır və s. Belə məqamlarda müəllimin yaradıcı, düşündürücü məsələlər seçməsi və onları tədris olunan materialla əlaqələndirilməsi çox mühümdür. Getdikcə çətinlik dərəcəsi artan məsələlərin həlli şagirdlərin riyazi qabiliyyətləri ilə yanaşı digər qabiliyyətlərini də formalaşdırır.

Fikirləşərək öyrənmək bilik, bacarıq və vərdişlərə yiyələnmənin ən səmərəli və effektli yoldur. Bu yolla qazanılan biliklər yaddaşdan silinmir, insanın öz şəxsi "malına" çevrilir [3, s. 11].

Bəzən mövzulara maraq yaratmaq üçün başqa bir üsul - əyləncəli elementlərdən istifadə etmək gözəl nəticə verir. Məsələn, VI siniflərdə funksiya mövzusunun izahı zamanı cədvəl qurub məlum düsturla qiyməti hesablayaraq özlərinin cədvəli tamamlaması, və ya əksinə verilən qiymətlərin hansı düstura əsaslanaraq tapılması şagirdlərdə xüsusi maraq yaradır. Seçilmiş digər təlim üsulları kimi əyləncə elementləri şagirdlərin təfəkkür fəaliyyətini stimullaşdırmalı, onları düşünməyə, yaradıcılığa, tədqiqata sövq etməlidir. Şagirdlər hər dərsdə müstəqil olaraq nə isə öyrənməlidir. Şagirdlərdə müstəqil fəalliyyət bacarığını formalaşdırmaq üçün onların bəzi tapşırıqları müstəqil yerinə

yetirmələrinə şərait yaratmaq lazımdır. Müstəqil iş müəllimin nəzarətində aparılmalı, şagirdlərin bir –birinə mane olmalarının qarşısı alınmalı, zəif oxuyan şagirdlərə fərdi şəkildə köməklik göstərilməlidir. Müstəqil iş zamanı şagirdləin hər birinin şəxsi qabiliyyəti aydın görünür.

Müstəqil fəaliyyətə sövq edən tapşırıqlar şagirdlərdə düşünmə qabiliyyəti, müstəqil qərarlar qəbul etmək kimi mühüm bacarıqlar formalaşdırmaqla yanaşı həm də fənni sevdirir [16].

Tədqiqatçı alimlər orta məktəblərdə müşahidə etdiklərini belə qeyd edir: "*Orta məktəblərin kompüterləşdirilməsi, təlim prosesində informasiya və kommunikasiya texnologiyalarından istifadə günün tələbidir. Lakin müşahidələr göstərir ki, orta məktəblərdə riyaziyyat dərslərində informasiya və kommunikasiya texnologiyalarından istifadəyə çox az yer verilir və ya demək olar ki, bir çox hallarda isə ümumiyyətlə yer verilmir*" [2. s. 6].

Qeyd edək ki, fəal təlim üçün metod və texnologiyalar qarşıya qoyulmuş məqsəd və şəraitdən asılı olaraq seçilməlidir. Müəllim məqsəd və şəraitdən, fənnə, mövzuya, şagirdlərin təcrübə və bilik səviyyəsinə görə bütün təlim modellərindən, müxtəlif metodika və texnologiyalarından istifadə etməlidirlər. Məqsəd, şagirdləri inkişaf etdirmək, onları düşünmək, müstəqil fikir söyləmək, biliklərini tətbiq edə bilmək bacarığı aşılamaqdır [9, s. 13].

Dəyişən və yeniləşən dünyamızda bir çox məsələlərdə olduğu kimi, öyrənmə anlayışına da müxtəlif yanaşmalar mövcuddur. Tarixin bu və ya digər mərhələsində müxtəlif öyrətmə metodları mövcud olmuşdur. Dünyanın qabaqcıl psixoloq və pedaqoqlarının fikirlərinə görə bütün uşaqların daxilində öyrənmə istəyi var. Bu istəyi ortaya çıxarmaq üçün münbit öyrənmə mühiti yaratmaq, şagirdlərdə maraq və özünə inam hissləri oyandırmaq, onları birlikdə çalışaraq yeni bilikləri "kəşf" etməyə təşviq etmək lazımdır. Şagirdlərdə öyrənilən mövzuya maraq yaratmaq üçün onlara diqqətlərini cəlb edəcək bir sualla müraciət edilməlidir. Həddən artıq bəsit olan bir sual şagirdlərdə çətin ki, cavablandırma arzusu yaratsın. Uğurlu dərsin əsasında düzgün problemli vəziyyətin yaradılması durur. Riyaziyyatda problem anlayışı real həyatdakından fərqli mənaya malikdir. Riyaziyyatda problem həll etmək əvvəlcədən qazanılmış olan bilikləri yeni və tanış olmayan vəziyyətlərdə tətbiq etmək bacarığıdır. Problem həll etmə strategiyalarına aşağıdakılar daxildir: sual verməklə problemli vəziyyət yaratmaq, vəziyyəti təhlil etmək, verilənləri nəticəyə çevirmək, nəticələri ümumiləşdirmək, nəticələri yoxlamaq. Problem həll edərkən şagirdlər düzgün nəticəyə gələ bilmək üçün məntiqi ardıcıllıq qaydalarına riayət etmək məcburiyyətindədirlər.

Riyazi problemi həll etməyi öyrənmək şagirdlərə düşünməyin yollarını, maraqlı və israrlı olmaq vərdişlərini, riyaziyyat dərslərindən kənarda tanış olmayan vəziyyətlərdə də özünə güvənmək bacarığı qazandırır. Təhslin inkişafında mühüm nəticələr əldə edən ölkələrin təcrübəsi göstərir ki, informasiya-kommunikasiya texnologiyalarına əsaslanan, yaradıcı düşüncəni inkişaf etdirən və təhsilalanın fərdi xüsusiyyətlərini nəzərə alan müasir, fəal təlim metodları

daha yüksək nəticələr verir [17, s. 175].

Təbii ki, innovasiyalar tətbiq olunarkən məktəbin daxili imkanları nəzərə alınmalıdır. Bura məktəbin maddi-texniki bazası, müəllimlərin hazırlıq səviyyəsi və s. daxildir.

Həmçinin İKT avadanlıqlarından - elektron lövhələrdən, komputerlərdən və s. istifadə günün tələbinə çevrilmişdir. Bu cür əşyaların artıq həyatımızın bütün sahələrinə nüfuz etdiyini nəzərə alsaq, bunlarsız qurulan dərslər çətin ki, V-VI sinif şagirdlərinin marağına səbəb olsun. Bununla əlaqəli tədqiqatçı alim A.R.Bünyatov yazır: *"Təhsildə İKT-lərin tətbiqinin ən vacib xüsusiyyətlərindən biri kimi təhsilin keyfiyyətnin yüksəldilməsidir"* [7, s. 19].

Dərsin yeni təlim metodları ilə keçirilməsi şagirdlərdə bir sıra müsbət keyfiyyətləri də formalaşdırır. Onlarda əməkdaşlıq, bir-birinin fikirlərinə hörmətlə yanaşmaq, başqalarını dinləmək bacarığı, sərbəst düşünmək, bilikləri müstəqil əldə etmək, yaradıcı tətbiqetmə, ən başlıcası isə özünü və başqalarını obyektiv qiymətləndirmə kimi lazımi vərdişlər yaranır [11, s. 40].

Müasir təlim metodlarından istifadə etmək heç də ənənəvi təlim metodunun üstündən xətt çəkmək demək deyildir. Təbii ki, ənənəvi təlim metodunun da üstünlükləri vardır. Bu metodla yetişən böyük bir nəsil vardır ki, təcrübəli pedoqoji kadrlar olaraq bu gün orta məktəblərdə müasir təlim metodlarını böyük həvəs, bacarıq, istək, ən əsası isə müvəffəqiyyətlə tətbiq edərək yeni nəsil yetişdirməkdədir. Əgər yeni dərsin materialı müasir təlim metodunun tətbiqinə uyğun deyilsə, və ya əksinə müəllim ənənəvi təlim metodunun tətbiqini hazırkı mövzu üçün daha məqsədəuyğun hesab edirsə bu zaman ondan istifadə etməkdə sərbəstdir. Lakin fəal dərsin tələbərini yerinə yetirməyin uzun vaxt tələb etdiyini, fəal dərs zamanı işgüzar səs-küyün olmasını, hətta yeni texnologiyaları bilmədiyini əsas gətirərək dərsləri ənənəvi metod üzərinə qurmaqla müasir dünyanın tələblərinə cavab verən şagirdlər yetişdirmək imkansızdır. Tədqiqatçı alim Z.Babayeva qeyd edir: *"Fənlərin tədrisi ilə bağlı tədqiqatların aparılması zamanı bir məsələ çox düşündürücüdür. Mövzular müxtəlif olmalarına baxmayaraq, əksəriyyətində bir nöqsan qabarıq görünür: kurikulum, interaktiv təlimin prinsip və üsulları nəzərə alınmır, tədqiqat zamanı eksperiment dərslərində istifadə olunmur. Sanki hər bir müəllim dar çərçivədə mövzunun adıyla bağlı məsələlərin müəyyən dərəcədə həlli ilə vəzifəsini bitmiş hesab edir. Dinlədiyimiz dərslərin əksəriyyəti daha çox ənənəvi dərs formasında keçirilməklə, ən yaxşı halda ümumi sual-cavab və testlə fərqlilik gətirir. Müəyyən sayda müəllimlər bəzən elektron lövhdə ya hazır verilmiş təqdimatla dərsi izah edir, ya da hazır CD-lərdən istifadə etməklə yenilik tətbiq etdiyini düşünür. Az sayda gənc və orta yaşlı müəllimlər də vardır ki, internetdən, ensklopediyalardan əlavə məlumatlar toplayaraq, yeni interaktiv üsullardan istifadə ilə dərslərini təşkil edir. Müəllimlərlə görüşüb problemlə bağlı söhbət apardıqda məlum olur ki, hər bir müəllim yeniliklərə müxtəlif baxışla yanaşırlar."* [5, s. 177].

Riyaziyyat məntiqi təfəkkürün formalaşmasında müstəsna rol oynayır.

Riyaziyyat dərslərində istifadə olunan əqli mühakimə üsulları şagirdlərin məntiqi təfəkkürünün inkişafını sürətləndirməklə qalmır, həmçinin diqqətin, hafizənin və nitqin inkişafına təkan verir. Ünsiyyət qurmaq, mühakimə yürütmək, qərar qəbul etmək, müqayisələr aparmaq, isbat və inkar etmək, məntiqi təhlillərin aparılması və s. kimi əqli fəaliyyətlərin riyaziyyat dərslərində şagirdlərə mənimsədilməsi nəzərdə tutulur. Bu sadalanan keyfiyyətlərin ənənəvi metodla qurulan dərslərdə həyata keçirilməsi təbii ki mümkün deyil. Çünki bu gün öyrənənlər elə zəruri biliklərlə təmin olunmalıdır ki, hər bir fərd sərbəst olaraq qloballaşan dünyamızda informasiya cəmiyyətinin fəal üzvünə çevrilsin. Təhsilə edilən dəyişikliklər və yenilikləri yerinə yetirmək üçün ilk növbədə müəllim özü dəyişməlidir. Yəni fənn kurikulumunun tələblərindən irəli gələn dəyişiklikləri bilməli, həmçinin tətbiq etməyi bacarmalıdır. Bir sözlə təlimin yeni texnologiyalarını bilməlidir. İnformasiyanın sürətli və bol olduğu bir zamanda müəllim məlumatlı olmaq məcburiyyətindədir. Əldə olan dərsliklə yetinməməli alternativ dərsliklər, dərs vəsaitlərindən də istifadə etməlidir. Bir sözlə müəllim yaradıcı olmalıdır. Dərslərin bir-birindən maraqlı və fərqli olması şagirdlərin mütləq bu dərsə olan marağını artıracaqdır. Bu günkü müəllim müasir texnologiyaları mənisəməklə ondan yeri gəldikcə istifadə edə bildiyi kimi həmin texnologiyaları yaratmağı, hazırlamağı da bacarmalıdır. Bu mənada müəllim həm adi, həm də elektron resurslardan, onların mahiyyət və məzmunundan xəbərdar olmalıdır. (1, s.24)

NƏTİCƏ

Müasir təlim texnologiyalarının tədris prosesində tətbiqi ən aktual məsələlərdəndir. Təlimdə müvəffəqiyyət qazanmaq üçün əvəzsiz rolu olan təlim texnologiyalarının düzgün zamanda, düzgün seçimlə, uyğun mövzuların tədrisində tətbiqi təlim prosesinin əsas məqsədərindən olmalıdır.

**ƏDƏBİYYAT**


1. Abbasov Ə.M. 12 illik təhsilin xarakterik xüsusiyyətləri / Azərbaycanda təhsil quruculuğunun prioritetləri: müasir yanaşmalar. (Beynəlxalq Konfransın materialları. Naxçıvan, 2015-ci il 5-6 iyun), Bakı: Mütərcim, 2015, s. 22-24
2. Abdullayeva M.V. Ümumtəhsil məktəblərində riyaziyyatın tədrisi prosesində şagirdlərdə qrafik bacarıqların formalaşdırılması üzrə işin sistemi (V-IX siniflər). Avtoreferat, Bakı: 2012, 25 s. (pdf)
3. Ağayev R.Ə. Təlim tərbiyənin səmərəliliyinin artırılmasında şagirdləri düşündürərək öyrətməyin əhəmiyyəti (metodik vəsait). Bakı: Mürtəcim, 1999, 48 s.
4. Azərbaycan Rspublikasinin ümumtəhsil məktəbləri üçün riyaziyyat fənni üzrə təhsil proqrami (kurikulumu) (I-XI siniflər). Bakı: 2013, 138 s. (pdf)
5. Babayeva Z.Y. Yeni təlim texnologiyalarının tədrisdə tətbiqi problemi:məktəb təcrübəsi, alınan nəticələr. Azərbaycanda Təhsil quruculuğunun Prioritetləri: Müasir Yanaşmalar / Beynəlxalq Konfransın materilları. Naxçıva: 2015, s. 177-179.
6. Bədiyev S.R. Şagirdlərin yaradıcılıq qabiliyyətinin inkişaf etdirilməsində yeni təlim texnologiyalarından istifadə. Avtoreferat. Bakı, 2008, 26 s. (pdf)
7. Bünyatov A.R. İnformasiya Kommunikasiya Texnologiyaları sahəsində Profesional ixtisasartırma hazılığı üzrə distant təhsil sisteminin yaradılmasının konseptual əsasları. Bakı: ADPU, 2011, 150 s.

8. Əlieva R. Müasir dərs və onun spesifik xüsusiyyətləri // Milli pedaqogika məktəbi elmi-nəzəri metodik jurnal. Bakı: Adiloğlu, 2013 №2, s. 18-25.
9. Əliyeva F.A, Məmmədova Ü.R, Müasir təlim texnologiyaları. Bakı: MБМ, 2014, 190 s. (pdf)
10. Həsənli O.Q. Təhsilin müasir psixoloji problemləri. Naxçıvan: Əcəmi, 2017, 416 s.
11. İbrahimova K.T. Yeni təlim metodlarının təhsildə tətbiqinin əhəmiyyəti. Təhsil kurikulumları: praktik tətbiqlər. Naxçıvan Müəllimlər İnstitutu. Naxçıvan: 2015, s.40-42.
12. İbrahimov F.N, Hüseynzadə R.L. Pedaqogika (dərslik). I cild, Bakı: Mürtəcim, 2013, 708 s.
13. İsmayılova S.C, Hüseynova A.T. VI sinif Riyaziyyat dərsliyi. Bakı:Şərq-Qərb, 2018, 208 s.
14. Qəhrəmanova N.M., Hüseynov F.H. V sinif Riyaziyyat dərslyi. Bakı: Radius, 2020, 224 s.
15. Nəzərov A.M., Müasir təlim texnologiyaları. Dərs vəsaiti. Bakı: ADPU, 2012. 103 s.
16. Rəhimova S., Riyaziyyat fənnini necə sevdirməli? / Azərbaycan müəllimi, 28 yanvar, 2017
17. Tarverdiyev C. Riyaziyyat dərslərində innovativ təlim metodlarından istifadə imkanları. Azərbaycanda Təhsil quruculuğunun Prioritetləri: Müasir Yanaşmalar / Beynəlxalq Konfransın materilları, Naxçıvan, 2015, s. 175-176 s.

## ЗНАЧЕНИЕ ИСПОЛЬЗОВАНИЯ СОВРЕМЕННЫХ МЕТОДОВ В ПРОЦЕССЕ ОБУЧЕНИЯ

**А.М.СЕИДОВА**

### РЕЗЮМЕ

После обретения Азербайджаном независимости во всех сферах, в том числе и в образовании, произошли коренные изменения, были начаты целенаправленные реформы. Этот шаг был предпринят в связи со строительством нового общества в нашей стране и с целью его интеграции в международное сообщество. Целью образовательной реформы, проводимой в нашей республике, является воспитание всесторонне сформированной активной личности, способной усваивать национальные и общечеловеческие ценности, творчески и критически мыслить, обеспечивая эффективность процесса обучения. Сегодня учащиеся должны быть обеспечены необходимыми знаниями, чтобы свободно стать активным членом информационного общества в нашем глобализированном мире. Чтобы осуществить изменения и нововведения в образовании, обучающий, прежде должен провести самоизменения. Должен быть в курсе изменений, вытекающих из требований современной системы образования, а также уметь применять инновации. Одним словом, он должен знать новые технологии обучения. Обсуждена важность современных методов обучения математике в V-VI классах. Построение уроков в этих классах на основе новых методов обучения развивает логическое мышление учащихся, расширяет их кругозор. Уроки, основанные на современных технологиях обучения, не только интересны, но и служат основой для применения изученного материала, запоминающегося характера темы, развития у учащихся навыков понимания прочитанного, участия всех учащихся в процессе обучения и, самое главное, ориентированное на результат.

**Ключевые слова:** средняя школа, ученик, математика, учитель, V-VI классы, метод обучения, применение

## THE IMPORTANCE OF USING MODERN METHODS IN THE LEARNING PROCESS

**A.M.SEYIDOVA**

**SUMMARY**

After Azerbaijan gained its independence, fundamental changes were made in all spheres, including education, and purposeful reforms were launched. This step was taken in connection with the establishment of a new society in our country and in order to integrate it into the international arena. The purpose of the education reform implemented in our country is to raise a well-formed active personality with national and universal values, creative and critical thinking, ensuring the effectiveness of the teaching process. Today, learners should be provided with the necessary knowledge so that each individual can freely become an active member of the information society in our globalized world. In order to implement changes and innovations in education, the teacher must first change himself. He must be aware of the changes arising from the requirements of the modern education system, as well as be able to apply innovations. In short, he must know the new technologies of training. The importance of modern methods of teaching mathematics for V-VI grades was discussed. The construction of lessons in these classes on the basis of new teaching methods develops students' logical thinking and expands their worldview. Lessons based on modern learning technologies are not only interesting, but also provide a basis for the application of the studied material, the memorable subject, the development of students' comprehension skills, the participation of all students in the teaching process and, most importantly, results-oriented.

**Keywords:** secondary school, student, math, teacher, grades V-VI, teaching method, application

**BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ**

*№3 Sosial-siyasi elmlər seriyası 2020*

## PSİXOLOGİYA

**UOT 159.9**

**orcid id: 0000-0003-0007-1821**
**orcid id: 0000-0002-0503-9006**
**orcid id: 0000-0001-9086-3966**

# MƏKTƏBLİ MÜHİTİNDƏ BULLİNQ PROBLEMİNİN ƏSAS TƏDQİQİ İSTİQAMƏTLƏRİ

**E.İ.ŞƏFİYEVA, S.A.ALLAHYAROVA, A.F.SƏMƏNDƏROVA**
***Bakı Dövlət Universiteti***
***shafiyeva@mail.ru, seva68@mail.ru, a.sudan77@mail.ru***

*Məqalədə məktəbli mühitində bullinq fenomeninin mahiyyəti açıqlanır, problemin əsas tədqiqi istiqamətləri nəzərdən keçirilir. Məktəbli mühitində bullinqin əsas əlamətləri, göstəriciləri və təzahür formaları təhlil edilir. Bullinqin təzhüründə gender fərqlərindən, eləcə də məktəbli bullinqinin fəsadlarından bəhs edilir. Aparılmış tədqiqatlar göstərir ki, şagirdlərin 42%-i bullinqə müstəqil olaraq qarşı durmağa çalışır. Məlum olduğu kimi, qurban həmişə bullerdən daha zəifdir və özünü təklikdə müdafiə edə bilmir. Şagirdlərin 24%-i bildirir ki, onlar bulliqə məruz qalmaları haqqında müəllim və valideynlərinə məlumat vermişlər. 12% şagird güclü, avtoritet qazanmış uşaqlarla dostluq etməyə, onlardan dəstək almağa çalışırdı. Çox az hallarda bullinq qurbanları aqressorla dil tapmağa çalışır. 13% uşaqlar bu problemdən çıxış yolu görə bilir və situasiya ilə necə bacaracaqlarını bilmirlər. Onlardan 8%-i aqressoru kənarlaşdırmaq lazım olduğunu düşünürlər (başqa sinifə keçirmək, məktəbdən qovmaq və s). 7% şagird bullinqi qaçınılmaz hesab edir, 3% şagird isə bullinqi çox əyləncəli bir məşğuliyyət kimi qiymətləndirir.*

**Açar sözlər:** bullinq, aqressiya, məktəb, yeniyetmələr, qurban, buller, psixoloji sağlamlıq, depressiya, intihar

**Giriş**. Məktəbli mühitində bullinq fenomeni son zamanlar bir sıra ölkələrin təhsil müəssisələri üçün səciyyəvi olan və cəmiyyətdə narahatlığa səbəb olan çox ciddi problemlərdən biridir.

Demək olar ki, hər bir şagird ən azı bir dəfə məktəbli mühitində digər şagirdlərlə qarşılıqlı təsir prosesində bullinqin müxtəlif formaları ilə qarşılaşır. Bunu araşdırdığımız problemlə bağlı dünya statistikası da təsdiqləyir. Belə ki, statistik məlumatlar göstərir ki, 12-18 yaş arası məktəblilərin 20%-i məktəbli mühitində bullinqin məsxərə, qısnama, hədə-qorxu, birgə fəaliyyətdən təcrid etmə və s. kimi müxtəlif formaları ilə qarşılaşır, onlardan 30-%-i isə bullinqin törədilməsi prosesində iştirak edir [15].

Norveçdə aparılmış oxşar tədqiqatlar nəticəsində isə qızların 2,5%-nin, oğlanların 11%-nin öz həmyaşıdlarına qarşı müxtəlif bullinq formalarını tətbiq etdikləri aşkar edilmişdir.

ABC News-un statistikasına görə, hər gün 160000 uşaq məhz bullinq qorxusundan məktəbə getməkdən imtina edir [14].

OECD-nin (İqtisadi əməkdaşlıq və inkişaf təşkilatı) məktəblərdə bullinqə dair hesabatına əsasən Türkiyədə 15 yaşlı şagirdlərin 19%-i ayda ən az bir neçə dəfə öz yaşıdları tərəfindən bullinqin fiziki və verbal formalarına məruz qalırlar.

Rusiyanın bir sıra məktəblərində də 2000-ci ilin sonundan balayaraq bullinq problemi araşdırılmış və müəyyən edilmidir ki, müxtəlif Moskva məktəblərində təhsil alan 1200 şagirddən 78%-i oxuduqları məktəbdə şagirdlər arasında bullinq hallarının şahidi olmuşlar. Ümumiyyətlə, rusiyalı tədqiqatçılar 2010-cu ildə apardıqları araşdırmaları nəticəsində 11 yaşına qədər məktəblilər arasında oğlanlardan 22%-nin, qızların isə 21%-nin öz həmyaşıdları tərəfidən bullinqin müxtəlif formalarına məruz qaldıqlarını müəyyən etmişlər.

**Problemin elmi və tətbiqi aspektləri**. Müşahidələr göstərir ki, bir sıra hallarda bullinqə məruz qalan əksər şagirdlər bu haqda susmağa üstünlük verir. Məktəb rəhbərliyi isə məktəbin imicini düşünərək daxildə baş verən bullinq situasiyalarını ictimailəşdirmir, bəzən isə görməzdən gəlir. Lakin yaşanılmış bullinq şagirdlərdə fəsadsız ötüşüb keçmir. İstər fiziki, istərsə də psixoloji baxımdan onlara cidd travma vurur. Belə ki, məktəb bullinqinə məruz qalmış yeniyetmələr tez-tez baş ağrısından, yuxu pozuntusundan, mədə-bağırsaq ağrılarından, qorxulardan, pis əhvaldan, depressiya və həyəcanın müxtəlif əlamətlərindən əziyyət çəkirlər. Bullinq qurbanlarında bullinqə məruz qalmayanlarla müqayisədə depressiya səviyyəsi daha yüksək olur, suisidal fikir və cəhdlər müşahidə edilir. Belə ki, Yel universitetinin araşdırmaları göstərir ki, bullinqə məruz qalanların intihar etmə ehtimalı bullinqə məruz qalmayanlarla müqayisədə 2-9 dəfə daha yüksəkdir [13].

Xəstəliklərin idarə edilməsi və qarşısının alınması üçün mərkəzlərin məlumatına görə isə il ərzində təqribən 4400 nəfər gənc məhz bullinq üzündən intihar edir. Ümumiyyətlə, gənclərin intihar səbəbi kimi məhz bullinq 3-cü yerdə dayanır. İngiltərədə aparılan tədqiqatlar da, eynilə gənclər arasında təsadüf edilən intiharların ən azı yarısının məhz bullinq üzündən baş veridyini göstərir.

Bullinqin şagirdlərin fiziki və psixoloji sağlamlığına ciddi ziyan vurması, hətta bəzi hallarda intihara səbəb olması bu problemin tədqiqini, eləcə də bu istiqamətdə səmərəli psixoloji tövsiyələrin hazırlanmasını aktual edir. Nəzərə alsaq ki, respublikamızda bu problemin sosial, psixoloji və klinik tərəfləri araşdırılmamışdır, bu baxımdan, xarici ölkələrdə bullinq probleminin tədqiqi istiqamətləri böyük maraq doğurur.

İlk dəfə olaraq məktəbli mühitində bullinq problemi XX əsrin 70-ci illərində skandinaviyalı tədqiqatçılar D.Olveus, P.Xayneman, A.Pikas, E.Rolandın diqqətini cəlb etmişdir. Onlar ilkin olaraq bullinqi oğlanlar arasında tədqiq

edərək, onu zorakılığın xüsusi forması kimi nəzərdən keçirmişlər. Hansı ki, bu zaman bir insan digər, daha zəif və gücsüz olan insana fiziki olaraq hücüm edir və ya ona hədə-qorxu gəlir. Bu zaman hər iki bullinq iştirakçısında bu cür hücumdan sonra emosional travma, eləcə də bir daha bu cür hücumun təkrarlanması ehtimalı ilə bağlı qorxu təzahür edir. Bullinq zamanı həm bullerlər və həm də qurbanlar eyni bir qarşılıqlı sosial qrupun tərkib hissələri kimi çıxış edir.

Den Olveusa görə, uzunmüddətlilik, mütəmadiliklə səciyyələnən bullinq həm psixoloji, həm də intellektual aspektdə təzahür edə bilər.

Müəlliflərdən D.Leyn və Tatum məktəbli bullinqini yaranmış situasiyada özünü müdafiə etməyə qabil olmayan şagirdə münasibətdə digər şagird və ya şagirdlər qrupu tərəfindən tətbiq edilən uzunmüddətli fiziki və ya psixi zorakılıq kimi izah edirdi [12, s.240].

İ.Berdışev bullinqi özünümüdafiə xarakteri daşımayan, bir və ya bir neçə şəxs tərəfindən törədilən şüurlu, davamlı zorakılıq kimi şərh edirdi [3, s.3].

Xed isə eynilə D.Leyn kimi hesab edirdi ki, bullinq yaranmış situasiyada özünü müdafiə etmək iqtidarında olmayan insana şüurlu olaraq ağrı yetirmək, qorxutmaq, onu uzun müddət gərginliyə məruz qoymaq məqsədi daşıyan, bir insan və ya qrup tərəfindən həyata keçirilən uzunmüddətli fiziki və ya psixoloji zorakılıqdır.

Müəlliflərdən İ.S.Kon bullinqi digər şagirddə qorxu hissi yaradaraq onu özünə tabe etməyi nəzərdə tutan fiziki və ya psixoloji terror kimi başa düşürdü [6, s.15-18].

Göründüyü kimi, bu müəlliflər bullinqi zorakılıq kimi başa düşür. Lakin bullinq zorakılığın bir növüdür. Bu səbəbdən də fikrimizcə, S.V.Krivtsovanın bullinqə verdiyi izahı daha məqsədəuyğun hesab etmək olar. S.V.Krivtsova bullinqi belə izah edir: “Bullinq bir qrup uşaqların digər qrup uşaqlara qarşı aqressiyası olub, təkrarlanma meylinə malikdir və aqressorla onun qurbanının qüvvələrinin qeyri-bərabərliyini nəzərdə tutur. Qüvvələrin qeyri-bərabərliyi və təkrarlanma bullinqin iki əsas əlamətidir” [8, s.115].

Bullinq fenomeninin mahiyyətinin izahı ilə bağlı əsas yanaşmalar öz əksini aşağıdakı cədvəldə tapmışdır [10, s.20]:

Cədvəl 1

**Bullinqin mahiyyətinə dair əsas yanaşmalar**

| Müəllif | Anlayışın izahı |
|---|---|
| Roland (1988) | Bullinq istənilən xarakterli hücumu nəzərdə tutur |
| Tatum (1989) | Bullinq yanamış situasiyada özünü müdafiə etməyə qabil olmayan fərdə münasibətdə digər fərd və ya qrup tərəfindən həyata keçirilən uzunmüddətli fiziki və ya psixoloji zorakılıqdır |
| Bezaq V. (1989) | Bullinq hakimiyyəti formal və ya situativ olaraq özünü müdafiə etmək imkanı olmayanlardan daha yüksək olan insanlara qarşı mütəmadi olaraq fiziki, psixoloji, sosial və ya verbal hücumu nəzərdə tutan və məmnunluq duymaq üçün izdirab vermək məqsədi daşıyan davranışdır |

| | |
|---|---|
| Olveys D. (1991) | Bullinq zorakılığın elə bir xüsusi növüdür ki, bu zaman insan özündən zəif və gücsüz olan insana onu qorxması, uzun müddət özünü təcridlikdə hiss etməsi üçün ona fiziki olaraq hücum edir, hədə qorxu gəlir. |
| Xed (1994) | Bullinq yaranmış situasiyada özünü müdafiə etmək iqtidarında olmayan insana şüurlu olaraq ağrı yetirmək, qorxutmaq, onu uzum müddət gərginliyə məruz qoymaq məqsədi daşıyan, bir insan və ya qrup tərəfindən həyata keçirilən uzunmüddətli fiziki və ya psixoloji zorakılıqdır. |
| Xaltser (1996) | Bullinq mütəmadi olaraq daha dominant subyektin daha az dominant subyektə münasibətdə nümayiş etdirilən və onda çaşqınlıq yaradan destruktiv qarşılıqlı təsirdir. |
| Krivtsova S.V. (2011) | Bullinq bir qrup uşaqların digər qrup uşaqlara qarşı aqressiyası olub, təkrarlanma meylinə malik olan, və aqressorla onun qurbanının qüvvələrinin qeyri-bərabərliyini nəzərdə tutur. Qüvvələrin qeyri-bərabərliyi və təkrarlanma bullinqin iki əsas əlamətidir |

Bu istiqamətdə aparılan sonrakı tədqiqatlarda da müxtəlif tədqiqatçılar bu təzahürü izah edən öz anlayışlarını təklif edirdilər. Lakin bu anlayışların hamısı aqressor qarşısında müdafiə oluna bilməməklə fərqlənən şagird və ya şagirdlər (insanlar) qrupuna münasibətdə fiziki, psixoloji zorakılıqla müşayiət edilən böyük sosial, psixoloji və pedaqoji problemlərin olmasını əks etdirirdi.

Məsələyə bu mövqedən yanaşaraq qeyd etmək olar ki, bullinq klassik anlamda davranış deyil, özünə çoxsaylı aqressiv davranışın spesifik tiplərini və alt tiplərini daxil edən xüsusi destruktiv qarşılıqlı təsir formasıdır.

Yuxarıda qeyd edilən xarakteristikalar bullinqlə təsadüfi konflikt, dava arasındakı fərqi anlamağa imkan verir.

Qeyd etmək lazımdır ki, bullinq müəyyən dərəcə öz strukturuna görə konfliktlə oxşar olsa da, onlar bir-birindən öz spesifik xüsusiyyətlərinə görə fərqlənir: bullinq zaman baxımından daha davamlı olur, bullerlə qurbanın qüvvəsi öz potensialına görə asimmetrik, qeyri-bərabərdir. Bullinq iştirakçılarının tipləri dəqiq müəyyən edilib (buller, qurban, şahid, bullinin köməkçisi, qurbanın müdafiəçisi) və bu səbəbdə də bu tip davranışda rolu dəyişmək çox çətindir.

Bundan əlavə, konflikt öz mahiyyətinə görə bullinqdən köklü olaraq fərqlənir. Belə ki, konfliktdə konfliktin hər iki tərəfi bu və ya digər dərəcədə öz mövqelərini müdafiə edə bilir. Bullinqdə isə yalnız bir tərəf müəyyən “hüquqlara” malikdir, digər tərəfə isə özünü müdafiə etmək üçün hansısa mövqe bildirmək “hüququndan” imtina edilir [10, s.15].

Deyilənlərdən belə nəticə çıxarmaq olar ki, bullinq destruktiv davranış tipi olub özünü müdafiə edə bilməyən qurbana münasibətdə özünə zorakılıq hərəkətləri daxil edir, psixoloji və fiziki məmnunluq əldə etmək üçün ona uzun müddət ərzində ziyan vurmağı nəzərdə tutur.

Bullinq qurbana qəsdən ziyan vurmaq və onu qarşı tərəfə müqavimət

göstərməkdən məhrum etmək; qurbanı alçaltmaq və ləyaqətinə toxunmaq, onun həm psixi, həm də fiziki sağlamlığına xələl yetirməklə səciyyələnir [2, s.22-26].

Bullinq həmişə qrupda təzahür edir və ətrafdakıları bu prosesə cəlb edir (bu xüsusiyyətinə görə bullinq konfliktlə oxşardır). Bullinq heç vaxt öz özünə dayana bilməz. Yalnız 3-cü tərəfin müdaxiləsindən sonra, yaxud qurbanla bulleri fiziki olaraq bir birindən uzaqlaşdırmaqla bu prosesə son qoymaq olar.

Bu problemə həsr edilmiş elmi ədəbiyyatın təhlili göstərir ki, bəzi mənbələrdə ilkin olaraq bu problem qrupda adi fəaliyyətlə məşğul olmağa mane olan bir insana kollektiv şəkildə hücüm kimi nəzərdən keçirilirdi və "mobbinq" anlayışı ilə ifadə olunurdu. K.Lorens "mobbinq" terminindən özlərindən fərqlənən şagirdlərə qarşı birləşmiş məktəblilər qrupunu səciyyələndirmək üçün istifadə edirdi.

Eyni zamanda bullinq aşağıdakı xüsusiyyətlərə malikdir [4]:

1. Mütəmadilik;
2. Qəsdən olma;
3. Ziyan vurma;
4. Öz qücündən sui istifadə etmə.

Məktəbli mühitində bullinqin əsas göstəricisi aşağıdakılardır: zorakılıq (fiziki, psixoloji, emosional); bullinq həm tək, həm də qrup şəklində icra edilə bilər, bullinq aşkar şəkildə fiziki və psixoloji baxımdan zəif olan insana qarşı yönəlir, sistematik, uzunmüdətli və dərkedilmiş xarakter daşıyır.

Bullinq prosesi özününəməxsus yaş, cins və digər psixoloji qanunauyğunluqlara malikdir. Amerikan psixoloqlarından Pelleqrini və Bartinin müşahidələrinə görə 10-12 yaşlı oğlanlarda bullinq dərs ilinin başlanğıcında daha güclü təzahür edir. Məhz bu zaman oğlanlar qrup ierarxiyasında yer tutmaq uğrunda fəal olaraq mübarizə aparır. Bir qədər sonra bu proses bitdikdə, ierarxiya artıq formalaşdıqda bullinq zəifləyir. Artıq hər kəs bu ierarxiyada öz yerini bilir.

Bullinqin cins xüsusiyyətləri oğlanların yüksək aqressivliklərindən daha çox oğlanların normativ mədəniyyətinin xüsusiyyətləri ilə bağlıdır. Bu cəhət yaş artdıqca dəyişir. Kiçik yaşlı oğlanlar mühitində fiziki aqressivlik bir qayda olaraq həmyaşıdları içərisində qeyri-popularlıq və onlar tərəfindən sosial baxımdan qəbul edilməməklə nəticələnir. Kiçik yaşlı yeniyetmə oğlnalarda vəziyyət dəyişir: aqressivlik əksinə onların əvvəl öz cinsindən olan yaşıdlar qrupu arasında, sonra isə qızlar arasında statusunun yüksəlməsinə gətirib çıxarır.

Oğlan və qızlar bullinqin fərqli formalarından istifadə edir. Britaniyalı psixoloqlara görə, qızlar tərəfindən həyata keçirilən bullinq daha təhlükəlidir. 16 ay müddətində 11 yaşlıların davranışının monitorinqini həyata keçirən Valeri Besaq müəyyən etmişdir ki, əgər oğlanlar hansısa şagirdi "qurbanlıq keçi" olaraq seçərək ona sadəcə fiziki üstünlüyünü nümayiş etdirirsə, qızlar öz qurbanlarına qarşı əsl psixoloji müharibəyə başlayır. Dedi-qodu, verbal təhqirlər və boykotlar qızların ən çox istifadə etdiyi bullinq formasıdır. Belə təkrarlanan təhqiredici hərəkətlər bu hərəkətlərin yönəldiyi uşaqların fiziki və

emosional inkişafına ziyan yetirə bilər. Psixoloqlar belə bir cəhəti müəyyən etmişlər ki, qızlar tərəfindən bullinqə məruz qalanlar gələcəkdə münasibətlərin qurulmasında çətinlik yaşayır, öz övladlarını həddən artıq himayə edir və iş yerində tez-tez bullinq qurbanına çevrilir.

Ümumiyyətlə, tədqiqatçılar məktəbli bullinqinin bir neçə əsas əlamətini fərqləndirir: neqativ davranış, bu davranışın qəsdən törədilməsi, mütəmadiliyi, qüvvələrin qeyri-bərabərliyi, qurbanın qeyri-adekvat yüksək həssaslığı və qurbanın kəskin emosional reaksiyası.

Məktəbli bullinqini araşdıran bir sıra tədqiqatçılar bullinqin bütün təzahürlərini iki qrupa bölür:

I qrup – daha fəal alçaldılma formaları ilə bağlı olan təzahürlər;

II qrup – qurbanların şüurlu təcrid edilmələri ilə bağlı təzahürlər [4].

Müxtəlif tədqiqatçılar uşaqların məktəbli bullinqinə cəlb edilməsi ilə bağlı fərqli göstəricilər təqdim edir. Bəzi xarici ölkə tədqiqatçıları qeyd edir ki, məktəbli bullinqinə məruz qalan uşaqlar 10%-dən 25%-ə qədərdir. Digər tədqiqatçıların sorğularının nəticələri bu göstəricinin 40% olduğunu müəyyən edib. III qrup tədqiqatçılar isə məktəb bullinqində şagirdlərin 82-85% -nin iştirak etdiyini bildirir.

S.V.Krivtsova D.Olveusun tədqiqatlarının nəticələrinə əsaslanaraq qeyd edir ki, bütün inkişaf edən ölkələrdə qızların 16%-i, oğlanların isə 17%-i ayda 2-3 dəfə bullinq qurbanı olur. Və onların hansı məktəbdə - dövlət ya özəl- oxumalarının heç bir fərqi yoxdur. Bullinqə hər zaman öz avtoritetini təsdiq etmək, hər hansı mənfəət əldə etmək və ya əylənmək istəyən şagirdlərdən biri başlayır. Digər şagirdlər bullerin bu hərəkətlərini müşahidə edərək ya bu hərəkətlərə etinasız yanaşır, yada etiraz edərək müdaxilə etməyə çalışırlar [8, s. 119].

İ.Kon məktəblərdə bullinqin mövcudluğu ilə bağlı yuxarıda göstərilən rəqəmlərdəki fərqi bullinq fenomeninin fərqli şərh edilməsi ilə əlaqələndirir. Belə ki, bəzi tədqiqatçılar ciddi aqressiya aktlarını, digərləri istənilən hədə-qorxu və təhqiri bullinq adlandırır [7, s.312].

Yuxarıda da qeyd etdiyimiz kimi, bullinqin əsas meyarlarından biri onun təzahür etmə tezliyidir. S.V.Krivtsova keçirdiyi tədqiqat nəticəsində orta və yuxarı siniflərdə bullinqlə bağlı halların aşağıdakı tezliyini fərqləndirir: sorğuda iştirak edənlərin 9 %-i həftədə bir neçə dəfə, 5%-i həftədə bir dəfə, 8 %-i ayda 2-3 dəfə, 29%-i ayda 1-2 dəfə bullinqə məruz qaldıqlarını bildirmişlər.

Bullinqin mövcudluğunun ikinci göstəricisi onun davamlılığıdır. Məsələn, 1200 şagirdlə "Kids Poi" internet saytında keçirilmiş sorğusunun nəticələri göstərmişdir ki, onlardan 48%-i bullinqə məruz qalmışlar. Özü də onlardan 15%-i mütəmadi olaraq bullinqə məruz qalırdılar. 42% şagird isə digərlərini bullinqə məruz qoyurdular. Onlardan 20%-i mütəmadi olaraq bullinqi icra etmişlər.

Məktəbli mühitində bullinqin digər göstəricisi onun xarakteri ilə bağlıdır: fiziki, psixoloji və ya qarışıq. V.S.Sobkinin, M.M.Smıslovanın tədqiqatları göstərir ki, Moskva məktəblilərinin 0,7-4% yuxarı sinif şagirdləri mütəmadi

olaraq fiziki və psixoloji, 46%-i isə epizodik olaraq psixoloji xarakterli bullinqə məruz qalmışlar [11, s.130-136].

Bullinqin 4-cü göstəricisi onun iştirakçılarıdır: buller, bullinq qrubanı və bullinqin müşahidəçiləri. Omsk şəhərində yeinyetmə şagirdlər arasında aparılmış tədqiqat zamanı müəyyən edilmişdir ki, respondentlərin 86% oxuduqları məktəbdə bullinqlə qarşılaşmışlar, onlardan 7%-i bullinqin şahidləri, 13%-i bullinq qurbanları, 17%-i isə bullilər idilər.

S.V.Volikova bildirir ki, bullinq qurbanları və bullinqin şahidləri bullinqin səbəbi kimi zahiri xüsusiyyətləri qeyd edir. Eyni zamanda bullinqə səbəb kimi qurbanların digər şagirdlərdən fərqlənən davranışları və təlim uğurları (və ya uğursuzluqları) çıxış edir [5, s. 25-30].

Şagirdlərin 55%-i xarici görünüşü, 15%-i davranışı, 11%-i milliyyəti, 8%-i maddi vəziyyəti, 7%-i xarakteri, 6%-i isə təlim uğurları(və ya uğursuzluqlarını) göstərmişlər.

Onlar bullinqin növləri arasında birinci yerdə davanı (44%), II yerdə dedi-qodunu, şayəni (39%), III yerdə boykotu (31%), IV yerdə təhqirləri (13%), V yerdə isə məsxərəni qoymuşlar (11%). Son yerlərdə hədə-qorxu (4%) və şəxsi əşyaların korlanması gəlir (2%) [1, s.45-50].

Bullinq müəyyən nəticələrə gətirir. Bullerlərdə, bullinq qurbanlarında və bullinqin müşahidəçilərinin psixoloji sağlamlığında, şəxsiyyətində dəyişikliklər müşahidə olunur. Özü də bu dəyişikliklər heç də müsbət tərəfə olmur və onların bütün həyatlarında öz izlərini qoyur.

Məktəbli bullinqinə məruz qalmış uşaqlarda depressiya səviyyəsi dəfələrlə yüksəkdir [17, s.17-22]. Onlar baş ağrısından, depressiya və həyəcanın müxtəlif simptomlarından, yuxu, əhval və iştahla bağlı pozuntulardan əziyyət çəkir. Bullinqin izləri bu uşaqlarda həyatlarının sonuna qədər mühafizə olunur, bəzi hallarda isə onlarda ciddi posttravmatik stress pozuntusunun inkişafına səbəb olur.

Xarici tədqiqatlar göstərir ki, bullinq qurbanlarında aşağı özünüqiymətləndirmə, depressiv və həyəcan pozuntuları, suisidal fikir və cəhdlər müşahidə edilir [16, s.154].

İ.S.Berdışev və M.Q.Neçayev göstərir ki, bullinq qurbanlarında bullinqin klinik nəticələri müxtəlif dezadaptasiya formasında, postravmatik reaksiyalar, eləcə də paranoidal reaksiyalar şəklində təzahür edir [4].

Məktəbli bullinqi təkcə qurbanlara deyil, bullerlərin özlərinə də neqativ təsir göstərir. Belə ki, P.Rantanenin 16410 yeniyetmə üzərində apardığı tədqiqatlardan məlum olmuşdur ki, depressiyanın yüksək səviyyəsi və suisidal fikirlər təkcə bullinq qurbanlarında deyil, həm də öz sinif yoldaşlarını fiziki və psixoloji aqressiyaya məruz qoymuş bullerlərin özlərində də müşahidə edilir.

İ.Konun araşdırmaları göstərmişdir ki, demək olar ki, bütün ölkələrdə bullinq daha çox oğlanlar arasında yayılıb və oğlanlar daha çox bullinq qurbanı olurlar. Bullinq sadəcə kobudluq, dəcəllik deyil. Bu qarşılıqlı münasibətlərin xüsusi formasıdır [7, s.125].

**Nəticə**. Beləliklə də, elmi ədəbiyyatın nəzəri təhlili əsasında belə qənaətə gəlmək olar ki, məktəb bullinqi bir çox ölkələr üçün səciyyəvi olan problemdir. Məktəb bullinqi destruktiv şəxsiyyətlərarası qarşılıqlı təsirin bir forması kimi başa düşülür. Bu zaman bir şəxs yaxud qrup buller kimi, psixoloji, fiziki baxımdan zəif olan digəri isə qurban kimi çıxış edərək, uzun müddət, sistematik olaraq fiziki, psixoloji, emosional zorakılığa və aqressiyaya məruz qalır.

**ƏDƏBİYYAT**


1. Авернов А. И. Буллинг как вызов современной школе // - М.: Педагогика, психология и социология, - 2013. № 18, - с. 45-50
2. Авернов А.И. Школьный буллинг в воспоминаниях студентов МГПИ // Материалы международной научной практической конференции «Современные проблемы и пути их решения в науке», - Одесса, Вып. 4, том 15, - 2011, - с.22-26
3. Бердышев И.С. Лекарство против ненависти / И.С. Бердышев, Е. Куценко // Первое сентября, - 2005, - № 18, - с. 3.
4. Бердышев И.С. Медико-психологические последствия жестокого обращения в детской среде. Вопросы диагностики и профилактики: [Электронный ресурс] / - Санкт Петербург: «Региональный центр «Семья», - 2005. – URL: http://www.homekid.ru/bullyingPart1.html#d (дата обращения: 20.10.2015)
5. Воликова С.В. Школьное насилие и суицидальное поведение детей и подростков /С.В.Воликова, А.В. Нифонтова, А.Б. Холмогорова // Вопросы пихологии., - Москва: 2013. № 2, - с. 25-30.
6. Кон И.С. Что такое буллинг и как с ним бороться? // - Москва: «Семья и школа». – 2006, № 11, - с.15-18.
7. Кон И.С. Мальчик – отец мужчины / И.С. Кон.- Москва: Время, - 2009, -704 с.
8. Кривцова С.В. Буллинг в школе VS сплоченность неравнодушных / С.В.Кривцова. - Москва: Федеральный Институт развития образования, центр развития психологической службы, - 2011,- 119 с.
9. Кутузова Д.А. Травля в школе: что это такое и что можно с этим делать // - Москва: Журнал практического психолога, - 2007, №1, -с.72-90
10. Ларченко Н.А. Буллинг-причины, формы, профилактика. / Н.А. Ларченко. – Волгоград:, - 2015, 23 с.
11. Собкин В.С. Жертвы школьной травли: влияние социальных факторов // В.С.Собкина, М.М.Смысловая – Москва : Труды по социологии образования, - 2012. Том XVI, Вып. XXVIII., - с. 130-136.
12. Школьная травля (буллинг). Детская и подростковая психотерапия / Под ред. Д.А.Лейна, Э.Миллера. - Санкт Петербург: Питер, - 2001, с 240-274
13. Bullying-suicide link explored in new study by researchers at Yale: [Electronic resource] / - July 16, 2008. – URL: https://news.yale.edu/2008/07/16/bullying-suicide-link-explored-new-study-researchers-yale
14. Donaldson S.J. Teen Commits suicide due to bullying: parents sue school for son´s death: [Electronic resource] / - april 1, 2009. - URL: https://abcnews.go.com/Health/MindMood-News/story?id=7228335
15. Facts about bullying: [Electronic resource]/ -2019. - URL: https://www.stopbullying.gov/-media/facts/index.html#stats
16. Fekkes M., Pijpers F., Verloove-Vanhorick P. Bullying behavior and associations with psychosomatic complaints and depression in victims / M.Fekkes, F.Pijpers, P.Verloove-Vanhorick // J. Pediatr, - The Netherlands: - 2004. V. 144. N 1, - p.17-22.
17. Losey B. Bullying, suicide and homicide. Understanding, assessment and preventing threats for victims of bullying / B.Losey. – USA: Routledge, - 2011. - 172 p.

# ОСНОВНЫЕ НАПРАВЛЕНИЯ ИССЛЕДОВАНИЯ ПРОБЛЕМЫ БУЛЛИНГА В ШКОЛЬНОЙ СРЕДЕ

**Э.И.ШАФИЕВА, С.А.АЛЛАХЯРОВА, А.Ф.САМАНДАРОВА**

**РЕЗЮМЕ**

В статье раскрывается сущность феномена буллинга в школьной среде, рассматриваются основные направления исследования этой проблемы. Анализируются основные черты, признаки и проявления школьного буллинга. Исследуются гендерные различия в проявлении буллинга, а также его последствия в школе. Исследования показывают, что 42% студентов пытаются противостоять издевательствам самостоятельно. Как известно, жертва всегда слабее хулигана и не может защитить себя в одиночку. 24% учеников сообщили, что они сказали своим учителям и родителям о том, что над ними издевались. 12% учеников пытались подружиться и заручиться поддержкой сильных, авторитетных детей. В очень редких случаях жертвы издевательств пытаются найти общий язык с агрессором. 13% детей не видят выход из этой проблемы и не знают, как справиться с ситуацией. Из них 8% считают, что агрессора нужно удалить (перевести в другой класс, исключить из школы и т.д.). 7% студентов считают травлю неизбежной, а 3% учащихся считают травлю очень занимательным занятием.

**Ключевые слова:** буллинг, агрессия, школа, подростки, жертвы, буллеры, психическое здоровье, депрессия, суицид

# MAIN AREAS OF STUDY OF THE PROBLEM OF SCHOOL BULLYING

**E.I.SHAFIYEVA, S.A.ALLAHYAROVA, A.F.SAMANDAROVA**

**SUMMARY**

This article reveals the essence of the phenomenon of bullying in the school environment, examines the main directions of research on this problem. The main features, signs and manifestations of school bullying are analyzed. The article examines gender differences in the manifestation of bullying, as well as its consequences in school. Research shows that 42% of students try to resist bullying on their own. As you know, the victim is always weaker than the bully and cannot defend himself alone. 24% of students reported that they told their teachers and parents that they were bullied. 12% of students tried to make friends and enlist the support of strong, authoritative children. In very rare cases, victims of bullying try to find common ground with the bully. 13% of children do not see a way out of this problem and do not know how to cope with the situation. Of these, 8% believe that the aggressor should be removed (transferred to another class, expelled from school, etc.). 7% of students consider bullying to be inevitable, and 3% of students consider bullying to be very entertaining.

**Keywords:** bullying, aggression, school, adolescents, victims, bullers, mental health, depression, suicide

# MÜNDƏRİCAT

## HÜQUQ

**Rzayeva G.A.**
Virtual məkan, kibertəhlükələr və insan hüquqlarının müdafiəsi ....................... 5

## BEYNƏLXALQ MÜNASİBƏTLƏR

**Qaraşova S.**
Azərbaycan Respublikası müasir geosiyasi sistemdə .......................................... 17

## FƏLSƏFƏ

**Hacıyev Z.C.**
Təbii-elmi biliklərin aksioloji aspekti .................................................................. 32
**Kərimova N.İ.**
Lev Qumilyovun passionarlıq nəzəriyyəsi ............................................................ 43

## PEDAQOGİKA

**Seyidova A.M.**
Təlim prosesində müasir texnologiyalardan istifadənin əhəmiyyəti ...................... 58

## PSİXOLOGİYA

**Şəfiyeva E.İ.**, **Allahyarova S.A., Səməndərova A.F.**
Məktəbli mühitində Bullinq probleminin əsas tədqiqi istiqamətləri ...................... 66

# СОДЕРЖАНИЕ

## ПРАВО

**Рзаева Г.Ф.**
Виртуальное пространство, кибер угрозы и защита прав человека ................. 5

## МЕЖДУНАРОДНЫЕ ОТНОШЕНИЯ

**Гарашова С.**
Азербайджанская Республика в современной геополитической системе ........................................................................................17

## ФИЛОСОФИЯ

**Гаджиев З.Дж.**
Аксиологические аспекты естественно-научных знаний ................................32
**Керимова Н.И.**
Теория пассионарности Льва Гумилёва............................................................43

## ПЕДАГОГИКА

**Сеидова А.М.**
Значение использования современных методов в процессе обучения ........................................................................58

## ПСИХОЛОГИЯ

**Шафиева Э.И., Аллахярова С.А., Самандарова А.Ф.**
Основные направления исследования проблемы Буллинга в школьной среде ...........................................................................66

# CONTENTS

## LAW

**Rzayeva G.A.**
Virtual space, cyber threats and protection of human rights.....................................5

## INTERNATIONAL RELATIONSHIPS

**Garashova S.**
The Republic of Azerbaijan in the modern geopolitical system............................17

## PHILOSOPHY

**Hajiyev Z.J.**
Axiological aspects of natural scientific knowledge..............................................32
**Kerimova N.I.**
Lev Gumilev's passionary theory...........................................................................43

## PEDAGOGY

**Seyidova A.M.**
The importance of using modern methods in the learning process .......................58

## PSYCHOLOGY

**Shafiyeva E.I., Allahyarova S.A., Samandarova A.F.**
Main areas of study of the problem of school Bullying........................................66